**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN 2023-CÜ İLƏ AİD ELMİ VƏ ELMİ-TƏŞKİLATİ FƏALİYYƏTİ HAQQINDA

# H E S A B A T

**Naxçıvan-2023**

**Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2023-cü ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan, "Tusi" nəşriyyatı, 2023, 92 s.**

Hesabatda AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin 2023-cü ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında məlumatlar öz əksini tapmışdır.

Hesabat AMEA Naxçıvan Bölməsi üzvlərinin, elmi-tədqiqat müəssisələrinin və müvafiq ali təhsil müəssisələrinin təqdim etdikləri materiallar əsasında Elm və təhsil şöbəsi tərəfindən tərtib edilmişdir.

# GİRİŞ

2023-cü il Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin imzaladığı Sərəncamlara əsasən Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi, akademik Zərifə Əliyevanın 100, akademik Ziya Bünyadovun 100, Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi, Qərbi Azərbaycana qayıdış konsepsiyası ilə bağlı elmi-təşkilati işlərin həllinə nail olunmuşdur.

2023-cü ildə AMEA Naxçıvan Bölməsi fəaliyyəti çərçivəsində bu və ya digər məsələlərlə bağlı Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının Səlahiyyətli Nümayəndəliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin verdiyi sərəncam, qərar, tapşırıq və tövsiyələri layiqincə yerinə yetirməyə çalışmışdır.

AMEA Naxçıvan Bölmənin Rəyasət Heyətində təsdiq edilən elmi-təşkilati və maliyyə-təsərrüfat məsələlərinə dair iş planına uyğun olaraq 2023-cü ilin fəaliyyət dövrü ərzində müvafiq tədbirlər həyata keçirilmişdir. Həmçinin Bölmə tərkibindəki elmi-tədqiqat müəssisələrinin 2023-cü il fəaliyyətinə dair iş planları hazırlanmış, Rəyasət Heyətində müzakirə olunmuş və təsdiq edilmişdir. İş planında qeyd olunan tədbirlərin icrası il ərzində həyata keçirilmişdir.

AMEA Naxçıvan Bölməsinin tərkibindəki elmi qurumlarda (Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu və Əlyazmalar Fondu) elmi-tədqiqat işlərinin 2023-cü il üçün təsdiq edilmiş plana uyğun olaraq 3 elmi istiqamətdə 3 problemi əhatə edən 3 mövzuya daxil olan 17 iş 38 mərhələdə yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Elmi işçilərdən 3 nəfərin işdən azad olunması, 1 nəfərin analıq məzuniyyətinə çıxması ilə əlaqədar 4 mərhələ üzrə tədqiqatlar tamamlanmamışdır. Hesa-

bat ilində elmi-tədqiqat işləri 16 şöbə və 1 laboratoriyada 1 akademik, 3 müxbir üzv, 3 elmlər doktoru, 19 fəlsəfə doktoru, 8 dissertant olmaqla 34 elmi və köməkçi heyət tərəfindən yerinə yetirilmiş, 2 mühüm elmi nəticə əldə olunmuşdur.

AMEA Naxçıvan Bölməsində 2 akademikin və 5 müxbir üzvün iştirakı ilə fəaliyyət göstərən Rəyasət Heyətinin 12 iclası keçirilmişdir. İclaslarda təsdiq edilən sərəncam və qərarların icrası, Bölmənin fəaliyyətinin artırılması, kadr hazırlığı, elmi işçilərin Vahid Tarif Cədvəli üzrə vəzifə və dərəcələrində dəyişiklik edilməsi, doktorant və dissertantların qəbulu, attestasiyası, elmi-tədqiqat planının təsdiqi, elmi məruzələrin dinlənilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, müxtəlif tarixi günlərin və bayramların keçirilməsi, çapa tövsiyə olunan kitab və monoqafiyalar və başqa məsələlərlə bağlı 72 qərar, 3 sərəncam qəbul edilmişdir.

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİNDƏ 2023-CÜ İLDƏ İCRA OLUNAN FƏRMAN, SƏRƏNCAM VƏ QƏRARLAR

Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2005-ci il tarixli 275 nömrəli Fərmanına və "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının 10 iyun 2005-ci il tarixli 923-IIQ nömrəli Qanununun 5.1.9 və 7.1.11-ci yarımbəndlərinin tələblərinə əsasən Azərbaycan Milli Elmlər Akademiyası "AMEA Rəyasət Heyəti Aparatında, elmi müəssisə və təşkilatlarında hərbi vəzifəlilərin hərbi uçotunun təşkili, aparılması və illik statistik hesabatın hazırlanması haqqında" 30 oktyabr 2023-cü il tarixli 240 nömrəli Sərəncam imzalamışdır. Hesabat AMEA Naxçıvan Bölməsi Mülki Müdafiə Qərargahında hazırlanmış və təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 09 aprel 2018-ci il tarixli 3892 №-li Sərəncamı ilə martın 27-si Azərbaycan Respublikasında "Elm Günü" kimi təsis edilmişdir. Sərəncamın icrası məqsədi ilə AMEA Naxçıvan Bölməsində Elm Gününə həsr edilən tədbir keçirilmiş (Naxçıvan, 27 mart 2023), əməkdaşların Elm Günü ilə əlaqədar KİV-də məqalələri dərc olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 03 dekabr 2020-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncama əsasən Azərbaycan Milli Elmlər Akademiyası "AMEA-da 8 Noyabr – Zəfər Gününün qeyd edilməsi haqqında" 26 oktyabr 2023-cü il 19/1 nömrəli Qərar qəbul etmişdir. Qərara əsasən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində 8 Noyabr Zəfər Günü ilə bağlı elmi konfrans (06 noyabr 2023) keçirilmiş, Bölmə əməkdaşlarının KİV-də məqalələri çap olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" 17 aprel 2021-ci il tarixli 1315 nömrəli Fərmanı və bu Fərmanın icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbərliyi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respubli-

kası Prezidentinin səlahiyyətli nümayəndəliyinə 18 avqust 2023-cü il tarixli 24/17-3027 nömrəli məktub ünvanlamışdır. Məktuba əsasən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi AMEA Naxçıvan Bölməsinə 25 avqust 2023-cü il tarixli 1-1-24/2-1012/2023 nömrəli məktubla müraciət etmişdir. Sərəncamın və qeyd edilən məktubun icrası ilə bağlı müvafiq məlumatlar hazırlanmış, aidiyyatı orqana təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişafı Strategiyası"nın təsdiq edilməsi haqqında 22 iyul 2022-ci il tarixli 3378 nömrəli Sərəncamının icrasından irəli gələn məsələlərin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi AMEA Naxçıvan Bölməsinə 10 mart 2023-cü il tarixli 406/2023 nömrəli məktub göndərmişdir. Məktubda qeyd edilən məlumatlar Bölmənin Maliyyə və mühasibat şöbəsində hazırlanmış və müvafiq təşkilata təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli 1769 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi"nin təsdiqi Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2003-cü il tarixli 837 nömrəli Fərmanının ləğvi barədə" Azərbaycan Respublikası Prezidentinin 11 dekabr 2014-cü il tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" və "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" 3 noyabr 2023-cü il tarixli Fərmanlar imzalamışdır. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli, 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 sentyabr 2022-ci il tarixli 374 nömrəli qərarı ilə Azərbaycan Milli Elmlər Akademiyasının yeni strukturu və işçilərinin say həddi müəyyən edilmişdir. AMEA

Naxçıvan Bölməsinin ştat cədvəlində dəyişiklik edilməsi məsələsinə AMEA Rəyasət Heyəti tərəfindən baxılmasının məqsədəuyğunluğu barədə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Azərbaycan Milli Elmlər Akademiyasına ünvanladığı 26 sentyabr 2023-cü il tarixli, 3-2-4/2-1089/2023 nömrəli məktubunu və qeyd olunan Fərmanı icra etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti “AMEA-nın Naxçıvan Bölməsinin strukturunun və ştat cədvəlinin təsdiq edilməsi haqqında” 10 oktyabr 2023-cü il tarixli 18/18 nömrəli Qərar vermişdir. Qərar Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində rəhbərliyə alınmışdır.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” 29 sentyabr 2022-ci il tarixli 3494 nömrəli və “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” 28 noyabr 2022-ci il tarixli 3623 nömrəli Sərəncamların icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 6 dekabr 2022-ci il tarixli 727s nömrəli Sərəncam imzalamışdır. Sərəncamlara və Tədbirlər Planına əsasən AMEA-nın Rəyasət Heyəti “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı AMEA-nın nəşrləri haqqında” 8 dekabr 2022-ci il tarixli 22/5 nömrəli qərar qəbul etmişdir. AMEA-nın Rəyasət Heyəti Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar AMEA-nın elmi bölmələri üzrə çap olunmuş nəşrləri müzakirə edərək “Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar AMEA-nın nəşrləri haqqında” 12 iyul 2023-cü il tarixli 16/2 nömrəli qərar imzalamışdır. Sərəncamın və Qərarın icrası ilə əlaqədar AMEA Naxçıvan Bölməsi əməkdaşlarının 1 monoqrafiyası (İ.Hacıyev. Heydər Əliyev siyasəti: tarix və müasirlik.), 1 kitabı (Ə.Quliyev (A.Quliyeva ilə birgə). Heydər Əliyev tariximizdə və taleyimizdə.), 1 məqalələr toplusu (Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti) nəşr edilmişdir. Bölmədə “Heydər Əliyev ideyaları və müasir dövr” mövzusunda respublika konfransı (17 aprel 2023), “Ümummilli lider Heydər Əliyev və milli məfkurə” (4 aprel 2023), “Ümummilli

lider Heydər Əliyevin həyatı və fəaliyyəti xalqa və vətənə xidmət nümunəsidir" (5 may 2023), "Heydər Əliyevin dövlətçilik siyasəti və müasirlik" (5 iyun 2023), "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü" (18 iyul 2023), "Ulu öndər Heydər Əliyev irsində dil və ədəbiyyat məsələləri" (20 oktyabr 2023), "Ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü" (22 noyabr 2023), "Əbədi yaşar lider" (11 dekabr 2023) mövzusunda elmi konfranslar, 1 monoqrafiya (Heydər Əliyev siyasəti: tarix və müasirlik (8 may 2023), 1 kitab (Heydər Əliyev tariximizdə və taleyimizdə (4 oktyabr 2023) və 1 məqalələr toplusunun (Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti (14 dekabr 2023) təqdimatı keçirilmişdir. 17-18 aprel 2023-cü ildə Bölmədə keçirilmiş "Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda respublika konfransının materialları nəşr edilmişdir. Bölmə əməkdaşları respublikada keçirilən konfrans və tədbirlərdə məruzə etmiş, elmi jurnallarda və KİV-də məqalələri çap olunmuşdur.

Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Elm Fondu" publik hüquqi şəxsin yaradılması və "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi"nin təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Prezidentinin 19 fevral 2010-cu il tarixli 223 nömrəli Fərmanının ləğv edilməsi barədə" 15 oktyabr 2022-ci il tarixli 1855 nömrəli Fərman imzalamışdır. Fərmanın icrası ilə bağlı Azərbaycan Elm Fondu AMEA Naxçıvan Bölməsinə 27 yanvar 2023-cü il tarixli 12-4/2-076/2023 nömrəli məktub ünvanlamışdır. Məktubda qeyd edilən tapşırıqlar AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun fəaliyyətində nəzərə alınmışdır.

Azərbaycan Respublikasının Prezidenti "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" 3 noyabr 2022-ci il tarixli 3563 nömrəli Sərəncam imzalamışdır. Sərəncama əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti akademik Zərifə Əliyevanın 100 illik yubileyinə dair tədbirlər planının həyata keçirilməsi ilə bağlı 11 noyabr 674S nömrəli Sərəncam imzalamışdır. Sərəncamın və Tədbirlər Planının icrası ilə bağlı AMEA Naxçıvan Bölməsi Naxçıvan Dövlət Universiteti

və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə birgə Naxçıvan Dövlət Universitetində "Akademik Zərifə xanım Əliyeva – 100" mövzusunda konfrans (28 aprel 2023) keçirilmişdir. Bölmə əməkdaşları KİV-də yazıları çap olunmuş, Rəyasət Heyətində "Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın həyatı və fəaliyyəti" mövzusunda məruzə edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" 5 yanvar 2023-cü il tarixli 3708 nömrəli Sərəncam imzalamışdır. Sərəncamın icrasını təmin etmək məqsədilə "Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 mart tarixli 89 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 fevral tarixli 68 nömrəli qərarında dəyişiklik edilməsi barədə" 16 yanvar 2023-cü il tarixli 12 nömrəli Qərar qəbul edilmişdir. Qərarın icrasını təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti "AMEA-nın tabeliyində olan, dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatlarda çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında" 23 yanvar 2023-cü il tarixli 26 nömrəli Sərəncam imzalamışdır. Sərəncamın icrası AMEA Naxçıvan Bölməsinin Maliyyə və mühasibat şöbəsində icra olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2023-cü il tarixli Sərancamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda müəyyən edilmiş "Dövlət müəssisə və şirkətlərinin fəaliyyətində maliyyə hesabatlılığı və şəffaflığın gücləndirilməsi" tədbiri ilə əlaqədar olaraq Azərbaycan Respublikası Hesablama Palatasının təşkilatçılığı ilə "Maliyyə şəffaflığı" mövzusunda tədbir keçirilməsi barədə Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi AMEA Naxçıvan Bölməsinə 26 oktyabr 2023-cü il tarixli 2-3/2-4046/2023 nömrəli məktubla müraciət etmişdir.

Təşkil olunan tədbirdə AMEA Naxçıvan Bölməsinin Maliyyə və mühasibat şöbəsinin bir nəfər əməkdaşı iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti "Akademik Ziya Bünyadovun 100 illik yubileyinin qeyd edilməsi haqqında" 28 sentyabr 2023-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncama əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət heyəti tərəfindən "Akademik Ziya Bünyadovun 100 illik yubileyi haqqında" qərar qəbul edilmiş və "Akademik Ziya Bünyadovun 100 illik yubileyi ilə bağlı AMEA-nın Tədbirlər planı" təsdiq olunmuşdur. Sərəncamın və Tədbirlər Planının icrası ilə bağlı AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə "Elmimizin Ziya Bünyadov Zirvəsi" mövzusunda tədbir (18 dekabr 2023) keçirilmişdir.

Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" Qanunun 11-ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi AMEA Naxçıvan Bölməsinə 2024-cü il və sonrakı üç il üçün büdcə gəlirlərinin tərtibinə dair məlumatların təqdim edilməsi barədə 20 fevral 2023-cü il tarixli 3-23-69/2-366/2023 nömrəli məktub ünvanlamışdır. Məktubdan irəli gələn məsələlər AMEA Naxçıvan Bölməsinin Maliyyə və mühasibat şöbəsində yerinə yetirilmiş və müvafiq orqana təqdim olunmuşdur. Həmçinin, Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" və "Dövlət satınalmaları haqqında" Qanunlarının müvafiq bəndlərinin icra olunması məqsədilə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi AMEA Naxçıvan Bölməsinə 30 oktyabr 2023-cü il tarixli 3-23-69/2-1223/2023 nömrəli məktub göndərmişdir. Məktubda qeyd olunan müddəalar nəzərə alınmaqla 2024-cü il üçün AMEA Naxçıvan Bölməsinin xərc göstəriciləri Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyindən əldə olunmuş, satınalma planı hazırlanaraq qanunamüvafiq tədbirlərin görülməsi, növbəti büdcə ili üzrə dövlət büdcəsinin icrası zamanı satınalma prosedurlarının qanunvericiliyə uyğun, vaxtında təşkil edilməsi üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il tarixli 310 nömrəli qərarını rəhbər tutaraq "Azərbaycan Respub-

likasının təxsislə (bronla) işçi qüvvəsi saxlayan Respublika Komissiyası"nın 28 sentyabr 2020-ci il tarixli 01 nömrəli qərarı ilə təsdiq edilmiş hərbi vəzifələrin "Səfərbərlik zamanı və müharibə dövrü üçün təxsis (bron) edilməsi haqqında Təlimat"ın və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin Naxçıvan Şəhər İdarəsi AMEA Naxçıvan Bölməsinə işçilərin Səfərbərlik zamanı və müharibə dövrü üçün təxsis (bron) işinin aparılması üzrə 02 noyabr 2023-cü il tarixli 3-43-70/2-953/2023 nömrəli məktubla müraciət etmişdir. Məktubun icrası Bölmənin müvafiq şöbələrinin fəaliyyətində nəzərə alınmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nda dəyişiklik edilməsi haqqında" 12 yanvar 2023-cü il tarixli 6 nömrəli, 7 mart 2023-cü il tarixli 74 nömrəli və 18 aprel 2023-cü il tarixli 118 nömrəli Qərarlar qəbul etmişdir. Qərarların icrası AMEA Naxçıvan Bölməsinin Elm və təhsil şöbəsinin fəaliyyətində nəzərə alınmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabineti "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2016-cı il tarixli 289 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında" 30 oktyabr 2023-cü il 384 nömrəli Qərar qəbul etmişdir. Qərara uyğun olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2016-cı il tarixli 90 nömrəli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları" təsdiq edilmişdir. Qərarların icrası ilə bağlı Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti AMEA Naxçıvan Bölməsinə 7 noyabr 2023-cü il tarixli 3-2-4/2-1307/2023 nömrəli məktub göndərmişdir. Qərarlar və məktubda qeyd olunan tapşırıqlar Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində icraya alınmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabineti "Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin

uzadılması barədə” 22 dekabr 2022-ci il tarixli 450 nömrəli Qərarı ilə koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il 1 mart saat 06:00-dək uzadılmışdır. Qərara əsasən Azərbaycan Milli Elmlər Akademiyası “Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin uzadılması barədə” 30 dekabr 2023-cü il tarixli 663 nömrəli sərəncam imzalamışdır. Sərəncamın icrası AMEA Naxçıvan Bölməsinin fəaliyyətində nəzərə alınmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261s nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatlarının 2023-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları” təsdiq edilmişdir. Nazirlər Kabinetinin 01 iyul 2010-cu il tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş “Doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydaları”na uyğun olaraq, doktorantura və dissertanturaya qəbul həyata keçirilmişdir. Sərəncam AMEA Naxçıvan Bölməsinin Elm və təhsil şöbəsində rəhbərliyə alınmış və bir nəfər fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qəbul edilmiş, sənədləri təsdiq olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin 2-ci hissəsinin 22-ci bəndini rəhbər tutaraq arxiv işi sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə “Naxçıvan Muxtar Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 14 mart 2020-ci il tarixdə 7-06/S nömrəli Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn məsələlər haqqında Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Elm və təhsil şöbəsində məlumat hazırlanaraq müvafiq orqana təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında” 25 iyun 2021-ci il tarixli 114-06/S nömrəli Sərəncam imzalamışdır. Sərəncama əsasən Naxçıvan Dövlət Universitetinin Filologiya (Azər-

baycan dili və ədəbiyyatı), Tarix, Tərcümə (Fars-Azərbaycan dilləri), Tərcümə (Ərəb-Azərbaycan dilləri) ixtisasları Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinə hamiliyə verilmişdir. Bölmənin elmi-tədqiqat müəssisələrində hamiliyə verilmiş ixtisaslar üzrə təhsil alan tələbələrin iştirakı ilə müvafiq layihələr çərçivəsində tədbirlər (tədqiqatlar, seminarlar, dəyirmi masalar, açıq dərslər və s.) həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti "Naxçıvan Muxtar Respublikasının dövlət qurumlarında müasir informasiya texnologiyalarından istifadənin, həmçinin informasiya təhlükəsizliyinin təşkili və təmin edilməsinə dair 2023-cü il üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında 10 mart 2023-cü il tarixli 24s nömrəli Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn məsələlərin icrası məqsədilə AMEA Naxçıvan Bölməsinin müvafiq şöbələrində məlumatlar hazırlanaraq aidiyyatı təşkilata təqdim edilmişdir.

Ümumi olaraq, 2023-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində Azərbaycan Respublikası Prezidentinin 15 adda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 adda, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının Səlahiyyətli Nümayəndəliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 18 adda, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 4 adda, Azərbaycan Milli Elmlər Akademiyasının 22 adda fərman, sərəncam, qərar və məktublarından irəli gələn vəzifələr icra edilmişdir.

**AMEA Naxçıvan Bölməsinin 2023-cü il üzrə elmi-tədqiqat işlərinin strukturu**

| S № | Müəssisənin adı | Plan üzrə | | | | | Plana əlavə mərhələ sayı | Cəmi mərhələ sayı | Tamamlan-mamış mərhələ sayı | Tamam-lanmış mərhələ sayı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Elmi istiqamət | Problem | Mövzu | İş | Mərhələ | | | | |
| 1. | Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu | 1 | 1 | 1 | 7 | 14 | | 14 | | 14 |
| 2. | İncəsənət, Dil və Ədəbiyyat İnstitutu | 1 | 1 | 1 | 7 | 17 | 3 | 20 | 4 | 16 |
| 3. | Əlyazmalar Fondu | 1 | 1 | 1 | 3 | 4 | | 4 | | 4 |
| CƏMİ | | 3 | 3 | 3 | 17 | 35 | 3 | 38 | 4 | 34 |

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİNİN ELMİ-TƏDQİQAT MÜƏSSİSƏLƏRİNİN 2023-CÜ İLDƏKİ FƏALİYYƏTİ

AMEA Naxçıvan Bölməsinin tərkibindəki elmi-tədqiqat müəssisələrində (Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu və Əlyazmalar Fondu) yerinə yetirilən tədqiqatların elmi istiqamətləri, problemləri və mövzuları aşağıdakılardır:

Elmi istiqamətlər:

1. Naxçıvan tarixinin tədqiqi.
2. Mədəni proseslərin regional məsələləri.
3. Naxçıvan əlyazmalarının toplanılması, sistemləşdirilməsi və kataloqlaşdırılması.

Problemlər:

1. Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi tarixinin öyrənilməsi.
2. Naxçıvanın mədəni mühiti, maddi və mənəvi mədəniyyəti.
3. Naxçıvan əlyazmalarının toplanılması, sistemləşdirilməsi, kataloqlaşdırılması və tədqiqi.

Mövzular:

1. Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin tədqiqi.
2. Naxçıvanın mədəni mühiti, maddi və mənəvi mədəniyyətinin tədqiqi.
3. Naxçıvan əlyazmalarının toplanılması, sistemləşdirilməsi, kataloqlaşdırılması, qorunması, tədqiqi, nəşri və təbliği.

Bölmənin **Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda** 25 əməkdaş fəaliyyət göstərmişdir ki, onlardan 5 nəfər hesabat dövründə işə qəbul edilmişdir. İnstitutda 1 akademik, 2 müxbir üzv, 1 elmlər doktoru, 8 fəlsəfə doktoru və 2 dissertant olmaqla ümumilikdə 14 nəfər tədqiqatların məsul icraçısı olmuşdur. Elmi-tədqiqat işləri 1 problem, 1 mövzuya daxil olan 7 iş 14 mərhələdə yerinə yetirilmişdir.

Qədim və Orta Əsrlər tarixi şöbəsində "Naxçıvanın orta əsrlər dövrü tarixinin tədqiqi" işi üzrə 3 mərhələdə araşdırmalar aparılır. Plana uyğun olaraq **"Naxçıvan Muxtar Respublikasının epiqrafik abidələrində iqtisadi tarix məsələləri"** (F.Səfərli) mərhələsi üzrə epiqrafik materiallar toplanmışdır. Ərazidə əvvəllər tədqiq edilən kitabələrdə Azərbaycanın iqtisadi tarixi ilə əlaqədar təqdim olunan məlumatlar toplanaraq sistemləşdirilmişdir. Naxçıvan bölgəsinin müxtəlif yerlərində tədqiq olunan kitabələr orta əsr Azərbaycan hökmdarlarının vergi siyasəti, əhalidən alınan vergilər, torpaq mülkiyyəti, satışda olan məhsullar, kənd təsərrüfatı məhsullarının bazar qiyməti, əhalinin vəziyyəti, baş verən müharibələrin ölkə iqtisadiyyatına təsiri və s. haqqında maraqlı məlumatlar təqdim edir. Epiqrafik abidələrin özlərində saxlayıb bizə çatan bu məlumatlar digər mənbələrlə birlikdə Azərbaycanın orta əsrlər dövrü iqtisadi tarixinin bir sıra məsələlərinin hərtərəfli və dərindən öyrənilməsi sahəsində mühüm rol oynayır. Bütün bunları nəzərə alaraq, kitabələrin mətnlərində Naxçıvan bölgəsinin iqtisadi tarixinə dair qeyd olunmuş məlumatlar tədqiq edilmişdir. Müxbir üzv F.Səfərli iş yerini dəyişdiyi üçün mərhələnin icrası dayandırılmışdır. Araşdırma dövründə 2 monoqrafiya (1-i həmmüəllif), 8 elmi (1-i xaricdə), 3 qəzet məqaləsi və 2 konfrans materialı nəşr edilmişdir.

**"Səfəvilər dövründə Naxçıvan bölgəsinin əhalisinin məskunlaşması və etnik tərkibi"** (İ.Əliyev) adlanan ikinci mərhələ ilə bağlı ədəbiyyat materialları toplanmış, sistemləşdirilmiş və araşdırmalar aparılmışdır. Səfəvilər dövründə ölkə ərazisinin nəinki bütöv şəkildə, həm də ayrı-ayrı bölgələrində yaşayan əhalinin etnik, dini mənsubiyyəti və məskunlaşma arealının müəyyənləşdirilməsi burada yaşayan yerli əhalinin tarixən kimlərdən ibarət olduğunu sübut etməyə kömək edir. Tədqiqat zamanı Səfəvilər dövründə Naxçıvan bölgəsi əhalisinin milli və dini mənsubiyyəti, əhalinin məskunlaşması ilə bağlı məsələlərin dərindən araşdırılması sonradan bu sahədə baş vermiş demoqrafiq dəyişikliklərin, həmin dəyişikliklərin yerli əhalinin etnik tərkibinə təsirini müəyyən etməyə və onların hazırkı aqibətini açıqlamağa imkan vermişdir. İş planının yerinə yetirilməsində əsas məqsəd bəhs edi-

lən dövrdə Naxçıvan bölgəsinin əhalisinin məskunlaması və etnik tərkibinin araşdırılması olmuşdur. Tədqiqatların imkan verdiyi səviyyədə mövzunun araşdırılması sahəsində işlər aparılmışdır. Tədqiqatın nəticəsi kimi 4 elmi (1-i xaricdə) və 1 konfrans materialı nəşr edilmişdir.

**"XIII-XV əsrlərdə Naxçıvanda şəhər həyatı"** (S.Hacıyeva) ilə bağlı materiallar toplanmış və sistemləşdirilmişdir. Mənbələrin və ədəbiyyat materiallarının verdiyi məlumatlardan aydın olur ki, orta əsrlər dövründə istər sənətkarlıq, istərsə də ticarət şəhər həyatının əsas iqtisadi bazasını təşkil edirdi. Tədqiqatçılar qeyd edirlər ki, Azərbaycan şəhərlərinin kiçik qala-şəhərlərdən iri siyasi-inzibati, sənətkarlıq-ticarət və mədəni-dini mərkəzlərə çevrilməsi dövrü hesab etmək mümkünsə, XI-XII əsrləri şəhər həyatının yüksəlişi, çiçəklənməsi dövrü adlandırmaq olar. İctimai əmək bölgüsü baxımından şəhər kəndin əksi olaraq, sənətkarlıq məhsulları istehsalı, ticarətlə bağlı əməyin və zehni əmək fəaliyyətinin cəmləşdiyi məkan idi. Müxtəlif ticarət yollarının kəsişdiyi şəhərdə çoxlu sayda bazarlar, dükanlar, sənətkar emalatxanaları və s. iqtisadi baxımdan əhəmiyyətli obyektlər var idi ki, onlar sənətkarlıq, kənd təsərrüfatı və ticarət mallarının alqı-satqısını genişləndirirdi. O dövrdə Azərbaycanın inkişaf etmiş şəhərlərində olduğu kimi, Naxçıvanda da sənətkarlar-əsnaflar sex (emalatxana) təşkilatlarında birləşirdilər. Təbii ki, sənətkarlıq sahələrinin yüksək səviyyədə inkişafı onların təşkilatlarının mərkəzləşməsinə gətirib çıxarmışdı. Araşdırmalardan bəlli olur ki, bəhs olunan dövrdə Naxçıvanda böyük sənətkarlar zümrəsi formalaşmışdı. Bunu günümüzədək gəlib çatmış tarix-mədəniyyət abidələrinin mühafizə olunduğu çoxlu sayda muzeylərimizdə saxlanan nümunələr, insanların məişət həyatında istifadə etdiyi əşyalar, həmçinin dünyanın bir çox ölkələrində nümayiş etdirilən xalqımıza məxsus sənətkarlıq nümunələri də təsdiq edir. Üç elmi, 1 qəzet məqaləsi və 2 konfrans materialı nəşr edilmişdir.

Yeni və Ən Yeni tarix şöbəsində "Naxçıvanın yeni və ən yeni dövr tarixinin tədqiqi" işi ətrafında 4 mərhələdə araşdırmalar aparılmışdır. Hesabat dövründə **"Naxçıvan əyaləti və Ordubad dairəsinin idarəetmə strukturları"** (İ.Hacıyev) adlı birinci mər-

hələ tədqiq edilmişdir. Mövzu ilə əlaqədar material toplanmış, kameral təsvirlərin arxivdən əldə edilməsinə nail olunmaqla yanaşı, bu sahədə olan digər kameral təsvirlərlə da tanış olunmuşdur. Tədqiqat zamanı 4 monoqrafiya (2-si həmmüəllif), 1-i Scopus bazasında olmaqla 15 elmi (3-ü xaricdə), 8 qəzet məqaləsi və 1 konfrans materialı nəşr edilmişdir.

**“Naxçıvan hərb tarixi Rusiya tarixçi-qafqazşünaslarının əsərlərində”** (M.Quliyev) adlı ikinci mərhələyə dair araşdırmalar aparılmışdır. Bu məsələ Azərbaycan tarixşünaslığında indiyədək araşdırılmamış və sistemli şəkildə tədqiqat obyekti olmamışdır. Rusiyanın hərb tarixçiləri Qafqazda cərəyan edən siyasi və hərbi əməliyyatlar haqqında kitablar yazmışlar. XIX əsrdə P.Butkov, S.Burnaşev, N.Dubrovin, P.Zubov, V.Potto, V.Qriqoryev, İ.Şopen və digərləri maraqlı əsərlər yazmışlar. Onların əsərlərində Naxçıvan hərb tarixi və hərbçiləri haqqında da diqqəti cəlbedən məlumatlar vardır. Araşdırmalar göstərir ki, yazılan kitablarda verilən məlumatlar Kalbalı xanın Qafqazda məşhur sərkərdə olmasını bir daha təsdiqləyir. Təsvir edilən döyüş səhnələrində Kəngərli süvarilərinin döyüş bacarığı və mahir döyüşçü olmaları aydın seçilir. Kəngərli süvari qoşunlarının sayı, geyimləri və digər yazılan məlumatlar, bəzi ziddiyyətli fikirlərə baxmayaraq, bu kitabların ilkin mənbə kimi qəbul edilməsini önə çəkir. Qədim Oğuz-türk tayfası olan kəngərlilərin XIX əsrdə hərb tarixi hərtərəfli öyrənilmiş, tədqiq edilmiş, araşdırmaların nəticəsi olaraq elmi, elmi-publisistik məqalələr yazılmış, yerli və beynəlxalq konfranslarda iştirak edilmişdir. Tədqiqat işinin yekunu göstərir ki, Naxçıvan hərb tarixi Rusiya tarixçi-qafqazşünaslarının XIX əsrdə yazdıqları kitablarda geniş təsvir olunmuşdur. Hesabat ilində 1 monoqrafiya (həmmüəllif), 4 elmi, 15 qəzet məqaləsi və 2 konfrans materialı çap olunmuşdur.

**“Naxçıvan I Dünya müharibəsi illərində”** (Y.Rəhimov) adlı mərhələ üzrə yeni arxiv materialları əldə edilmişdir. Materiallar sənədlərlə müqayisə edilərək tədqiqata cəlb olunmuş və araşdırılmışdır. I Dünya müharibəsi illəri Naxçıvan tarixinin ağır dövrlərindəndir. Bu baxımdan məsələnin obyektiv araşdırılmasına və yeni arxiv sənədləri əsasında sistemli şəkildə, yeni müs-

təvidə tədqiq edilməsinə ciddi fikir verilmişdir. Araşdırmalardan belə nəticəyə gəlinmişdir ki, 1914-1918-ci illərdə Naxçıvanda əhalinin vəziyyəti ağır və acınacaqlı olaraq qalırdı. Aclıq və xəstəliklər bölgədə yaşayan əhalinin vəziyyətinə mənfi təsir göstərirdi. Bundan əlavə, sosial problemlər- su azlığı və torpaq çatışmazlığı da naxçıvanlıların sosial vəziyyətinə təsirsiz ötüşmürdü. Bu illərdə Naxçıvanda çar hökumətinin törətdiyi faciələr kəndliləri acnacaqlı hala salmışdı. Əhalinin vəziyyəti ildən-ilə pisləşir, kasıblaşan kəndlilərdən müxtəlif vergilər (kənd təsərrüfatı vergiləri və s.) şallaq gücünə, polis təzyiqi vasitəsilə alınırdı. Tədqiqat ilində 1 monoqrafiya (həmmüəllif), 6 elmi, 3 qəzet məqaləsi, 3 konfrans materialı nəşr edilmişdir.

**“Naxçıvan Dövlət Universitetində elmin inkişafı (1996-2023)”** (N.Ağayeva) adlı dördüncü mərhələ ilə bağlı ədəbiyyat və arxiv materialları toplanaraq sistemləşdirilmiş və problemin öyrənilmə səviyyəsi araşdırılmışdır. Mövzuya dair yeni arxiv materialları əldə edilmiş və tədqiqata cəlb edilərək araşdırılmışdır. Ümumiyyətlə, Naxçıvan Dövlət Universitetinin yeni inkişaf dövrü haqqında əvvəlki dövrlərdə geniş şəkildə araşdırılmamışdır. Bu baxımdan həmin dövrün öyrənilməsinə və yeni arxiv sənədləri əsasında sistemli şəkildə, müasir müstəvidə tədqiq edilməsinə ciddi fikir verilmişdir. N.Ağayeva iş yerini dəyişdiyi üçün mərhələnin icrası dayandırılmışdır. Bir elmi məqalə, 5 konfrans materialı (1-i xaricdə) nəşr edilmişdir.

İnstitutun Qədim Dövr Arxeologiyası şöbəsində “Naxçıvanda qədim əkinçi-maldar tayfaların mədəniyyəti” işinə daxil olan **“Neolit və Erkən Eneolit keramikasının xüsusiyyətləri”** (V.Baxşəliyev) mərhələsi üzrə araşdırmalar həyata keçirilmişdir. Tədqiqatlar zamanı Naxçıvanın Neolit və Erkən Eneolit keramikasının xüsusiyyətləri araşdırılmışdır. Naxçıvanın Eneolit abidələrinin tədqiqi göstərir ki, e.ə. V minilliyin birinci yarısında və ortalarında Yaxın Şərq ölkələri ilə əlaqələr xüsusilə intensivləşmiş, Ubeyd tipli boyalı keramika Naxçıvan ərazisinə yayılmışdır. Məlum olduğu kimi, Cənubi Qafqazın Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrinin xarakteri ilə bağlı müxtəlif fikirlər söylənmiş, lakin bu mədəni əlaqələrin necə baş verdiyi kifa-

yət qədər aydınlaşdırılmamışdır. Tədqiqatçılar Dalmatəpə mədəniyyəti fenomeninin inkişafını müxtəlif faktorların ticarət, mübadilə, maddi nümunələrin yerdəyişməsi, əhalinin miqrasiyası, yerli mədəniyyətlərdə xarici elementlərin istifadəsi və digərlərinin kombinasiyası ilə aydınlaşdırmaq istəmişlər. Naxçıvanın Neolit və Erkən Eneolit keramikasının araşdırılması Yaxın Şərq ölkələrinin, xüsusilə Dalmatəpə və Ubeyd mədəniyyəti tayfalarının Azərbaycanın cənub bölgələrində, o cümlədən Naxçıvanda koloniyalar şəklində məskunlaşdığını deməyə əsas verir. Araşdırmalara əsaslanaraq bu məskunlaşmanın e.ə.V minilliyin birinci yarısında xüsusulə intensiv olduğunu deyə bilərik.

2023-cü ildə Sədərək Kültəpəsində Azərbaycan-ABŞ arxeoloqlarından ibarət beynəlxalq arxeoloji ekspedisiya araşdırmalar aparmışdır. Sədərək Kültəpəsinin araşdırılmasında aşkar olunan şəhər strukturları tədqiq edilmişdir. Tədqiqatlar zamanı Sədərək şəhərində daş döşəməli küçənin qalığı aşkar olunub. Araşdırmalar Sədərək Kültəpəsi ilə Cənubi Azərbaycanın Həsənli yaşayış yeri arasında sıx bağlılığın olduğunu sübut edir. Üç monoqrafiya (həmmüəllif), 1 proqram, 1-i Scopus bazasında olmaqla 8 elmi (3-ü xaricdə), 6 qəzet məqaləsi, 1 tezis və 2 konfrans materialı (1-i xaricdə) çap olunmuşdur.

<u>Antik və Orta əsrlər Arxeologiyası</u> şöbəsində "Naxçıvanın Antik və Orta əsrlər dövrü abidələrinin tədqiqi" işi çərçivəsində yerinə yetirilən **"Babək rayonunun Orta əsr yaşayış yerləri"** (T.Xəlilov) mərhələsi üzrə araşdırmalar aparılmışdır. Bölgədə müxtəlif dövrlərə aid xeyli arxeoloji abidə vardır. Onlardan bir qrupu Orta əsrlər dövrünə aiddir. Onlar yaşayış yerləri, qəbir abidələri, qalalar, körpülər, karvansaralar və digərlərindən ibarətdir. Bu abidələrin bir qismi qeydə alınsa da dərindən öyrənilməmiş, ayrıca tədqiqat obyekti olmamışdır. Eyni zamanda yeni arxeoloji abidələrin aşkar olunaraq tədqiqata cəlb edilməsi işi tam başa çatmamışdır. Tədqiqat ilində ərazidəki Orta əsrlər dövrünə aid yaşayış yerləri araşdırılmışdır. Səkkiz elmi (4-ü xaricdə), 5 qəzet məqaləsi, 4 konfrans materialı (3-ü xaricdə) çap edilmişdir.

<u>Arxeoloji xidmət</u> şöbəsində "Naxçıvanın Dəmir dövrü mədəniyyəti" işi üzrə **"Erkən Dəmir dövrünün qəbir abidələri"**

(Z.Quliyeva) mərhələsi araşdırılmış, Qazxan, Qarabulaq, Paya dərəsi, Sədərək, I-II Dəmirçi nekropollarının materiallarının tipoloji təsnifatları aparılmışdır. Eyni zamanda Milli Azərbaycan Tarixi Muzeyinin Arxeoloji Fondunda saxlanılan arxeoloji materialların bir qismi (İsmayılbəytəpə, Baharlı, Səngərtəpə və b.) araşdırılmışdır (23-25 iyun 2023). Tədqiqat çərcivəsində 1-i Scopus bazasında, 1-i impakt faktorlu jurnalda olmaqla 3 elmi (2-si xaricdə), 2 qəzet məqaləsi, 1 konfrans materialı nəşr olunmuşdur.

Etnoqrafiya şöbəsində "Naxçıvanın etnoqrafik tədqiqi" işi çərçivəsində **"Naxçıvanda su nəqliyyat vasitələri (XIX-XX əsr)"** (A.Orucov) mərhələsi ilə bağlı ədəbiyyat materialları toplanmış və sistemləşdirilmişdir. Əvvəlki illərdə toplanmış etnoqrafik çöl materialları isə mövzu üzrə araşdırılmış və tədqiqata cəlb edilmişdir. Yeni etnoqrafik çöl materialları toplanılmışdır. Araşdırma zamanı su nəqliyyat vasitələrindən nə zaman, harada daha geniş istifadə edilməsi haqqında məlumatlar öyrənilmişdir. Onların yaranma texnoogiyası tədqiqata cəlb edilmişdir. Bu sahə ilə bağl bəzi məsələlərə aydınlıq gətirilmişdir. Belə ki, bu məsələlər bu günə kimi kompleks şəkildə araşdırılıb ortaya qoyulmamışdır. Bunu nəzərə alaraq ilk növbədə bəhs olunan sahə etnoqrafik baxımdan araşdırılıb ortaya çıxarılmışdır. Araşdırmalardan məlum olmuşdur ki, Naxçıvanda su nəqliyyat vasitələrindən ən çox üfürmə nəqliyyat vasitəsi istifadə edilmişdir. Bunlardan *tuluq, pələ, kələki* qeyd edə bilərik. Təsadüfi deyil ki, üfürmə su nəqliyyatı vasitələri əsasən Naxçıvan bölgəsində qeydə alınmışdır. Bu da Naxçıvan bölgəsində ağac ehtiyatının az olduğundan irəli gəlmişdir. Bir monoqrafiya (həmmüəllif), 5 elmi (1-i xaricdə), 5 qəzet məqaləsi, 3 konfrans materialı (1-i xaricdə) nəşr edilmişdir. Eyni zamanada Qərbi Azərbaycan əhalisinin etnoqrafiyası ilə bağlı Çalxanqala kəndində etnoqrafik çöl materialları toplanmışdır.

**"Naxçıvan Muxtar Respublikası kənd əhalisinə göstərilən ictimai-iaşə xidməti"nin** (A.Qəhrəmanova) tədqiqinə dair ədəbiyyat toplanaraq sistemləşdirilmiş və problemin öyrənilmə səviyyəsi araşdırılmışdır. Məqalələrin yazılması üçün muxtar respublikanın kənd əhalisindən mövzuya dair etnoqrafik məlumat-

lar toplanmış, həmçinin M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasından, Bölmənin Elmi kitabxanasından məlumatlar əldə edilmişdir. Mövzu üzrə əldə edilən materiallar müqayisə edilərək tədqiqata cəlb edilmiş və araşdırılmışdır. Muxtar respublikanın kənd əhalisinə göstərilən ictimai iaşə xidmət sahələrinin, həmçinin xidmət və kənd mərkəzlərinin kənd əhalisinə göstərdikləri xidmət səviyyəsi öyrənilməklə yanaşı, onların kənd əhalisinin həyat səviyyəsinə təsiri təhlil edilmişdir. T.ü.f.d. A.Qəhrəmanova iş yerini dəyişdiyi üçün mərhələnin icrası dayandırılmışdır. Bir monoqrafiya (həmmüəllif), 6 elmi, 1 qəzet məqaləsi və 1 konfrans materialı çap edilmişdir.

Qafqaz Tarixi şöbəsində "Cənubi Qafqaz regionunda baş verən siyasi proseslər, onların Azərbaycan Respublikasına mümkün təsirləri və bu proseslərdə Naxçıvanın yeri: tarix və müasir dövr" işi üzrə iki mərhələdə tədqiqatlar icra edilmişdir. **"Cənubi Qafqazın təhlükəsizlik problemlərinin həlli məsələlərində Ermənistanın mövqeyi və Naxçıvana mümkün təsirləri"** (E.Şıxəliyev) mərhələsi üzrə yeni materiallar əldə edilmişdir. Bu materiallar təhlil edilərək tədqiqata cəlb olunmuşdur. Tədqiqat predmeti kimi seçilmiş mövzunun araşdırılması Cənubi Qafqazın təhlükəsizlik problemlərinin həlli məsələlərində ortaya çıxan maneələrin anatomiyasını dərk etməyə imkan verir. Xüsusilə həm Ermənistanın mövqeyi, təxribatçı addımları, sülhə yanaşmaq niyyətində olmaması, həm də regional və qlobal güclərin problemin həlli istiqamətində ikili oyunları, problemin Naxçıvana təsirləri regionun sabitliyinə mane olmaqdadır. Lakin Azərbaycan bütün maneələrə baxmayaraq, düşünülmüş şəkildə öz amal, niyyət və məramlarını tədricən və planlı şəkildə reallaşdırmaqdadır. T.e.d. E.Şıxəliyev iş yerini dəyişdiyi üçün mərhələnin icrası dayandırılmışdır. Tədqiqat ilində 1 monoqrafiya (həmmüəllif), 3 elmi (1-i xaricdə) və 2 konfrans materialı (1-i xaricdə) çap edilmişdir.

**"Naxçıvana qarşı iddiaların formalaşmasında erməni kilsəsinin rolu"** (N.Əliyeva) mərhələsi ilə bağlı ədəbiyyat materialları toplanaraq sistemləşdirilmiş və problemin öyrənilmə səviyyəsi araşdırılmışdır. Aparılan təhlillər, tarixşünaslıq əsərlərinin öyrənilməsi aydın şəkildə göstərir ki, indiyə qədər Erməni kil-

sәsinin fәaliyyәti ilә bağlı mәsәlәlәr Azәrbaycan tarixşünaslığında müәyyәn qәdәr öyrәnilsә dә, bu kilsәnin Naxçıvanla bağlı tәbliğati fәaliyyәtinin aspektlәri, bu ulu oğuz-türk yurduna qarşı әsassız iddiaların formalaşmasında kilsәnin rolu xüsusi tәdqiqat obyekti olmamışdır. Ermәni kilsәsinin Naxçıvana qarşı әsassız iddialarının olduğunu sübut edәn fikirlәr birbaşa olaraq Ermәni Apostol Kilsәsinin rәsmi saytındakı materiallara istinadәn tәqdim olunmuşdur. Araşdırmalara dair 1 elmi mәqalә (xaricdә) vә 1 konfrans materialı nәşr olunmuşdur.

İnstitut әmәkdaşlarından t.ü.f.d. İ.Әliyev vә Ә.Tağıyev 2023-ci ilin 01-15 oktyabr tarixlәrindә Türkiyә Cümhuriyyәtinin Ankara şәhәrindә yerlәşәn dövlәt arxivlәrindә material toplamaq üçün ezam olunmuş vә Türkiyә Cümhur Başqanlığı Arxivindә işlәmişlәr. Arxivin müvafiq fondlarından – Dışişlәri Bakanlığı Türk Diplomatik Arşivi, Devlet Arşivlәri Başkanlığı Cümhuriyyet Arşivi, Devlet Arşivlәri Başkanlığı Osmanlı Arşivi, Milli Savunma Bakanlığı Askeri Tahrir Arşivi fondlarında Naxçıvan tarixinin bütün dövrlәri ilә bağlı 3000 sәhifәdәn artıq 500-ә qәdәr sәnәd әldә edilmişdir.

Hesabat ilindә institut әmәkdaşlarının 115 elmi әsәri, o cümlәdәn **8 monoqrafiyası:**

1. İ.Hacıyev. Heydәr Әliyev siyasәti: tarix vә müasirlik. Bakı: Elm, 2023, 336 s.;
2. İ.Hacıyev. Culfa rayonunun tarixi. Naxçıvan: “Әcәmi” NPB, 2023, 200 s.;
3. İ.Hacıyev. Heydәr Әliyev: şәxsiyyәtin miqyası vә missiyası. Bakı: Elm, 2023, 584 s. (hәmmüәllif);
4. İ.Hacıyev, F.Sәfәrli, A.Orucov, A.Qәhrәmanova. Naxçıvan Etnoqrafiyası. İki cilddә. I cild. Bakı: Elm vә tәhsil, 2023, 476 s.;
5. F.Sәfәrli. Naxçıvan tarixindәn sәhifәlәr (ikinci kitab). Naxçıvan: “Әcәmi” NPB, 2023, 240 s.;
6. V.Baxşәliyev, E.Şıxәliyev, Y.Rәhimov. Şәrur rayonunun tarixi. Naxçıvan: “Әcәmi” NPB, 2023, 376 s.;
7. V.Baxşәliyev, E.Baxşәliyev. Dalmatәpә mәdәniyyәtinin mәnşәyi. Naxçıvan: “Әcәmi” NPB, 2023, 136 s.;

8. V.Baxşəliyev, M.Quliyev. Kəngərli rayonunun tarixi. Naxçıvan: “Əcəmi” NPB, 2023, 264 s.,

**1 metodik vəsaiti:**

1. V. Baxşəliyev. Naxçıvan Arxeologiyası. Naxçıvan Dövlət Universiteti. 2023,

75 elmi məqaləsi, 30 konfrans materialı və 1 tezisi çapdan çıxmışdır. Elmi əsərlərdən 24-ü, o cümlədən 17 məqalə və 7 konfrans materialı xaricdə çap olunmuşdur. Məqalələrin 3-ü Scopus bazasında olmaqla 4-ü impakt faktorlu jurnalda nəşr edilmişdir. Elmi məqalələrin hamısı beynəlxalq kodlu jurnallarda çap edilmişdir. Hesabat dövründə 49 qəzet məqaləsi işıq üzü görmüşdür. Elmi əsərlərə ResearchGate, Academia.edu, Google Scholar elmmetrik bazalarında olmaqla 433 istinad qeydə alınmışdır.

Hesabat ilində institut əməkdaşları **6 beynəlxalq tədbirdə**:

1. Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı. Beynəlxalq elmi konfrans. Bakı, 6-7 mart 2023 – müxbir üzv F.Səfərli, N.Ağayeva;

2. 9-cu Uluslararası Türk Dünyası Sosial Bilimlər Konfransı. İstanbul, 18-20 may 2023 – t.ü.f.d. T.Xəlilov;

3. I Beynəlxalq İpək yolu konfransı. Naxçıvan, 26-27 may 2023 – akademik İ.Hacıyev, müxbir üzv F.Səfərli;

4. Səmərqənd ətrafı qonşuluqdan Avrasiyanın digər mərkəzlərinə: Mərkəzi Asiya tarixi prizmadan. Beynəlxalq elmi-texniki konfrans. Səmərqənd, 2 iyun 2023 – t.ü.f.d. T.Xəlilov

5. VII. Beynəlxalq Tətbiqi Sosial Elmlər Konqresi. Malta, 13-15 oktyabr 2023 – t.ü.f.d. T.Xəlilov;

6. Qərbi Azərbaycana qayıdışa gedən yol. Beynəlxalq elm konqres. Naxçıvan, 23-24 noyabr 2023 – akademik İ.Hacıyev, müxbir üzv V.Baxşəliyev, t.ü.f.d. Y.Rəhimov, t.ü.f.d. İ.Əliyev, t.ü.f.d. T.Xəlilov;

**4 respublika konfransında:**

1. Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibəti ilə “Heydər Əliyev ideyaları və müasir dövr” mövzusunda respublika konfransı. Naxçıvan, 17 aprel 2023 – akademik İ.Hacıyev, müxbir üzv F.Səfərli, müxbir üzv V.Baxşəliyev, t.e.d. E.Şıxəliyev, t.ü.f.d. Y.Rəhimov, t.ü.f.d. İ.Əliyev, t.ü.f.d. A.Orucov,

t.ü.f.d. T.Xəlilov, t.ü.f.d. Z.Quliyeva, t.ü.f.d. A.Qəhrəmanova, N.Ağayeva;

2. Heydər Əliyev və Təhlükəsizlik orqanları. Respublika konfransı. Naxçıvan, 24 aprel 2023 – akademik İ.Hacıyev;

3. Heydər Əliyev və milli dövlətçilik məsələləri. Respublika konfransı. Naxçıvan, 25-26 may 2023 – akademik İ.Hacıyev, t.e.d. E.Şıxəliyev, t.ü.f.d. İ.Əliyev, t.ü.f.d. T.Xəlilov;

4. Akademik Mahmud Kərimovun 75 illiyinə həsr olunmuş "Radiasiya təhlükəsizliyi problemləri: regional aspektlər" mövzusunda elmi-texniki konfrans. Naxçıvan, 18-19 oktyabr 2023 – akademik İ.Hacıyev,

**20 muxtar respublika tədbirində:**

1. Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibəti ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində tədbir. Naxçıvan, 17 fevral 2023 – t.ü.f.d. Y.Rəhimov;

2. "Ulu Öndər Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" mövzusunda konfrans. Naxçıvan, 15 mart 2023 – müxbir üzv F.Səfərli;

3. "Heydər Əliyev İli"nə həsr olunmuş "Ulu öndər Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan" adlı tədbir. Naxçıvan, 15 mart 2023 – t.ü.f.d. T.Xəlilov;

4. Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibəti ilə "Ümummilli lider Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" adlı tədbir. Naxçıvan, 14 mart 2023 – t.ü.f.d. A.Orucov;

5. Naxçıvan Müəllimlər İnstitutunda "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir" mövzusunda tədbir. Naxçıvan, 28 mart 2023 – akademik İ.Hacıyev;

6. Naxçıvan Müəllimlər İnstitutunda "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda elmin inkişafı" mövzusunda tələbələrlə görüş. Naxçıvan, 28 mart 2023 – akademik İ.Hacıyev;

7. "Akademik Zərifə xanım Əliyeva – 100" mövzusunda konfrans. Naxçıvan, 28 aprel 2023 – akademik İ.Hacıyev;

8. YAP Naxçıvan Muxtar Respublika və Naxçıvan şəhər təşkilatının təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasında milli-siyasi sistemin formalaşması" mövzusunda elmi konfrans. Naxçıvan, 5 may 2023 – müxbir üzv F.Səfərli;

9. Ümummili lider Heydər Əliyevin 100 illiyi münasibəti ilə Şahbuz şəhərində Ahıllar evində tədbir. Naxçıvan, 5 may 2023 – müxbir üzv F.Səfərli;

10. Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibəti ilə Dövlət Miqrasiya Xidmətində keçirilən tədbir. Naxçıvan, 5 may 2023 – t.ü.f.d. Y.Rəhimov;

11. Ulu öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Babək, Şahbuz və Kəngərli rayonlarında keçirilən tədbir. Naxçıvan, 10 may 2023 – müxbir üzv F.Səfərli, t.ü.f.d. A.Orucov, t.ü.f.d. T.Xəlilov;

12. Şərur rayon İcra Hakimiyyətində "Şərur rayonunun tarixi" kitabının təqdimatı. Naxçıvan, 24 may 2023 – müxbir üzv V.Baxşəliyev. t.ü.f.d. Y.Rəhimov;

13. Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibəti ilə tədbir. Naxçıvan, 24 may 2023 – t.e.d. E.Şıxəliyev;

14. Professor Əjdər İsmayılovun 85 illiyi ilə əlaqədar tədbir. Naxçıvan, 12 iyun 2023 – akademik İ.Hacıyev;

15. YAP Gənclər təşkilatının təşkilatçılığı ilə "Qayıdış-Qərbi Azərbaycan" mövzusunda tədbir. Naxçıvan, 10 oktyabr 2023 – t.ü.f.d. A.Orucov;

16. "Güclü lider: Müzəffər Ali Baş Komandan" adlı tədbir. Naxçıvan, 15 oktyabr 2023 – akademik İ.Hacıyev;

17. Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə bağlı Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində tədbir. Naxçıvan, 15 oktyabr 2023 – müxbir üzv V.Baxşəliyev;

18. Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə bağlı Naxçıvan şəhər İcra Hakimiyyətində tədbir. Naxçıvan, 17 oktyabr 2023 – t.ü.f.d. İ.Əliyev;

19. Naxçıvan şəhər İcra Hakimiyyətində "Ata vəsiyyəti və inamlı Zəfər" adlı tədbir. Naxçıvan, 6 noyabr 2023 – akademik İ.Hacıyev;

20. Ümumilli lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Naxçıvan Müəllimlər İnstitutunda "Mənəvi dəyərlərimizin qorunmasında tarixi abidələrin rolu" mövzusunda elmi-praktik konfrans. Naxçıvan, 16 noyabr 2023 – müxbir üzv V.Baxşəliyev çıxış etmişdir.

2023-cü ildə institut əməkdaşlarından akademik İ.Hacıyev, müxbir üzv F.Səfərli, müxbir üzv V.Baxşəliyev, t.e.d. E.Şıxəliyev, t.ü.f.d. Y.Rəhimov, t.ü.f.d. İ.Əliyev, t.ü.f.d. T.Xəlilov, t.ü.f.d. A.Orucov, t.ü.f.d. Z.Quliyeva, t.ü.f.d. M.Quliyev, t.ü.f.d. S.Hacıyeva, t.ü.f.d. A.Qəhramanova, N.Ağayeva, A.İsmayılova, Ə.Tağıyev və S.Əliyev **Bölmə səviyyəli 15 elmi konfrans və 5 tədbirdə -** "20 Yanvar: xalqımızın qəhrəmanlıq salnaməsi" (19 yanvar 2023), "Xocalı soyqırımı: səbəbləri, nəticələri və dərsləri" (24 fevral 2023), "Azərbaycanlılara qarşı soyqırım siyasəti: səbəbləri və nəticələri" (30 mart 2023), "Ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyəti xalqa və vətənə xidmət nümunəsidir" (5 may 2023), "Heydər Əliyevin dövlətçilik siyasəti və müasirlik" (5 iyun 2023), "15 İyun - Milli Qurtuluş Günü" (14 iyun 2023), "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü" (18 iyul 2023), "Xalqımızın qədim yurd yeri: Qərbi Azərbaycan" (15 sentyabr 2023), "Vətən müharibəsi: Azərbaycanın Zəfər yolu" (22 sentyabr 2023), "Müstəqilliyin möhtəşəm 20 ili:uğurlar və çağırışlar" (16 oktyabr 2023), "Azərbaycan elminin inkişafında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu" (24 oktyabr 2023), "100-cü ilində Türkiyə Cümhuriyyəti" (27 oktyabr 2023) adlı, 8 Noyabr Zəfər Günü və 9 Noyabr Bayraq Günü ilə bağlı (6 noyabr 2023), "Ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü" (22 noyabr 2023), "Əbədi yaşar lider" mövzusunda (11 dekabr 2023) elmi konfranslarda, Elm Günü (27 mart 2023), 18 Aprel-Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü (18 aprel 2023), AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadənin 75 illik yubileyi (19 may 2023), 28 May Müstəqillik Günü ilə əlaqədar (25 may 2023), Azərbaycan-ABŞ, Tumbultəpə, II Plovdağ, Meydantəpə arxeoloji ekspedisiyanın yekunları ilə bağlı (13 sentyabr 2023) tədbir, **7 təqdimatda -** "Fədakar ölkəşünas alim: Hacı Mirbağır Mirheydərzadə" (3 aprel 2023), "Dalmatəpə mədəniyyətinin mənşəyi" (15 may 2023), "Naxçıvanın əlyazmalar xəzinəsi" (21 iyun 2023), "Bani" (13 oktyabr 2023), "Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti" (14 dekabr 2023) kitablarının, "Heydər Əliyev siyasəti: tarix və müasirlik" (8 may 2023), "Şərur rayonunun tarixi" (15 may 2023) monoqrafiyalarının təq-

dimatında çıxış etmişlər. İnstitut əməkdaşları muxtar respublikada keçirilən elmi, sosial-siyasi və mədəni tədbirlərdə yaxından iştirak etmiş, müxtəlif televiziya kanallarında, radio və mətbuat orqanlarında çıxış etmişlər.

İnstitutda Elmi Şuranın 9 iclası, elmi-tədqiqat işləri ilə bağlı 8 seminarı keçirilmişdir. İclaslarda əməkdaşların elmi məqalələri, kitab və monoqrafiyaları, dissertasiyaları, elmi-tədqiqat işlərinin vəziyyəti müzakirə edilmiş, keçiriləcək konfranslarla bağlı və s. məsələlərə baxılmışdır.

İnstitut əməkdaşlarından akademik İ.Hacıyev və müxbir üzv V.Baxşəliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi ilə keçirilən görüşdə (27 mart 2023), akademik İ.Hacıyev, müxbir üzv H.Səfərli, t.ü.f.d. M.Quliyev NDU-nun hamiliyə götürülən və istehsalat təcrübəsi keçən “Tarix” ixtisası üzrə təhsil alan tələbələr ilə keçirilən tədbirdə (27 mart, 19 aprel, 22 may 2023) çıxış etmişdir. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyilə birgə həyata keçirilən “Sabahın tədqiqatçıları” layihəsi çərçivəsində Naxçıvan şəhərinin tam orta məktəb şagirdlərinin elmi-tədqiqat işlərinin hazırlanmasında elmi rəhbər olan müxbir üzv V.Baxşəliyev, t.e.d. E.Şıxəliyev, t.ü.f.d. T.Xəlilov sertifikat almışlar.

Akademik İ.Hacıyev Naxçıvan televiziyasının çəkdiyi “Zəngəzur dəhlizinin regional xüsusiyyətləri” adlı (17 yanvar 2023) və Xəzər televiziyasının çəkdiyi “Heydər Əliyevin Naxçıvan dövr fəaliyyəti: çətinliklər, uğurlar” (27 mart 2023) adlı filmlərdə çıxış etmişdir. Akademik İ.Hacıyev 2023-cü il “Heydər Əliyev ilidir” rubrikasında (24 yanvar 2023), “Xalqın öz rəhbərinə olan inamı Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların tarixi torpaqlara, ata-baba yurdlarına qaytarılmalarını təmin edəcək” (17 fevral 2023), “Müstəqil Azərbaycanın zəfərlər epopeyası” (10 may 2023) mövzusunda “Şərq qapısı” qəzetinə, “Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixi ədalətin hökmü idi” mövzusunda “Xalq” qəzetinə (26 may 2023), t.ü.f.d A.Orucov “Heydər Əliyev və ideal ailə”, Novruz bayramı, t.ü.f.d S.Hacıyeva İrəvan, Naxçıvan və Təbriz xalça qrupları, t.ü.f.d T.Xəlilov abidələr günü ilə bağlı NTV verilişlərinə müsahibələr vermiş-

## Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi əməkdaşlarının 2023-cü ildə çap olunmuş elmi əsərləri

| Sıra №-si | Adı və soyadı | Vəzifəsi | Metodik vəsait | Monoqrafiya | | | Kitab | | | Elmi məqalə | | | | | | Tezis | | Konfrans materialı | | | | | | Beynəl-xalq kodlu əsər | | Qəzet məqaləsi | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Respub-likada | | Xaricdə | Respub-likada | | Xaricdə | Respublikada | | | | Xaricdə | | | | Respublikada | | | | Xaricdə | | | | | |
| | | | | | | | | | | Naxçı-vanda | | digər regionda | | | | | | Naxçı-vanda | | digər regionda | | | | | | | |
| | | | | müəllif | həmmüəllif | | müəllif | həmmüəllif | | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | Respublikada | Xaricdə | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | Respublikada | Xaricdə | | |
| 1. | İsmayıl Hacıyev | Bölmənin sədri | | 2 | 2 | | | | | 7 | | 5 | | 3 | | | | 1 | | | | | | 12 | 3 | 8 | 20 |
| 2. | Fəxrəddin Səfərli | Baş direktor | | 1 | 1 | | | | | 5 | | 2 | | 1 | | | | 2 | | | | | | 7 | 1 | 3 | 12 |
| 3. | Vəli Baxşəliyev | İcraçı direktor | 1 | | 3 | | | | | 3 | | 2 | | 3 | | 1 | | 1 | | | | 1 | | 5 | 3 | 6 | 15 |
| 4. | Yaşar Rəhimov | Elmi katib | | | 1 | | | | | 6 | | | | | | | | 3 | | | | | | 6 | | 3 | 10 |
| 5. | İlhami Əliyev | Şöbə müdiri | | | | | | | | 3 | | | | 1 | | | | 1 | | | | | | 3 | 1 | | 5 |
| 6. | Toğrul Xəlilov | Şöbə müdiri | | | | | | | | 3 | | 1 | | 4 | | | | 1 | | | | 3 | | 4 | 4 | 5 | 12 |
| 7. | Asəf Orucov | Şöbə müdiri | | | 1 | | | | | 3 | | 1 | | 1 | | | | 2 | | | | 1 | | 4 | 1 | 5 | 9 |
| 8. | Zeynəb Quliyeva | Şöbə müdiri | | | | | | | | 1 | | | | 2 | | | | 1 | | | | | | 1 | 2 | 2 | 4 |
| 9. | Emin Arif (Şıxəliyev) | Şöbə müdiri | | | 1 | | | | | 2 | | | | 1 | | | | | | 1 | | 1 | | 2 | 1 | | 6 |
| 10. | Sara Hacıyeva | Aparıcı elmi işçi | | | | | | | | 3 | | | | | | | | 2 | | | | | | 3 | | 1 | 5 |
| 11. | Musa Quliyev | Aparıcı elmi işçi | | | 1 | | | | | 2 | | 2 | | | | | | 2 | | | | | | 4 | | 15 | 7 |
| 12. | Aytəkin Qəhrəmanova | Böyük elmi işçi | | | 1 | | | | | 6 | | | | | | | | 1 | | | | | | 6 | | 1 | 8 |
| 13. | Nurlana Əliyeva | Elmi işçi | | | | | | | | | | | | 1 | | | | 1 | | | | | | | 1 | | 2 |
| 14. | Nilufər Ağayeva | Kiçik elmi işçi | | | | | | | | 1 | | | | | | | | 2 | | 2 | | 1 | | 1 | | | 6 |
| Cəmi | | | 1 | 3 | 11* | | | | | 45 | | 13 | | 17 | | 1 | | 20 | | 3 | | 7 | | 58 | 17 | 49 | 115 |

Qeyd: həmmüəllif qrafasında olan 11* - 5 monoqrafiya sayını bildirir.


NAXÇIVAN BEYNƏLXALQ TİCARƏT VƏ LOGİSTİKA MƏRKƏZİ KİMİ
ELMİ ƏSƏRLƏR
HEYDƏR ƏLİYEV SİYASƏTİ:
ŞƏRUR RAYONUNUN TARİXİ
TARİX VƏ ONUN PROBLEMLƏRİ
Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı
HEYDƏR ƏLİYEV:
DALMATƏPƏ
Universidad & Sociedad
NAXÇIVAN TARİXİNDƏN SƏHİFƏLƏR
ELM və HƏYAT
NAXÇIVAN ETNOQRAFİYASI
Kəngərli rayonunun tarixi
DÖVLƏT İDARƏÇİLİYİ
ELMİ ƏSƏRLƏR
SCIENTIFIC WORKS
НАУЧНЫЕ ТРУДЫ
*EMIHAK*
ELM və HƏYAT
Culfa rayonunun tarixi
SOSİAL ELMLƏR
SOCIAL SCIENCES
ELMİ ƏSƏRLƏR
TARİX VƏ ONUN PROBLEMLƏRİ
ГРАНЬ

lər. T.e.d. E.Şıxəliyev (18 aprel 2023), t.ü.f.d. İ.Əliyev (24 yanvar 2023), t.ü.f.d A.Orucov (6 fevral, 13 sentyabr, 6 oktyabr 2023) və t.ü.f.d. Y.Rəhimov (11 oktyabr 2023) bir sıra mövzularla bağlı NTV-də efirə gedən verilişlərdə çıxışlar etmişlər.

Hesabat ilində müxbir üzv H.Səfərli bir dissertasiya işinə opponent olmuş, t.ü.f.d. Z.Quliyevanın "Azərbaycanın Naxçıvan diyarının Neolit və Eneolit mədəniyyəti" mövzusunda elmlər doktoru dissertasiyası Müdafiə Şurasına təqdim edilmişdir.

İnstitutda Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi tarixinin öyrənilməsi problemi üzrə aşağıdakı **mühüm nəticə** əldə edilmişdir:

1. Naxçıvanın Neolit və Erkən Eneolit keramikasının araşdırılması Yaxın Şərq ölkələrinin, xüsusilə Dalmatəpə və Ubeyd mədəniyyəti tayfalarının Azərbaycanın cənub bölgələrində, o cümlədən Naxçıvanda koloniyalar şəklində məskunlaşdığını deməyə imkan verir. Araşdırmalara əsaslanaraq bu məskunlaşmanın e. ə. V minilliyin birinci yarısında xüsusilə intensiv olduğunu deyə bilərik. Naxçıvantəpə və Bülövqaya yaşayış yeri Yaxın Şərq tayfalarının, daha doğrusu, Ubeyd tayfalarının koloniyası olmuşdur.

AMEA Naxçıvan Bölməsinin ABŞ arxeoloqları ilə apardığı arxeoloji araşdırmalar nəticəsində Neolit dövründən məskunlaşdırılan Sədərək Kültəpəsinin e. ə. I minilliyin əvvəlində şəhər tipli yaşayış yeri kimi təşəkkül tapdığı və bu şəhərin Manna mədəniyyətinə məxsus xüsusiyyətlər kəsb etdiyi müəyyən edilmişdir.

**İcraçı:** AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev

İnstitut əməkdaşları tədqiqat dövründə Rusiya, İran, Türkiyə alimləri ilə əməkdaşlıq etmiş, Türkiyə Cümhuriyyətinin Mədəniyyət və Turizm Nazirliyi Atatürk Mədəniyyət, Dil və Tarix Ali Qurumu, Türk Tarix Qurumu və bir sıra ali məktəbləri, ABŞ-ın elm və təhsil müəssisələri, AMEA-nın Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutları ilə sıx elmi əlaqələrdə olmuşlar.

**İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda** 29 əməkdaş çalışmışdır ki, onlardan 4 nəfər hesabat dövründə işə qəbul edilmişdir. İnstitutda 1 nəfər müxbir üzv, 1 elmlər doktoru, 10 nə-

fər fəlsəfə doktoru, 4 dissertant olmaqla 16 nəfər tədqiqatların məsul icraçısı olmuşdur. Tədqiqat işlərinin planına əsasən 1 problem üzrə 1 mövzunu əhatə edən 7 işin 20 mərhələdə yerinə yetirilməsi nəzərdə tutulsa da, 3 nəfərin iş yerini dəyişməsi və 1 nəfərin analıq məzuniyyətinə çıxması ilə əlaqədar 4 mərhələ üzrə araşdırma dayandırılmış, 16 mərhələ üzrə elmi-tədqiqat işləri tamamlanmışdır.

İnstitutun Memarlıq, şəhərsalma və abidələrin bərpası şöbəsində "Naxçıvan Muxtar Respulikasında memarlığın, şəhərsalmanın və abidələrin bərpa edilməsinin tədqiqi" işi üzrə **"Şahbuz rayonunun memarlıq abidələrində şəbəkə memarlığı"** (B.Cəfərli) mərhələsi əsasında tədqiqata cəlb olunmuş rayonunun memarlıq abidələrindəki şəbəkələrin ətraflı öyrənilməsi üçün materiallar toplanaraq araşdırmalar aparılmışdır. Aşkar edilmişdir ki, Şahbuz rayonunun memarlıq abidələri üzərində şəbəkə memarlığı həm pəncərələr üzərində, həm də abidələrin eksteryerindəki üzlüklərdə tətbiq edilmişdir. Hesabat dövründə 3 elmi məqalə və 2 konfrans materialı (1-i xaricdə) çap olunmuşdur.

Təsviri-dekorativ və tətbiqi-sənətlər şöbəsində "Naxçıvanın XIX əsrin sonu və XX əsrə aid təsviri və dekorativ-tətbiqi sənətlərinin öyrənilməsi" işi çərçivəsində iki mərhələ üzrə araşdırmalar yerinə yetirilmişdir. **"Naxçıvan rəssamlarının yaradıcılığında portret janrı"** (F.Məmmədova) mərhələsi üzrə muxtar respublika rəssamlarının Naxçıvan muzeylərində sərgilənən və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin fondunda toplanmış XX əsrə aid portret janrında olan əsərlərilə tanış olmuş, müvafiq araşdırmalar aparmaqla Bəhruz Kəngərli, Şamil Qazıyev, Adil Qazıyevin və digərlərinin əsərləri təhlil edilmişdir. Tədqiqat ilində 3 elmi məqalə və 1 konfrans materialı nəşr olunmuşdur.

**"Naxçıvan milli geyimlərinin estetikası"na** (M.Eminov) dair ikinci mərhələ üzrə XIX əsr və XX əsrin əvvəllərinə aid olan geyimlərin mühafizə olunduğu Naxçıvan Dövlət Tarix Muzeyində, Naxçıvan Milli Dəyərlər Muzeyində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində və Şərur rayonun sakinlərinin evlərində olan geyimlər ilə tanış olmuş, onların forma, üslub və naxışları üzərində təhlillər aparılmış, hər bir naxışın, təsvirin iş-

lədilmə xüsusiyyətinin bədii təhlili və araşdırmaları əsasında materiallar toplanaraq tədqiq edilmişdir. Naxçıvanın geyimləri növ, estetik, etnoqrafik, lokal və səciyyəvi xüsusiyyətləri nəzərə alınaraq təhlil edilib. Paltarların biçilməsində, rəngin seçilməsində, estetik görkəmin artırılmasında coğrafi, dini, adət-ənənənin təsiri öyrənilib, folklor nümunələrində, rəssamların tablolarında yer alması göstərilib. Üç elmi, 1 qəzet məqaləsi və 3 konfrans materialı (1-i xaricdə) çap olunmuşdur.

Musiqi və Teatr şöbəsində "Naxçıvanın musiqi və teatr mühitinin öyrənilməsi" işi üzrə iki mərhələdə tədqiqatlar aparılmışdır. **"Naxçıvan teatrında rəssam işi (1941-1963)"** (Ə.Qəhrəmanov) mərhələsinə dair materialları araşdırarkən məlum olmuşdur ki, Böyük Vətən Müharibəsi illərində teatrın baş rəssamı olan Şamil Qazıyevlə yanaşı, burada səhnəyə qoyulan tamaşalara Əyyub Hüseynov, Nağı Nağıyev və gənc rəssam Məmməd Qasımov bədii tərtibat vermişlər. 1952-ci ildən teatrda baş rəssam kimi fəaliyyət göstərən M.Qasımovla yanaşı, 1963-cü ilədək burada Şəmil Mustafayev, Rəcəb Rəcəbov da rəssam işləmişlər. Tədqiqata cəlb olunan materiallar təhlil olunaraq araşdırılmışdır. Səkkiz elmi, 5 qəzet və sayt məqaləsi, 1 konfrans materialı çap edilmişdir.

**"Naxçıvan teatrında vətənpərvərlik motivli əsərlərin səhnə təcəssümü (1941-1963)"** (Ə.Qasımov) mərhələsinin tədqiqi zamanı aşkar olunmuşdur ki, Böyük Vətən Müharibəsi illərində teatrın da repertuar siyasətinin dəyişdirilməsi, onun mövcud vəziyyətə uyğun tərtib olunması ciddi nəzarətə götürülmüşdür. 1941-ci ildən yeni repertuarla çıxış edən Naxçıvan teatrından 15 nəfər cəbhəyə yollanmış, bir neçə aktyor qəhrəmancasına həlak olmuş, teatrdan aktyor kimi ayrılan Abbas Quliyev cəbhədən Sovet ittifaqı Qəhrəmanı kimi qayıtmışdır. Müharibədən sonrakı illərdə də repertuarda vətənpərvərlik ruhu aşılayan tamaşalar özünə möhkəm yer tutmuşdur. Naxçıvan şəhərinin mərkəzindəki "Böyük bağ"da yerləşən Dövlət Dram Teatrının taxta binası 1953-cü ildə baş vermiş güclü yanğın nəticəsində tamamilə yararsız hala düşdüyündən elə bu ərazidə yerləşən keçmiş Zabitlər Evinin binasına köçürülmüş, teatr 1964-cü ilin oktyabrınadək burada fəaliyyətini davam etdirmişdir. 1941-ci ildən 1963-cü ilədək olan dövr-

də Naxçıvan Dövlət Dram Teatrında tamaşaya qoyulan vətənpərvərlik motivli tamaşalar və onların yaradıcı heyətləri haqqında zəngin materiallar toplanılaraq araşdırılmış və tədqiqat başa çatdırılmışdır. Tədqiqatlara dair 5 elmi, 7 qəzet məqaləsi və 3 konfrans materialı çap edilmişdir.

Dilçilik şöbəsində "Naxçıvan dialekt və şivələrinin toplanması və öyrənilməsi" işi istiqamətində araşdırmalar 4 mərhələdə yerinə yetirilmişdir. **"Naxçıvan dialektinin sait əvəzlənmələri"** (N.Əliyeva) mərhələsi üzrə Naxçıvan şəhəri və ətraf kəndlərinin şivələri ilə tanış olunmuş, onların dialekt və şivələrimizlə fərqli fonetik xüsusiyyətləri araşdırılmış, sait səslərin əvəzlənməsinə aid regional xüsusiyyətlər tədqiq olunmuşdur. Hesabat ilində 5 elmi (1-i xaricdə), 8 qəzet məqaləsi, 5 konfrans materialı (1-i xaricdə) dərc olunmuşdur.

İkinci mərhələ olan **"Ordubad dialektinin fonetikası: samitlər"** (Ə.Quliyev) üzrə bölgədən toplanan dialektoloji materiallar əsasında Ordubad dialektinin özünəməxsus xüsusiyyətləri, onun dilimizin dialekt sistemindəki yerinin müəyyən edilməsi istiqamətində tədqiqat aparılmışdır. Tədqiqatın əsas istiqaməti Ordubad dialektini ədəbi dilimizdən və digər dialekt, şivələrimizdən fərqləndirən xarakterik fonetik xüsusiyyətlərin müəyyən edilməsinə yönəldilmişdir. Bölgədən toplanan dialektoloji materiallar əsasında Ordubad dialektində işlənən samitlər və onların variantları, leksik vahidlər, qrammatik xüsusiyyətlər üzə çıxarılmış, Naxçıvanın digər rayonlarının şivələrilə oxşar və fərqli cəhətlər aydınlaşdırılmışdır. İki kitab (1-i həmmüəllif), 13 elmi (1-i xaricdə), 16 qəzet və sayt məqaləsi, 4 konfrans materialı (1-i xaricdə) nəşr olunmuşdur.

**"Kəngərli rayonunun şivələrində samitlər sistemi"** (Z.İsmayıl) adlı üçüncü mərhələnin tədqiqi ilə toplanan dialekt materialları köçürülmüş və sistemləşdirilmişdir. İnformatorların nitqindəki fonetik xüsusiyyətlər tədqiqata cəlb edilmiş, əsasən, daha maraqlı dil faktları təhlil olunmuşdur. Kəngərli rayonu şivələrindəki fonetik xüsusiyyətlərlə bağlı diqqət çəkən məqamlar ayrı-ayrılıqda araşdırılmış, rayonun şivələrindəki spesifik xüsusiyyətlərin şivə materialları əsasında üzə çıxarılması yönündə sistemli iş

aparılmışdır. Həmçinin  Kəngərli rayonuna təşkil olunan ekspedisiya zamanı Dərələyəz mahalından məcburi köçkünlərlə söhbət zamanı əldə edilən çöl materialları üzərində kameral iş aparılmışdır. Tədqiqat çərçivəsində 8 elmi, 28 qəzet və sayt məqaləsi, 4 konfrans materialı çap edilmişdir.

**"Culfa şivələrində mürəkkəb feillər"** (R.Zülfüqarov) mərhələsi ilə əlaqədar Culfa rayonu ərazisindən şivə materialları toplanmış, sistemləşdirilmişdir, təhlillər aparılmaqla tədqiqat işi tamamlanmışdır. Hesabat dövründə 5 elmi (2-si xaricdə), 2 qəzet məqaləsi və 2 konfrans materialı çap olunmuşdur.

Onomastika şöbəsində "Naxçıvan Muxtar Respublikasında onomastik vahidlərin tədqiqi" işi üzrə 2 mərhələdə araşdırmalar aparılmışdır. **"Naxçıvan oykonimlərində flektiv dili əlamətləri (m.ö. minilliklər)"** (F.Rzayev) adlı mərhələdə Naxçıvan oykonimlərindəki türk tayfalarının dil quruluşunda flektivlik dil əlamətləri (e.ə. VI-I minilliklər) tədqiqat əsərləri və xeyli antik mənbələr əsasında araşdırılmışdır. Həmçinin e.ə. VI-I minilliklərdə Naxçıvan oykonimlərində adları qalan burada yaşamış türk tayfalarının dil quruluşu, adlardakı Kök sözlü – Amorf dil əlamətləri tədqiqat əsərləri və dilçiliyə dair xeyli sayda mənbələr əsasında araşdırılmışdır. Naxçıvan ərazisi toponimlərindəki bu dil quruluşu istiqamətində məqalələr hazırlanıb çapa təqdim edilmiş, Amorf dillərin mövcud olduğu adlar geniş təhlil edilmişdir. Tədqiqat ilində 11 elmi (1-i xaricdə), 3 qəzet məqaləsi və 3 konfrans materialı çap edilmişdir.

"**Babək rayon antroponim səciyyəli urbanonimlərinin leksik-semantik xüsusiyyətləri**"nin (C.Məhərrəmova) tədqiqi mərhələsi ilə əlaqədar materiallar toplanmışdır. Babək rayonu ərazisindəki məhəllə adlarına-urbanonimik sisteminə dair materiallar araşdırılmaqla mənbələrdəki urbonimlər sistemləşdirilmişdir. Tədqiqat dövründə 3 elmi məqalə çap edilmişdir.

Folklorşünaslıq şöbəsində "Naxçıvan folklorunun toplanması, öyrənilməsi, nəşri və təbliği" işi istiqamətində üç mərhələdə tədqiqatlar aparılır. **"Xalq oyun və tamaşalarının şeirdə poetik ifadəsi"** (E.Məmmədov) mərhələsinin tədqiqi zamanı əldə edilmiş materiallar və elmi-nəzəri ədəbiyyatlarla tanış olunmuşdur.

Tədqiqat zamanı Naxçıvanda yaşayıb-yaratmış, həmçinin hazırda Naxçıvanda bədii yaradıcılıqla məşğul olan şairlərin şeirlərində xalq oyun və tamaşalarının poetik ifadəsilə bağlı nümunələr seçilərək sistemlədirilmiş, bununla birlikdə xalq oyun və tamaşalarının şairlərimizin yaradıcı istifadəsinin mövzu və motiv kontekstində əksinin nə dərəcədə olması barədə qeydlər aparılmışdır. Hesabat dövründə 1 monoqrafiya (xaricdə), 5 elmi, 12 qəzet və sayt məqaləsi, və 9 konfrans materialı (3-ü xaricdə) nəşr olunmuşdur.

**"Naxçıvan regionunda yaranan yeni folklor nümunələri"** (Ç.Rzayeva) mərhələsi ilə bağlı olaraq həm əldə olan, həm də toplanılan folklor örnəkləri əsasında təhlillər aparılmışdır. Ərazidə müxtəlif nöqteyi-nəzərdən yaranmış yeni folklor nümunələrdəki dövrə uyğun məqamlar aşkara çıxarılaraq əvvəlki nümunələrlə müqayisəsi aparılmış, bu nümunələrin sabit forma xüsusiyyətlərinin də yeni dövrə uyğunlaşdığı aşkara çıxarılmışdır. Bir kitab, 2 elmi, 1 qəzet məqaləsi və 1 konfrans materialı çap edilmişdir.

**"Naxçıvan folklor mətnlərində əyələr və demonoloji obrazlar: kult səviyyəsinə yüksələn əyələr (torpaq, dağ, daş, su, ağac əyələri və s.)"** (A.Cəfərova) mərhələ ilə əlaqədar araşdırmalar aparmış, mövcud folklor nümunələrindən haqqında bəhs edilən mövzuya uyğun mətnləri seçmiş, o cümlədən, ekspedisiyalar zamanı yazıya alınmamış nümunələr əldə etmişdir. Naxçıvan folklor mühitinə məxsus mifoloji mətnlər təkrarən nəzərdən keçirilmişdir. Əlavə olaraq, yeni mifoloji mətnlər də toplanılaraq onların əvvəlki mətnlərlə müqayisəsi aparılmışdır. Sözügedən mətnlərdə kult səviyyəsində olan əyə və demonoloji obrazlar müəyyənləşdirilmiş, tədqiq olunmuşdur. Tədqiqat zamanı 2 kitab, 3 elmi, 30 qəzet və sayt məqaləsi və 5 konfrans materialı nəşr edilmişdir.

Ədəbiyyatşünaslıq şöbəsində "Naxçıvanda ədəbiyyatşünaslıq və ədəbi inkişaf" işi üzrə iki mərhələ üzrə araşdırmalar aparılmışdır. **"Naxçıvanda ədəbiyyatşünaslığın elmi-nəzəri problemləri və mövzu istiqamətləri (1991-2023-cü illər)"** (R.Qasımov) mərhələsi üzrə Naxçıvanda ədəbiyyatşünaslıq elminin inkişaf tarixinə nəzər salınmış, Naxçıvan ədəbiyyatşünaslıq məktəbi istiqamətində elmi-tədqiqat aparılmışdır. Tədqiqatda dövlət müstə-

qilliyinin bərpasından sonra Naxçıvanda müxtəlif sahələrlə bərabər elm sahələrinin də diqqət mərkəzində saxlanıldığı və bunun nəticəsində əldə olunan inkişaf və nailiyyətlər nəticəsində Naxçıvan ədəbiyyatşünaslıq məktəbinin formalaşdığı qeyd edilmişdir. Hesabat ilində 11 elmi, 93 qəzet və sayt məqaləsi, 2 tezis (xaricdə) və 5 konfrans materialı çap edilmişdir.

**"Cəlil Məmmədquluzadə və yeni ədəbiyyat məsələləri"** (A.Orucova) mərhələsinin araşdırılması zamanı XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan xalqının milli oyanışı və yeni ədəbiyyat cəbhəsində böyük mübarizi Cəlil Məmmədquluzadənin ədəbi-nəzəri görüşləri tədqiq və təhlil edilmişdir. Cəlil Məmmədquluzadənin yeni ədəbiyyat uğrunda mübarizədə ədəbiyyata ictimai təşkilatlanma, ideyalılıq və milli-ictimai inkişafda qurucu, inqilabi ruh verdiyi tərəfdarı olduğu konkret fakt və nümunələrlə təqdim edilmişdir. Tədqiqat dövründə 4 elmi, 8 qəzet məqalə, 1 tezis (xaricdə), 3 konfrans materialı nəşr olunmuşdur.

Hesabat dövründə İnstitutun "Dilçilik" və "Folklorşünaslıq" şöbələrinin əməkdaşları Qərbi Azərbaycan əhalisi ilə bağlı muxtar respublikanın kəndlərindən materiallar toplamışdır.

2023-cü ildə institut əməkdaşlarının 148 elmi əsəri, o cümlədən **2 monoqrafiyası:**

1. E.Məmmədov. Azərbaycan folkloru "erməni folkloru"nun formalaşmasında mənbə kimi. Kişinyov: GlobeEdit, 2023, 52 s.;
2. A.Cəfərova. Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar. Naxçıvan: "Əcəmi" NPB, 2023, 177 s.,

**4 kitabı:**

1. Məhəmməd Salih. Şeybaninamə (tərcüməçi Ə.Quliyev). Bakı: Elm və təhsil, 2022, 448 s.;
2. Ə.Quliyev (A.Quliyeva ilə birgə). Heydər Əliyev tariximizdə və taleyimizdə. Naxçıvan: "Əcəmi" NPB, 2023, 271 s.;
3. A.Cəfərova. Naxçıvan paremioloji vahidləri: deyimlər, atalar sözləri və məsəllər. Naxçıvan: "Əcəmi" NPB, 2023, 224 s.;
4. Ç.Rzayeva. Naxçıvan şəhər folklorundan örnəklər. Naxçıvan: "Əcəmi" NPB, 2023, 216 s.,

89 elmi məqaləsi, 50 konfrans materialı, 3 tezisi çap edilmişdir. Əsərlərdən 1 monoqrafiya, 4 məqalə, 6 konfrans materialı və

tezislər (cəmi 14) xaricdə nəşr olunmuşdur. Əsərlərin 13-ü xaricdə olmaqla (2-si impakt faktorlu indeksli jurnalda) 93-ü beynəlxalq kodludur. İnstitutun hazırladığı ulu öndər Heydər Əliyevin 100 illiyi ilə bağlı "Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti" adlı məqalələr toplusu çap olunmuşdur. İnstitut əməkdaşlarının məqalələrinə 300 istinad qeydə alınmışdır. İnstitutun təsis etdiyi "Axtarışlar" jurnalının il ərzində müasir tələblərlə nəşri təmin edilmişdir. İnstitut əməkdaşlarının qəzet və saytlarda 214 məqaləsi işıq üzü görmüşdür.

2023-cü ildə institut əməkdaşları **13 beynəlxalq tədbirdə:**

1. Beynəlxalq Dil və Ədəbiyyat Araşdırmaları Simpoziumu. Ərzurum, 2-3 mart 2023 – f.ü.f.d. E.Məmmədov;
2. Turan Elçiləri Təşkilatı və İğdır Azərbaycan Evinin birgə təkilatçılığı ilə "31 Mart - Azərbaycanlıların Soyqımı Günü" mövzusunda elmi konfrans. İğdır, 31 mart 2023 – f.ü.f.d. Z.İsmayıl;
3. Ümummilli lider Heydər Əliyevin 100-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların VII Beynəlxalq Elmi Konfransı. Bakı, 29-30 aprel 2023 – f.ü.f.d. E.Məmmədov;
4. Azərbaycanşünaslığın aktual problemləri (tədqiqat, elmi diskurs, beynəlmilləşmə). Beynəlxalq elmi konfrans. Bakı. 4-5 may 2023 – f.ü.f.d. E.Məmmədov;
5. Azərbaycan memarı Heydər Əliyevin anadan olmasının 100 illiyi. 3-cü Beynəlxalq konfrans. Bakı, 5 may 2023 – f.ü.f.d. R.Qasımov;
6. Qarabağ dünən, bu gün və sabah. 22-ci beynəlxalq elmi-praktiki konfrans. Bakı, 23 may 2023 – B.Cəfərli;
7. I Beynəlxalq İpək yolu konfransı. Naxçıvan, 26-27 may 2023 – müxbir üzv Ə.Quliyev, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. Z.İsmayıl, f.ü.f.d. A.Orucova;
8. VI Beynəlxalq Dədə Qorqud – türk mədəniyyəti, tarixi və ədəbiyyatı elmi konfransı. Quba, 20-21 iyul 2023 – F.Məmmədova;
9. Qloballaşan dünyada elmin aktual problemləri. Xalq yazıçısı Anarın anadan olmasının 85 illiyi münasibətilə beynəlxalq elmi simpozium. Eskişehir, 30 sentyabr 2023 – f.e.d. N.Əliyeva;
10. Zəngəzur: tarix və müasirlik. II Beynəlxalq elmi-praktiki konfrans. İğdır, 18 oktyabr 2023 – B.Cəfərli;

11. II Beynəlxalq Türkiyat Konqresi. Çankırı, 29-31 oktyabr 2023 – f.ü.f.d. R.Qasımov, f.ü.f.d. Z.İsmayıl;

12. Türk aşıqlıq ənənələri və Aşıq Veysəl. Beynəlxalq simpozium. Sivas, 2-4 noyabr 2023 – f.ü.f.d. E.Məmmədov;

13. Qərbi Azərbaycana qayıdışa gedən yol. Beynəlxalq elmi konqres. Naxçıvan, 23-24 noyabr 2023 – müxbir üzv Ə.Quliyev, f.ü.f.d. E.Məmmədov, s.ü.f.d. Ə.Qasımov, f.ü.f.d. A.Cəfərova, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. N.Əliyeva, f.ü.f.d. F.Rzayev, f.ü.f.d. Z.İsmayıl, f.ü.f.d. Ç.Rzayeva, B.Cəfərli,

**8 respublika konfransı:**

1. Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibəti ilə "Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda respublika konfransı. Naxçıvan, 17 aprel 2023 – müxbir üzv Ə.Quliyev, f.ü.f.d. E.Məmmədov, s.ü.f.d. Ə.Qasımov, f.e.d. N.Əliyeva, f.ü.f.d. R.Zülfüqarov, s.ü.f.d. Ə.Qəhrəmanov, f.ü.f.d. F.Rzayev, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. A.Cəfərova, f.ü.f.d. Z.İsmayıl, f.ü.f.d. A.Orucova, M.Eminov, S.Dünyamalıyeva;

2. Çağdaş Azərbaycan dilinin aktual problemləri. III Respublika elmi konfransı. Naxçıvan, 30 mart 2023 – müxbir üzv Ə.Quliyev, s.ü.f.d. Ə.Qasımov, f.e.d. N.Əliyeva, f.ü.f.d. F.Rzayev, f.ü.f.d. A.Cəfərova, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. A.Orucova;

3. Heydər Əliyev və Azərbaycanda ali təhsil. Respublika elmi konfransı. Naxçıvan, 12 may 2023 – f.ü.f.d. R.Qasımov;

4. Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti. Respublika Elmi Konfransı. Bakı, 15 may 2023 – f.ü.f.d. A.Cəfərova;

5. Heydər Əliyev və milli dövlətçilik məsələləri. Respublika konfransı. Naxçıvan, 25-26 may 2023 – müxbir üzv Ə.Quliyev, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. Z.İsmayıl, f.ü.f.d. A.Orucova;

6. Heydər Əliyevin ədəbiyyat siyasətinin milli-ideoloji mahiyyəti. Respublika elmi konfransı. Naxçıvan, 25-26 may 2023 – f.ü.f.d. R.Qasımov;

7. Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri. Respublika elmi konfransı. Bakı, 12 iyul 2023 – f.ü.f.d. Z.İsmayıl;

8. Folklor və mənəvi bütövlük: Güney Azərbaycan folklor irsi. Respublika Elmi Konfransı. Bakı, 17 noyabr 2023 – f.ü.f.d. A.Cəfərova,

**7 muxtar respublika tədbirində**:

1. Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibəti ilə "Ümummilli lider Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" adlı tədbir. Naxçıvan, 14 mart 2023 – f.ü.f.d. E.Məmmədov;

2. Naxçıvan Şəhər Milli Kitabxanasında Novruz bayramı ilə əlaqədar "Elimizə bahar gəlir" mövzusunda tədbir. Naxçıvan, 14 mart 2023 – f.ü.f.d. A.Cəfərova;

3. Kəngərli Rayon İcra Hakimiyyətində "Heydər Əliyev İli" çərçivəsində tədbir. Naxçıvan, 14 mart 2023 – f.ü.f.d. R.Qasımov;

4. Naxçıvan Dövlət Tarix Muzeyində "Qədim tarixi dəyərlərimiz – Novruz" mövzusunda tədbir. Naxçıvan, 15 mart 2023 – f.ü.f.d. A.Cəfərova;

5. Naxçıvanşünaslıq Mərkəzində "Heydər Əliyev İli"nə həsr olunmuş "Ulu öndər Heydər Əliyevin dövlətçilik təlimində milli-mənəvi dəyərlərin yeri" mövzusunda tədbir. Naxçıvan, 29 mart 2023 – f.ü.f.d. A.Cəfərova;

6. Ordubad rayon İcra Hakimiyyətində "Heydər Əliyev İli"nə həsr olunmuş "Heydər Əliyev və milli intibah dövrü" mövzusunda tədbir. Naxçıvan, 25 aprel 2023 – f.ü.f.d. A.Cəfərova;

7. Beynəlxalq Memarlar Günü münasibətilə NDU-nun "Memarlıq" kafedrasının yaranmasının 20 illiyinə həsr olunmuş tədbir. Naxçıvan, 6 oktyabr 2023 – B.Cəfərli çıxış etmişdir.

İnstitut əməkdaşlarından müxbir üzv Ə.Quliyev, f.ü.f.d. E.Məmmədov, s.ü.f.d. Ə.Qasımov, s.ü.f.d. Ə.Qəhrəmanov, f.e.d. N.Əliyeva, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. Z.İsmayıl, f.ü.f.d. F.Rzayev, f.ü.f.d. A.Orucova, f.ü.f.d. A.Cəfərova, Z.Abbas **Bölmədə keçirilən 16 elmi konfrans və 4 tədbirdə -** "20 Yanvar: xalqımızın qəhrəmanlıq salnaməsi" (19 yanvar 2023), "Nəğməkar şair İslam Səfərli – 100" (10 fevral 2023), Beynəlxalq Ana dili Günü münasibətilə "Dilimiz milli sərvətimizdir" (21 fevral 2023), "Xocalı soyqırımı: səbəbləri, nəticələri və dərsləri" (24 fevral 2023), "Azərbaycan Milli Teatrı - 150" və "Naxçıvan Teatrı - 140" (10 mart 2023), "Azərbaycanlılara qarşı soyqırım siyasəti: səbəbləri və nəticələri" (30 mart 2023), "Ümummilli lider Heydər Əliyev və milli məfkurə" (4 aprel 2023), "Qərbi Azərbaycan mədəni-ədəbi mühiti: öyrənilməsi və qarşıda duran vəzifələr" (23 may

2023), “Heydər Əliyevin dövlətçilik siyasəti və müasirlik” (5 iyun 2023), “Məhəmmədhüseyn Şəhriyar və milli-mənəvi dəyərlər” (18 sentyabr 2023), “Müstəqilliyin möhtəşəm 20 ili: uğurlar və çağırışlar” (16 oktyabr 2023), “Ulu öndər Heydər Əliyev irsində dil və ədəbiyyat məsələləri” (20 oktyabr 2023), “Azərbaycan elminin inkişafında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu” (24 oktyabr 2023), “100-cü ilində Türkiyə Cümhuriyyəti” (27 oktyabr 2023), 8 Noyabr Zəfər Günü və 9 Noyabr Bayraq Günü ilə bağlı (6 noyabr 2023), Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar “Əbədi yaşar lider” mövzusunda (11 dekabr 2023) elmi konfransda, 8 Mart - Beynəlxalq Qadınlar Günü (6 mart 2023), Elm Günü (27 mart 2023) tədbir, görkəmli dilçi alim, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova ilə görüş (26 may 2023), “Ədəbiyyat” qəzetinin baş redaktoru, tənqidçi, filologiya üzrə fəlsəfə doktoru Azər Turanla görüş (2 oktyabr 2023), **10 təqdimatda -** “Kəmalə: taleyi və sənəti” (27 fevral 2023), “Fədakar ölkəşünas alim: Hacı Mirbağır Mirheydərzadə” (3 aprel 2023), “Məhəmməd Salih. Şeybaninamə” (8 iyun 2023), “Naxçıvanın əlyazmalar xəzinəsi” (21 iyun 2023), “Heydər Əliyev: tariximizdə və taleyimizdə” (4 oktyabr 2023), “Bani” (13 oktyabr 2023), “Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar” (22 noyabr 2023), “Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti” (14 dekabr 2023) kitablarının, “Heydər Əliyev siyasəti: tarix və müasirlik” (8 may 2023), “Naxçıvan paremioloji vahidləri: deyimlər, atalar sözləri və məsəllər” (11 iyul 2023) monoqrafiyalarının təqdimatında çıxış etmişlər. Bölmənin Rəyasət Heyətinin iclasında f.e.d. N.Əliyeva “Görkəmli oftolmoloq-alim, akademik Zərifə xanım Əliyevanın həyatı və fəaliyyəti” mövzusunda məruzə etmişdir.

AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyilə birgə həyata keçirdiyi “Sabahın tədqiqatçıları” layihəsi çərçivəsində Naxçıvan şəhərindəki tam orta məktəblərin yuxarı sinif şagirdlərinin uğurlu elmi-tədqiqat işlərinin hazırlanmasında elmi rəhbər olan f.ü.f.d. E.Məmmədov, s.ü.f.d. Ə.Qasımov, f.e.d. N.Əliyeva, f.ü.f.d. F.Rzayev, f.ü.f.d. A.Orucova sertifikat almışlar. Həmçinin s.ü.f.d. Ə.Qasımov Nax-

çıvan Teleradiosunda diktorlar, aparıcılar və redaktorlar üçün ustad dərsləri vermiş, Azərbaycan Respublikası Mədəniyyət nazirinin müvafiq əmrilə ölkənin bir sıra dövlət teatrlarının nəzdində yaradılmış studiyalar kimi, Naxçıvan Dövlət Kukla Teatrında da təşkil olunan "Sınaq" studiyasında səhnə danışığı fənnini tədris etmişdir.

Hesabat ilində institutut Elmi Şurasının 9 iclası keçirilmiş, iclaslarda institutun illik iş planı, şöbələrin proqramları və elmi işçilərin fərdi iş planları, keçiriləcək elmi konfrans və digər tədbirlərin təqvimi, elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması, kadr hazırlığı və yeni işçilərin işə cəlbi, elmi əsər və monoqrafiyaların müzakirəsi və çapa tövsiyəsi müzakirə edilmişdir. Tədqiqat işləri ilə əlaqədar 9 elmi seminar keçirilmişdir. İnstitutun əməkdaşı müxbir üzv Ə.Quliyev, s.ü.f.d. Ə.Qasımov, f.e.d. N.Əliyeva, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. E.Məmmədov, f.ü.f.d. Z.İsmayıl, f.ü.f.d. A.Cəfərova, f.ü.f.d. F.Rzayev Naxçıvan Muxtar Respublikasının televiziya və radiosunda müxtəlif mövzularda çıxışlar etmişdir. Həmçinin s.ü.f.d Ə.Qasımov İctimai Televiziyanın "Heydər Əliyev və teatr", NTV-nin "Naxçıvan Teatrı ~ 140" və "Rza Təhmasib" adlı filmlərində çıxış etmişdir. F.ü.f.d. E.Məmmədov və s.ü.f.d Ə.Qasımov Naxçıvan Teatrının 140 illiyi münasibətilə 525-ci qəzetə müsahibə vermişdir.

2023-cü ildə müxbir üzv Ə.Quliyev NDU-nun nəzdindəki Dissertasiya Şurasına sədr təyin edilmiş, iki elmlər doktoru dissertasiya işinə, f.ü.f.d. R.Qasımov bir fəlsəfə doktoru dissertasiya işinə opponent olmuşdur. Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının qərarı ilə f.ü.f.d. Nuray Əliyevaya filologiya elmlər doktoru elmi dərəcəsi verilmişdir. Hesabat ilində müxbir üzv Ə.Quliyevin 4 disertantı (1-i elmlər doktoru, 3-ü fəlsəfə doktoru), f.ü.f.d. Z.İsmayılın 1 dissertantı (fəlsəfə doktoru) təsdiqin almışdır. F.ü.f.d. Z.İsmayılın elmi rəhbər olduğu bir fəlsəfə doktoru dissertasiya işinin uğurla müdafiəsi (8 dekabr 2023) keçirilmişdir.

F.e.d. N.Əliyeva elm sahəsində səmərəli fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diploma, s.ü.f.d Ə.Qasımov

"Nizami" Kino Mərkəzində Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən "Şəhidlər zirvəsi" filminin təqdimat mərasimində ssenari müəllifi kimi birliyin Fəxri Fərmanına layiq görülmüş, f.ü.f.d. R.Qasımov Kütləvi İnformasiya Vasitələrindəki fəallığına görə AMEA Naxçıvan Bölməsinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş respublika elmi konfransında etdiyi məruzəyə görə f.ü.f.d. A.Cəfərova və Güney Azərbaycan folklorunun toplanması, nəşri və tədqiqinə həsr olunmuş beynəlxalq elmi konfransına qatıldığı üçün s.ü.f.d Ə.Qasımov və f.ü.f.d. A.Cəfərova "Təşəkkür bəlgəsi" almışlar.

İnstitutda Naxçıvanın mədəni mühiti, maddi və mənəvi mədəniyyəti problemi üzrə aşağıdakı **mühüm nəticə** əldə olunmuşdur:

1. Qərbi Azərbaycandan zorla deportasiya edilmiş soydaşlarımızın Naxçıvanda məskunlaşması bu insanların yaddaşında yaşatdıqları qədim təfəkkür mədəniyyətinin mövcud əraziyə yansımasının təsirini şərtləndirir. Ərazidə məskunlaşmış qərbi azərbaycanlılar öz doğma yurdlarında icra etdikləri folklor faktlarını – mövsüm və məişət mərasimi rituallarını burada yaşadıqları məkanlarda da qorumaqdadırlar. Araşdırmalarda qərbi azərbaycanlıların mədəni təsəvvürlərinin əksi olan mədəniyyət faktları ilə tanış olunmuşdur. Toplanan materiallarda ermənilər tərəfindən zorla qovulmuş insanların həmin tarixi hadisələrlə bağlı olan faktlardan bəhs edən yazıları öz ifadəsini tapır. Tədqiqat "Qərbi Azərbaycana qayıdış" konsepsiyası üzrə görülən işlər baxımından əhəmiyyətlidir. Tədqiqata dair monoqrafiya çap edilmişdir (Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar. Naxçıvan: "Əcəmi" NPB, 2023, 177 s.).

**İcraçı:** Filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərova

Tədqiqat ilində institut əməkdaşları respublikda və xaricdə müxtəlif tədqiqat müəssisələri, o cümlədən Qazaxıstandakı Beynəlxalq Türk Akademiyası, Türkiyə Cümhuriyyətinin İstanbul, Ankara, Ərzurum universitetləri, Şimali Makedoniya Respublikasının "Vision" Universiteti, AMEA-nın Ədəbiyyat, Folklor, Dilçilik, İncəsənət və Memarlıq institutları, digər elm və tədris müəssisələri ilə səmərəli əməkdaşlığı davam etdirmişlər.

# İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi əməkdaşlarının 2023-cü ildə çap olunmuş elmi əsərləri

| Sıra №-si | Adı və soyadı | Vəzifəsi | Monoqrafiya | | | | Kitab | | | | Elmi məqalə | | | | | | Tezis | | Konfrans materialı | | | | | | Beynəlxalq kodlu əsər | | Qəzet məqaləsi | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Respublikada | | Xaricdə | | Respublikada | | Xaricdə | | Respublikada | | | | Xaricdə | | | | Respublikada | | | | Xaricdə | | | | | |
| | | | | | | | | | | | Naxçıvanda | | digər regionda | | | | | | Naxçıvanda | | digər regionda | | | | | | | |
| | | | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | Respublikada | Xaricdə | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | Respublikada | Xaricdə | | |
| 1. | Əbülfəz Quliyev | Baş direktor | | | | | 2 | | | | 10 | | 2 | | 1 | | | | 3 | | | | 1 | | 9 | 2 | 16 | 19 |
| 2. | Elxan Məmmədov | İcraçı direktor | | | 1 | | | | | | 4 | | 1 | | | | | | 3 | | 3 | | 2 | | 7 | 2 | 12 | 14 |
| 3. | Ələkbər Qasımov | Elmi katib | | | | | | | | | 3 | | 2 | | | | | | 3 | | | | | | 5 | | 7 | 8 |
| 4. | Əli Qəhrəmanov | Şöbə müdiri | | | | | | | | | 7 | | 1 | | | | | | 1 | | | | | | 8 | | 5 | 9 |
| 5. | Nuray Əliyeva | Şöbə müdiri | | | | | | | | | 3 | | 1 | | 1 | | | | 4 | | | | 1 | | 6 | 2 | 8 | 10 |
| 6. | Firudin Rzayev | Şöbə müdiri | | | | | | | | | 7 | 2 | 1 | | | 1 | | | 3 | | | | | | 7 | 1 | 3 | 14 |
| 7. | Aytən Cəfərova | Şöbə müdiri | 1 | | | | 1 | | | | 2 | | 1 | | | | | | 3 | | 2 | | | | 3 | | 30 | 10 |
| 8. | Ramiz Qasımov | Şöbə müdiri | | | | | | | | | 10 | | 1 | | | | | 2 | 5 | | | | | | 4 | 2 | 93 | 18 |
| 9. | Zülfiyyə İsmayıl | Aparıcı elmi işçi | | | | | | | | | 7 | | 1 | | | | | | 3 | | 1 | | | | 8 | | 28 | 12 |
| 10. | Aygün Orucova | Aparıcı elmi işçi | | | | | | | | | 2 | | 2 | | | | | 1 | 3 | | | | | | 2 | 1 | 8 | 8 |
| 11. | Rəşad Zülfüqarov | Böyük elmi işçi | | | | | | | | | 3 | | | | 1 | 1 | | | 2 | | | | | | 3 | 1 | 2 | 7 |
| 12. | Çinarə Rzayeva | Böyük elmi işçi | | | | | 1 | | | | 1 | | 1 | | | | | | 1 | | | | | | 3 | | 1 | 4 |
| 13. | Mirsəlim Eminov | Elmi işçi | | | | | | | | | 3 | | | | | | | | 2 | | | | 1 | | 4 | 1 | 1 | 6 |
| 14. | Brilyant Cəfərli | Kiçik elmi işçi | | | | | | | | | 3 | | | | | | | | | | 1 | | 1 | | 4 | 1 | | 5 |
| 15. | Fatma Məmmədova | Kiçik elmi işçi | | | | | | | | | 1 | | 2 | | | | | | | | 1 | | | | 4 | | | 4 |
| 16. | Cəmilə Məhərrəmova | Kiçik elmi işçi | | | | | | | | | 1 | 2 | | | | | | | | | | | | | 3 | | | 3 |
| Cəmi | | | 1 | | 1 | | 4 | | | | 67 | 4* | 16 | | 3 | 2* | | 3 | 36 | | 8 | | 6 | | 80 | 13 | 214 | 148 |

Qeyd: həmmüəlliflər qrafasında olan 4*, 2* - 3 məqalə sayını bildirir.


Qərbi Azərbaycanın
MÜASİR AZƏRBAYCAN DİLİ
Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı
MATERİALLARI
MƏDƏNİYYƏT
ŞEYBANINAMƏ
ELS
AXTARIŞLAR
TÜRK DÜNYASI
Naxçıvan
HEYDƏR ƏLİYEV
HEYDƏR ƏLİYEV
YOUNG RESEARCHERS
ULUSLARARASI GENCELİ NİZAMİ SEMPOZYUMU
Uluslararası Dil ve Edebiyat Araştırmaları Sempozyumu
ÇAĞDAŞ AZƏRBAYCAN DİLİNİN AKTUAL PROBLEMLƏRİ
AZƏRBAYCAN
HEYDƏR ƏLİYEV - 100
5
2023
CAVİDİN TURANI

Bölmənin **Əlyazmalar Fondunda** 8 əməkdaş çalışmışdır. Fondda 1 nəfər elmlər doktoru, 1 nəfər fəlsəfə doktoru, 2 nəfər dissertant olmaqla 4 nəfər tədqiqatların məsul icraçısı olmuşdur. Elmi-tədqiqat işləri plana uyğun olaraq 1 problem, 1 mövzuya daxil olmaqla 3 iş üzrə 4 mərhələdə yerinə yetirilmişdir.

Əlyazmaların Toplanması şöbəsində "Naxçıvan əlyazmalarının toplanması və tədqiqi" işi üzrə araşdırılan **"Baba Nemətullah Naxçıvaninin sufi görüşləri"** (F.Eylazov) ilə bağlı materiallar toplanılmış, sistemləşdirilmiş, Baba Nemətullah Naxçıvaninin sufi görüşlərinə aid müxtəlif müəlliflərin fikir və mülahizələri nəzərdən keçirilmiş, müqayisələr aparılmış, bəzi maraqlı elmi qənaətləri gəlinmişdir. Bir kitab (həmmüəllif), 7 elmi məqalə (2-si xaricdə) və 1 konfrans materialı dərc edilmişdir.

Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsində "Naxçıvana dair əlyazmaların kataloqlaşdırılması" işi üzrə iki mərhələdə tədqiqatlar yerinə yetirilmişdir. **"Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülun-nur" əsərində nəzm nümunələri"** (S.İbrahimov) mərhələsinin tədqiqində əsərin ayrı-ayrı hissələrində işlədilən nəzm nümunələri müəyyənləşdirilmiş, sistemləşdirilmiş və təhlil olunaraq onların səciyyəvi xüsusiyyətləri aşkara çıxarılmışdır. İki kitab (1-i həmmüəllif), 6 elmi (2-si xaricdə), 1 qəzet məqaləsi və 3 konfrans materialı (2-si xaricdə) çap olunmuşdur.

**"Hüseyn Razinin gündəliklərinin mövzu dairəsi"** (F.Xəlilov) mərhələsinin araşdırılmasında Naxçıvan ədəbi mühitinin yetirməsi şair Hüseyn Razinin 28 cildlik "Gündəlik"lərinin materialları mövzular üzrə qruplaşdırılmış, nəzm və nəsr hissələri müəyyənləşdirilmiş, təhlil edilmiş, elmi-ədəbi və ictimai-siyasi əhəmiyyəti dəyərləndirilmişdir. Hesabat dövründə 2 monoqrafiya (1-i xaricdə), 1 kitab (1-i həmmüəllif), 7 elmi, 4 qəzet məqaləsi və 4 konfrans materialı çap edilmişdir.

Əlyazmaların mühafizəsi, gigiyenası və bərpası laboratoriyasında "Naxçıvan əlyazmalarının qorunması, bərpası və tədqiqi" işinə daxil olan **"Razinin "Şərhul-kafiyə" əsərinin I cildində təsirlik halda işlənən cümlə üzvləri (mərfuat) və onların sintaktik təhlili ilə bağlı şərh"** (K.Vəliyeva) mərhələsi üzrə "Şərhül-kafiyə" əsərinin birinci cildinin mətnində ismin təsirlik ha-

lında işlənən cümlə üzvləri haqqında verilən şərhlər nəzərdən keçirilmiş, qruplaşdırılmış, müqayisəli şəkildə təhlil edilmişdir. Tədqiqatlar çərçivəsində 1 kitab (həmmüəllif), 4 elmi məqalə, 1 tezis və 5 konfrans materialı (2-si xaricdə) çap olunmuşdur.

Hesabat ilində Fond əməkdaşlarının 42 elmi əsəri, o cümlədən **2 monoqrafiyası:**

1. F.Xəlilov. Fədakar ölkəşünas: Hacı Mirbağır Mirheydərzadə. Naxçıvan: "Əcəmi" NPB, 2023, 200 s.;

2. F.Xəlilov. Azərbaycan şairi Mirzə Əli Möcüz. Köçürən və hazırlayan Xəlil Qurbani. Təbriz: Azər Turan – Nəbati, 2023, 386 s. (Ərəb əlifbası ilə),

**2 kitabı:**

1. Naxçıvanın əlyazmalar xəzinəsi (tərtibçilər F.Xəlilov, F.Eylazov, S.İbrahimov, K.Vəliyeva). Naxçıvan: "Əcəmi" NPB, 2023, 224 s.;

2. S.İbrahimov. Naxçıvan əlyazmalarının mənəvi əsaslarla araşdırılmasının səbəbkarı. Kişinyov: GlobeEdit, 2023, 408 s.,

24 məqaləsi, 13 konfrans materialı və 1 tezisi nəşr olunmuşdur. Əsərlərdən 1 monoqrafiya, 1 kitab, 4 məqalə (2-si impakt faktorlu jurnalda) və 4 konfrans materialı xaricdə çapdan çıxmışdır. Elmi əsərlərin 4-ü xaricdə olmaqla 22-si müxtəlif beynəlxalq kodlu jurnallarda dərc edilmişdir. Əməkdaşların 5 qəzet məqaləsi işıq üzü görmüşdür.

Fonda yeni daxil olan Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Kəmalə Ağayevanın şəxsi arxivindəki sənəd və materiallar qəbul edilmiş və qeydə alınmış, onlara gigiyenik xidmət göstərilmişdir. Fonda yeni daxil olan 3 qədim çap kitabı və Əməkdar incəsənət xadimi Kəmalə Ağayevanın sənədləri qruplaşdırılaraq kataloqlaşdırılmışdır. Beləliklə, ekspedisiyası zamanı əldə edilmiş 1, f.e.d. F.Xəlilov və F.Eylazovun hədiyyə etdiyi 2 qədim çap kitabı da fondun balansına daxil edilməklə Fondda mühafizə olunan əlyazma və çap kitablarının ümumi sayı 638-ə çatmışdır.

2023-cü ildə Fond əməkdaşları **5 beynəlxalq konfransda:**

1. Ümummilli lider Heydər Əliyevin 100-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların VII Beynəlxalq Elmi Konfransı. Bakı, 29-30 aprel 2023 – K.Vəliyeva;

2. II. Beynəlxalq Ərəb dili və ədəbiyyatı araştırmaları konqresi. İstanbul, 5-7 may 2023 – K.Vəliyeva;

3. III. Beynəlxalq Oğuz Boyları Simpoziumu. Malatya, 28-30 sentyabr 2023 – f.ü.f.d. S.İbrahimov;

4. III. Beynəlxalq Türk Dünyası Əlaqələri və Sənət Simpoziumu. Bakı, 25-28 oktyabr 2023 – f.ü.f.d. S.İbrahimov;

5. Qərbi Azərbaycana qayıdışa gedən yol. Beynəlxalq elmi konqres. Naxçıvan, 23-24 noyabr 2023 – f.ü.f.d. S.İbrahimov,

**4 respublika konfransında**:

1. Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibəti ilə "Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda respublika konfransı. Naxçıvan, 17 aprel 2023 – f.e.d. F.Xəlilov, f.ü.f.d. S.İbrahimov, F.Eylazov, K.Vəliyeva;

2. Azərbaycanın fəlsəfi fikir tarixinə müasir baxış. Respublika elmi konfransı. Naxçıvan, 21 iyun 2023 – f.ü.f.d. S.İbrahimov;

3. Heydər Əliyev və Əlyazmalar İnstitutu. Elmi-nəzəri konfrans. Bakı, 7 iyul 2023 – f.e.d. F.Xəlilov;

4. Tərcümə şünaslığın müasir problemləri. Respublika elmi konfransı. Naxçıvan, 21 iyun 2023 – f.ü.f.d. S.İbrahimov çıxış etmişdir.

Fondun əməkdaşı f.e.d. F.Xəlilov Bölmədə keçirilən "Müstəqilliyin möhtəşəm 20 ili: uğurlar və çağırışlar" (16 oktyabr 2023), "Azərbaycan elminin inkişafında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu" (24 oktyabr 2023) mövzusunda elmi konfransda, Elm Günü ilə bağlı tədbirdə (27 mart 2023), "Kəmalə: taleyi və sənəti" kitabının (27 yanvar 2023), F.Eylazov "Fədakar ölkəşünas alim: Hacı Mirbağır Mirheydərzadə" kitabının (3 aprel 2023) təqdimatında çıxış etmişdir.

Hesabat dövründə Fondun 6 iclası keçirilmiş, burada bəzi təşkilati işlər və əməkdaşların elmi fəaliyyətinə aid məsələlər müzakirə edilmişdir. Naxçıvan Dövlət Universitetinin hamiliyə götürülmüş "Tərcümə" (Ərəb-Azərbaycan) və "Tərcümə" (Fars-Azərbaycan) ixtisaslarının və "Naxçıvan" Universiteti Xarici dillər fakültəsinin Dinşünaslıq ixtisası üzrə IV kurs tələbələrinə elmi-metodiki məsləhətlər verilmişdir. Həmçinin Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin "Tarix" ixtisası üzrə

## Əlyazmalar Fondunun elmi əməkdaşlarının 2023-cü ildə çap olunmuş elmi əsərləri

| Sıra №-si | Adı və soyadı | Vəzifəsi | Monoqrafiya | | Kitab | | | Elmi məqalə | | | | | | Tezis | | Konfrans materialı | | | | | | Beynəlxalq kodlu əsər | | Qəzet məqaləsi | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Respublikada | | | Respublikada | | | | Xaricdə | | | | Respublikada | | | | Xaricdə | | | | | |
| | | | | | | | | Naxçıvanda | | digər regionda | | | | | | Naxçıvanda | | digər regionda | | | | | | | |
| | | | Respublikada | Xaricdə | müəllif | həmmüəllif | Xaricdə | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | Respublikada | Xaricdə | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | Respublikada | Xaricdə | | |
| 1. | Fərman Xəlilov | Baş direktor | 1 | 1 | | 1 | | 6 | | 1 | | | | | | 2 | | 2 | | | | 5 | | 4 | 14 |
| 2. | Səbuhi İbrahimov | Şöbə müdiri | | | | 1 | 1 | 3 | | 1 | | 2 | | | | 1 | | | | 2 | | 4 | 2 | 1 | 11 |
| 3. | Fəxrəddin Eylazov | Şöbə müdiri | | | | 1 | | 4 | | 1 | | 2 | | | | 1 | | | | | | 5 | 2 | | 9 |
| 4. | Kübra Vəliyeva | Laboratoriya rəhbəri | | | | 1 | | 3 | | 1 | | | | 1 | | 1 | | 2 | | 2 | | 4 | | | 11 |
| Cəmi | | | 1 | 1 | | 4* | 1 | 16 | | 4 | | 4 | | 1 | | 5 | | 4 | | 4 | | 18 | 4 | 5 | 42 |

Qeyd: həmmüəllif qrafasında olan 4*- 1 kitab sayını bildirir.



Naxçıvan əlyazmalar xəzinəsi
ELMİ ƏSƏRLƏR
AXTARIŞLAR
RESEARCHES
ПОИСКИ
Əlyazmalar yanmır
Beynəlxalq konfransın materialları
Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı
ÖZET KİTAPÇIĞI
Azərbaycan Fəlsəfi Fikir Tarixinə Müasir Baxış
RESPUBLİKA ELMİ KONFRANSI
YOUNG RESEARCHERS
HEYDƏR ƏLİYEV VƏ ƏLYAZMALAR İNSTİTUTU
MATERİALLARI
ELMİ ƏSƏRLƏR
ميرزه على معجز
XATİRƏLƏR
BİBLİOQRAFİK GÖSTƏRİCİ

IV kurs tələbələri Fondun fəaliyyəti ilə tanış olmaq üçün burada bir günlük təcrübədə olmuşlar. Fondun əməkdaşı f.e.d. F.Xəlilov Naxçıvan televiziyasının hazırladığı "Şəxsiyyətlər: Hacı Mirbağır Mirheydərzadə" televiziya filminin elmi məsləhətçisi olmuşdur. Fondun əməkdaşları bölmədaxili və muxtar respublika səviyyəsində keçirilən müxtəlif tədbirlərdə fəail iştirak etmiş, respublikanın radio və televiziya verilişlərində çıxışlar etmişlər.

Fondun əməkdaşı f.e.d. F.Xəlilov 1 elmlər doktorluğu dissertasiyasının rəsmi opponenti olmuş, rəhbərlik etdiyi 2 fəlsəfə doktorluğu dissertasiyanın müzakirəsi keçirilərək növbəti mərhələyə buraxılmışdır. F.ü.f.d. S.İbrahimov "Naxçıvana dair əlyazmaların filoloji-tekstoloji tədqiqi (XIX əsrin axırı - XX əsrin əvvələri)" mövzusunda dissertasiya işinin müdafiəsi uğurla (22 dekabr 2023) keçirilmişdir.

Hesabat dövründə Fond əməkdaşları Təbriz Dövlət Universiteti, Təbriz Milli Kitabxanası, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu və bir çox elm, təhsil müəssisələri ilə əlaqələri davam etdirmişlər.

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİNİN ELMİ MÜƏSSİSƏLƏRİNDƏ 2023-CÜ İLDƏ ƏLDƏ OLUNAN MÜHÜM NƏTİCƏLƏR

**Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə.**

Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi tarixinin öyrənilməsi.

1. Naxçıvanın Neolit və Erkən Eneolit keramikasının araşdırılması Yaxın Şərq ölkələrinin, xüsusilə Dalmatəpə və Ubeyd mədəniyyəti tayfalarının Azərbaycanın cənub bölgələrində, o cümlədən Naxçıvanda koloniyalar şəklində məskunlaşdığını deməyə imkan verir. Araşdırmalara əsaslanaraq bu məskunlaşmanın e. ə. V minilliyin birinci yarısında xüsusilə intensiv olduğunu deyə bilərik. Naxçıvantəpə və Bülövqaya yaşayış yeri Yaxın Şərq tayfalarının, daha doğrusu, Ubeyd tayfalarının koloniyası olmuşdur.

AMEA Naxçıvan Bölməsinin ABŞ arxeoloqları ilə apardığı arxeoloji araşdırmalar nəticəsində Neolit dövründən məskunlaşdırılan Sədərək Kültəpəsinin e. ə. I minilliyin əvvəlində şəhər tipli yaşayış yeri kimi təşəkkül tapdığı və bu şəhərin Manna mədəniyyətinə məxsus xüsusiyyətlər kəsb etdiyi müəyyən edilmişdir.

**İcraçı:** AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev

**İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə.**

Naxçıvanın mədəni mühiti, maddi və mənəvi mədəniyyətinin tədqiqi.

1. Qərbi Azərbaycandan zorla deportasiya edilmiş soydaşlarımızın Naxçıvanda məskunlaşması bu insanların yaddaşında yaşatdıqları qədim təfəkkür mədəniyyətinin mövcud əraziyə yansımasının təsirini şərtləndirir. Ərazidə məskunlaşmış qərbi azərbaycanlılar öz doğma yurdlarında icra etdikləri folklor faktlarını – mövsüm və məişət mərasimi rituallarını burada yaşadıqları məkanlarda da qorumaqdadırlar. Araşdırmalarda qərbi azərbaycanlıların mədəni təsəvvürlərinin əksi olan mədəniyyət faktları ilə tanış olunmuşdur. Toplanan materiallarda ermənilər tərəfindən zorla

qovulmuş insanların həmin tarixi hadisələrlə bağlı olan faktlardan bəhs edən yazıları öz ifadəsini tapır. Tədqiqat "Qərbi Azərbaycana qayıdış" konsepsiyası üzrə görülən işlər baxımından əhəmiyyətlidir. Tədqiqata dair monoqrafiya çap edilmişdir (Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar. Naxçıvan: "Əcəmi" NPB, 2023, 177 s.).

**İcraçı:** Filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərova

# BİORESURSLAR İNSTİTUTUNDA 2023-CÜ İLDƏ YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ HAQQINDA QISA MƏLUMAT

2023-cü il Bioresurslar İnstitutunda 113 nəfər ştat vahidindən (47 nəfər elmi işçi) faktiki olaraq 72 nəfər fəaliyyət göstərmişdir ki, onlardan da 17 nəfəri elmi işçidir. Elmi-tədqiqat işi ilə 17 nəfər, o cümlədən 1 AMEA-nın həqiqi üzvü, 3 biologiya elmləri doktoru, 1 aqrar elmləri doktoru, 5 biologiya üzrə fəlsəfə doktoru, 3 aqrar elmlər üzrə fəlsəfə doktoru, 4 nəfər isə dissertant kimi məşğul olmuşlar.

Tədqiqat ilində planauyğun olaraq 1 istiqamət, 1 problem, 1 mövzu, 8 iş 17 mərhələdə yerinə yetirilmişdir. Bioresurslar İnstitutunda elmi-tədqiqat işlərinin yerinə yetirilməsində mövcud olan "Onurğasız heyvanlar", "Meyvə, tərəvəz və üzüm", "Biokimyəvi tədqiqatlar","Dənli, paxlalı və texniki bitkilər" laboratoriyalarının imkanlarından geniş istifadə olunmuşdur.

Aparılan elmi-tədqiqatların nəticələri əsasən institutun "Elmi əsərlər" jurnalının bir nömrəsində çap edilmişdir. Tədqiqat ilində institut əməkdaşları tərəfindən 112 elmi əsər, o cümlədən 2 kitab (Ümummilli lider Heydər Əliyevin 100 illik yubiliyinə həsr edilmiş Azərbaycan Respublikasının Qırmızı kitabının I və II cildlər (Üçüncü nəşr)), 1 dərslik, 2 monoqrafiya, 1 metodik vəsait, 106 elmi məqalə və konfrans materialı nəşr olunmuşdur. Əsərlərdən 8 elmi məqalə Thomson və impakt faktorlu jurnallarda olmaqla, 18 elmi məqalə və konfrans materialı xaricdə çap edilmişdir. Hesabat ilində 20 məqalə elektron resurslarda və qəzetlərdə nəşr olunmuşdur. Əməkdaşların 39 elmi məqaləsi çapa təqdim edilmişdir.

"Azərbaycanda Qafqaz Bəbirinin qorunma strategiyası" adlı beynəlxalq qrant layihəsində institutun əməkdaşları üzv kimi iştirak etmişlər.

2023-cü ildə institutda 5 respublika səviyyəli konfrans, planauyğun 10 seminar və 10 Elmi Şura keçirilmiş diskusiyalar aparılmışdır. Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin "Biologiya" ixtisasının tələbələri institutda istehsalat təcrübəsi keçmişlər.

2023-cü ildə institut əməkdaşlarından 2 nəfəri elmləri doktoru elmi dərəcəsi, 2 nəfəri isə dosent elmi adı almışdır. İnstitutda fəlsəfə doktoru proqramı üzrə 2 ixtisas, elmlər doktoru proqramı üzrə isə 3 ixtisas üzrə doktorant və dissertant təhsillərini davam etdirirlər.

## BİORESURSLAR İNSTİTUTUNDA 2023-CÜ İLDƏ YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN MÜHÜM NƏTİCƏLƏRİ

1. Naxçıvan Muxtar Respublikasının su ekosistemlərində yayılan *Fragillariaceae* (Kütz.) D. T. fəsiləsinin, *Fragilaria* Lyngb. cinsinə daxil olan diatom (*Bacillariophyta*) yosunların taksonomik tərkibi və ekoloji-coğrafi xüsusiyyətləri.

Tədqiqatlar nəticəsində *Fragillariaceae* (Kütz.) D. T. fəsiləsinin, *Fragilaria* (Kützing) Lange-Bertalot cinsinə daxil olan 6 növ: Fragilaria biceps (Kützing) Lange-Bertalot, *Fragilaria brevistriata* Grunow in Van Heurck, *Fragilaria capucina* Desmazières, *Fragilaria capucina* öyrənilmişdir. *Amphicephala*, (Grunow) Lange-Bertalot, *Fragilaria construens* (Ehrenberg) Grunow, *Fragilaria dilatata* (Brébisson) Lange-Bertalot növləri Naxçıvan MR olqoflorası ilk dəfə verilmişdir.

**İcraçı:** Biologiya üzrə fəlsəfə doktoru Seyfəli Qəhrəmanov

2. Naxçıvan MR-də yayılan yeməli göbələklər və onların istifadə perspektivləri

Tədqiqat dövründə Naxçıvan Muxtar Respublika mikobiotası üçün bir cins (*Gyromitra Fr.*) 3 növ (*Morchella crassipies* (Vent.) Pers., M elata Fr., *Gyromitra gigas* (Krombh.) Gke.) ilk dəfə verilmişdir.

**İcraçı:** Biologiya üzrə fəlsəfə doktoru Həmidə Seyidova

3. Muxtar respublikada düzən və dağətəyi ərazilərdə becərilən texniki istiqamətli üzüm sortlarının aqroekoloji və polimorfizm xüsusiyyətləri, yeni klon, hibrid mənşəli sort və formaların qiymətləndirilməsi.

Azərbaycan Elmi-Tədqiqat Üzümçülük və Şərabçılıq İnstitutunun vasitəçiliyi ilə Almaniyada Üzümçülük və Şərabçılıq İnstitutunda Naxçıvan MR-də becərilən üzüm sortlarının molekulyar səviyyədə DNT analizlərinin aparılması davam etdirilmişdir. 15 aborigen üzüm sortunun molekulyar səviyyədə genom analizi başa çatdırılmışdır.

Yeni yaradılmış "Uğur" adlı üzüm sortu Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi Azərbaycan Respublikası ərazisində kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadəsinə icazə verilmiş və mühafizə olunan seleksiya nailiyyətlərinin Dövlət Reyestrinə daxil edilmişdir.

**İcraçı:** Aqrar elmləri doktoru Varis Quliyev

## TƏBİİ EHTİYATLAR İNSTİTUTUNDA 2023-CÜ İLDƏ YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ HAQQINDA QISA MƏLUMAT

2023-cü il Təbii Ehtiyatlar İnstitutunda 52 əməkdaş çalışmışdır. İnstitutda 1 AMEA-nın müxbir üzvü, 1 elmlər doktoru, 9 fəlsəfə doktoru, 8 dissertant olmaqla ümumilikdə 19 nəfər tədqiqatların məsul icraçısı olmuşdur. Nəzəri və təcrübi araşdırmaların plana uyğun olaraq 1 problem 1 mövzu üzrə 6 iş 19 mərhələ üzrə elmi-tədqiqat işləri yerinə yetirilmişdir. Elmi-tədqiqat işlərinin 90%-i muxtar respublika ilə bağlı olan mövzulardır.

Hesabat ilində institut əməkdaşlarının mühüm nəticələri olan elmi-tədqiqat işləri müəyyənləşdirilir və həmin nəticələr Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif elmi qurumlarına göndərilir.

2023-cü ildə institutut əməkdaşlarının 43 elmi əsəri nəşr olunmuşdur. Onlardan 2 kitab (Bayram Rzayev. Şərq dünyasının ensklopedik alimi "Əbu Reyhan Əl Birunu", Aliyə Rzayeva. Qızıl ən qədim metaldır), 25 məqalə (12-i xaricdə), 16 konfrans materialı (7-i xaricdə) dərc olunmuşdur. Bunlardan 12 məqalə impakt faktorlu, 25 məqalə isə beynəlxalq kodlu jurnallarda nəşr olunmuşdur. K.ü.f.d. Günel Məmmədova redaksiya heyətinin üzvü olduğu "Oriental Journal of Chemistry" jurnalının il ərzində 5 məqaləsinə rəy vermiş və nəşr olunan əsərlərinə 73 (xaricdən) istinad olmuşdur.

2023-cü ildə institutda bir respublika elmi konfransı keçirilmişdir.

## TƏBİİ EHTİYATLAR İNSTİTUTUNDA 2023-CÜ İLDƏ YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN MÜHÜM NƏTİCƏLƏRİ

1. Nehrəm dolomitindən magnezium xloridin alınması şəraitinin tədqiqi və susuz maqnezium xloridin alınması.

Tədqiqat nəticəsində prosesin gedişinə təsir edən amillər: hissəciklərin ölçüsü - 450μm, temperatur – 70°C, parçalanma müddəti

- 30 dəqiqə və bərkin mayeyə nisbəti - 1:2 q/ml) müəyyən edilmişdir. Bu zaman həllolan hissənin çıxım təxminən 90-93% təşkil etmişdir. İşlənmədən sonra alınan maqnezium və kalsium xlorid məhlulları qarışığından Ca ionları maqnezium sulfatın iştirakı ilə çökdürülərək kalsium sulfat şəkilində məhluldan ayrılmışdır. Süzülmüş maqnezium xlorid 1,35-1,45 q/ml sıxlığa qədər buxarlandırıb qatılaşdıqdan sonra soyudularaq kristallaşdırılmışdır. Alınan məhsulun maqnezium xloridin heptahidratdan ($MgCl_2 \cdot 6H_2O$) ibarət olduğu təsdiq edilmişdir. Maqnezium xloridin kristalhidratından susuz maqnezium xloridin alınması şəraiti müəyyən edilmişdir. Belə ki, müəyyən miqdar $MgCl_2 \cdot 6H_2O$ etilen qlikolda həll edildikdən sonra $NH_4Cl$-in iştirakı ilə distillə edilmişdir. Qalıq (maqnezium etilenqlikolat kompleksi) sonra 350-400$^0$C temperaturda közərdilmişdir. Alınan məhsulun analizləri nümunənin susuz maqnezium xloriddən ibarət olduğunu göstərmişdir.

**İcraçı:** Kimya üzrə fəlsəfə doktoru Əhməd Qarayev

2. Naxçıvanın təbii sərvətləri əsasında (obsidian-gil-dolomit), üzvi mühitdə şabazit qrupunda olan seolitlərin istiqamətli sintezi və onların quruluş, fiziki-kimyəvi xüsusiyyətlərinin araşdırılması.

Şabazit qrupuna daxil olan seolitlər – qmelinit, levinit, erionit sintez olunmuşdur. Alınmış məhsullar rentgenfaza, İQ-spektroskopiya, derivatoqrafik və element analiz metodları ilə öyrənilmiş, müvafiq formullarla quruluş xüsusiyyətləri hesablanmışdır. Alınmış qmelinit, levinit və erionit seolitlər, müvafiq olaraq 700°C, 410°C, 1000°C temperatura və turş mühitə (çox qatı olmamaq şərti ilə) davamlıdır. Kristallaşma prosesinə temperaturun, mühitin pH, "qocalma" prosesinin təsiri öyrənilmişdir. Müəyyən olunmuşdur ki, sintez olunmuş məhsullar, faza cəhətdən təmiz və yüksək kristallaşma dərəcəsi ilə, ətraf mühitin "dar" intervalında mövcud ola bilir. Mühitin dəyişməsi (yəni temperaturun, pH) prosesi digər istiqamətdə apararaq başqa seolitlərin və yaxud alümosilikatların alınmasına səbəb olur. Tədqiqatlar göstərmişdir ki, alınmış seolitlər quruluş xüsusiyyətləri ilə seçilir və

adsorbent, modifikasiya olunduqdan sonra katalizator kimi tətbiq oluna bilər.

**İcraçı:** Kimya üzrə fəlsəfə doktoru Günel Məmmədova

3. CdSe nazik təbəqəsinin kimyəvi çökdürmə yolu alınması, fotoelektrik və optik xassələrinin araşdırılması.

Tədqiqatlar nəticəsində kimyəvi çökdürmə yolu ilə CdSe nazik təbəqəsinin alınması üçün optimal rejim müəyyən olunmuş, keyfiyyətli, bircins, yaxşı adgeziyaya malik, qırmızı rəngli nazik təbəqə alınmışdır. U-5100 ultrabənövşəyi spektrometri ilə CdSe nazik təbəqəsinin udma spektri çəkilmiş bu spektrdən onun qadağan olunmuş zonası tapılmışdır. Bundan başqa rentgen faza analizi və ellipsometriya ölçmələr aparılmış, Raman, fotolüminessensiya spektrləri çəkilmiş, SEM (Scanning Electron Microscopy) analiz ölçmələri aparılmış və analizlərin nəticəsində alınan maddənin CdSe olduğu isbatlanmışdır.

**İcraçı:** Elmi işçi Leyla İbrahimova

4. Yerli relyefdən asılı olaraq Naxçıvan Muxtar Respublikası ərazisində kombinə olunmuş enerji komplekslərinin quraşdırılması üçün rayonlar üzrə ərazinin seçilməsi.

Aparılmış tədqiqatlar onu göstərdi ki, Naxçıvan Muxtar Respublikasında çayların sularının miqdarı getdikcə azalmasını nəzərə alaraq, çayların enerjisindən istifadə edilməsinin ən əlverişli yolu dağlıq ərazilərdə kiçik mini və mikro hidro enerji qurğularının tikilməsindən ibarətdir.

**İcraçı:** Texnika üzrə fəlsəfə doktoru Məhbub Kazımov

5. Şahbuz rayonu ərazisindəki mineral suların kimyəvi tərkibinin və komponentlərinə görə ərazinin minerallaşma şəraitinin öyrənilməsi.

Ekspedisiyaları zamanı mənbələrdə Şahbuz artezian, Böyrək suyu, Biçənək kənd bulaq, Batabat Soyuq bulaq, Qızıl Qışlaq bulağı, Qızıl Qışlaq artezian, Yuxarı Qışlaq bulağı, Kükü Südlü bulaq, Kükü Dərəboğaz bulaq, Kükü Fərhad bulağı, Kükü Qasım, Kömür mineral bulaqlarından götürülmüş su nümunələrinin

temperaturu, orqanoleptik xassələri, pH-göstəriciləri ölçülmüş, laboratoriyada eyni adlı su nümunələrinin quru qalıqları, minerallıqları və makrokomponent tərkibləri müəyyən edilmişdir. "İçməli suyun ev şəraitində təmizlənməsi üsulları üzrə mülki-maarifləndirmə" adlı 18 səhifəlik layihə hazırlanıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə, Rusiya Təbiətşünaslıq Akademiyası və Avropa Elm-sənaye Konsorsiumuna göndərilmişdir.

**İcraçı:** Kimya üzrə fəlsəfə doktoru Fizzə Məmmədova

## BATABAT ASTROFİZİKA RƏSƏDXANASINDA 2023-CÜ İLDƏ YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ HAQQINDA QISA MƏLUMAT

Batabat Astrofizika Rəsədxanasının tərkibinə Naxçıvan şəhərindəki inzibati bina, Şahbuz rayonu ərazisində yerləşən Batabat stansiyası və Ordubad rayonu ərazisində yerləşən Ağdərə stansiyası daxildir. 2023-cü il Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Batabat Astrofizika Rəsədxanasında 25 əməkdaş çalışmışdır. Əməkdaşlardan 2-si fəlsəfə doktoru olmaqla 5-i elmi işçi olaraq fəaliyyət göstərmişdir. Batabat Astrofizika Rəsədxanasında Günəş sistemi cisimləri və cavan ulduzlar tədqiq olunur. 2023-cü ildə elmi-tədqiqat işləri 2 şöbə daxilində 1 elmi istiqamət, 1 problem, 2 mövzu, 2 iş, 5 mərhələdə planlaşdırılmış və yerinə yetirilmişdir.

2023-cü ildə Batabat Astrofizika Rəsədxanasında 5 elmi seminar keçirilmişdir. Rəsədxana əməkdaşları 2 respublika səviyyəli konfransda iştirak etmişlər. Rəsədxana əməkdaşlarının 3-ü xaricdə impakt faktorlu jurnallarda olmaql 10 məqaləsi dərc edilmişdir.

## BATABAT ASTROFİZİKA RƏSƏDXANASINDA 2023-CÜ İLDƏ YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN MÜHÜM NƏTİCƏSİ

1. Günəş fəallığının komet parlaqlığına təsirinin tədqiqi.

Spektral müşahidələrin tədqiqi nəticəsində spektral sayrışmalar müşahidə olunmuşdur və məlum olmuşdur ki, HeI λ 5876Å xəttinin mərkəzi intensivliyi və ekvivalent eni Hα xəttinin göy emissiya komponentinin uyğun parametrləri ilə düz korrelyasiya edir. Korrelyasiya əmsalları intensivlik üçün 0.92, ekvivalent en üçün isə 0.70 kimi olmuşdur. CH Cyg simbiotik ulduzunun spektrində aşkar etdiyimiz spektral dəyişmələr, çox güman ki, ulduzun sistemin fəal fazası üçün xarakterik olan optik parlaqlığındakı sayrışmalarla əlaqədardır.

**İcraçı:** Elmi işçi Ruslan Məmmədov

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ 2023-CÜ İLDƏ YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ HAQQINDA QISA MƏLUMAT

Naxçıvan Dövlət Universiteti 43 kafedradan ibarət elmi-təşkilati struktura malikdir. Kafedraların əməkdaşları 2021/2025-ci illər üçün Universitet Elmi Şurası tərəfindən təsdiq olunmuş layihəyə əsasən Ədəbiyyatşünaslıq, Yer haqqında, Fizika, Tibb, Kimya, Baytarlıq, İnformatika, İnformasiya-Kommunikasiya Texnologiyaları, Hesablama texnikası və İdarəetmə, Biologiya, Sənətşünaslıq, Əczaçılıq, Fəlsəfə, Dilçilik, Tarix, İqtisadiyyat, Siyasi, Hüquq, Təhlükəsizlik, Kulturologiya, Psixologiya, Pedaqoji, Energetika, Memarlıq, Tikinti elmi istiqamətləri üzrə elmi-tədqiqat işləri yerinə yetirirlər. Elmi-tədqiqat işlərinin 60%-i muxtar respublika ilə bağlı olan mövzulardır.

Naxçıvan Dövlət Universitetində elmi-tədqiqat işlərinin yerinə yetirilməsində mövcud olan Üzvi kimya, Ümumi qeyri-üzvi kimya, Analitik kimya, Kimya texnologiyası, Fiziki və kolloid kimya, Elektrokimya və metallar kimyası, akademik Yusif Məmmədəliyev adına elmi-tədqiqat, Biokimya, İnsan və heyvan fiziologiyası, Fitoterapiya, Mikrobiologiya, Dəmir yollarının avtomatik idarə olunması, Elektronika, Fizika laboratoriyalarının imkanlarından geniş istifadə olunur.

Professor-müəllim heyətinin apardıqları elmi-tədqiqatların nəticələri əsasən Universitetin dörd seriyadan ibarət "Elmi əsərlər" jurnalında nəşr olunur. Hər il "Elmi əsərlər" jurnalının Humanitar elmlər, Fizika-riyaziyyat və Texnika elmləri, Təbiət və tibb elmləri, İctimai elmlər seriyalarını əhatə edən, hər bir istiqamət üzrə 2 nömrə olmaqla 8 nömrəsi nəşr olunur. Bu jurnalların bütün nömrələri universitetin saytında yerləşdirilir. Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının bütün seriyaları Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN) ilə çap olunur.

Bakalavr və magistr təhsil səviyyələrində buraxılış işləri və magistr dissertasiyalarının hazırlanması prossesində universitetdə aparılan elmi-tədqiqat işlərinin nəticələrindən səmərəli istifadə edilir. Həmçinin Tələbə Elmi Cəmiyyətinin xətti ilə aparılan tədqiqat işlərində tələbələr bu tədqiqat işlərinə tez-tez müraciət edirlər.

Universitetdə fəaliyyət göstərən elmi dərəcəlilərin sayı 211 nəfərdir. Onlardan 30 nəfəri elmlər doktoru, 181 nəfəri isə fəlsəfə doktorudur. Hazırda universitetdə 24 professor və 161 dosent çalışmaqdadır. Universitet əməkdaşlarından 4 nəfəri AMEA-nın müxbir üzvüdür.

2023-ci ildə universitetin 4 əməkdaşı fəlsəfə doktoru elmi dərəcəsi, 5 nəfəri dosent, 1 nəfəri isə professor elmi adı almışdır. Eyni zamanda fəlsəfə doktoru proqramı üzrə 6, elmlər doktoru proqramı üzrə 1 doktorantın dissertasiya işinin ilkin müzakirəsi keçirilmişdir.

2023-ci ildə universitetdə fəlsəfə doktoru proqramında 34 ixtisas üzrə, elmlər doktoru proqramında isə 23 ixtisas üzrə doktorant və dissertant hazırlığı həyata keçirilir. Hazırda universitetdə fəlsəfə doktoru proqramı üzrə 52, elmlər doktoru proqramı üzrə isə 8 doktorant təhsil alır. Fəlsəfə doktoru proqramı üzrə təhsil alan 70 nəfərdən 52 nəfəri doktorant, 18 nəfəri isə dissertandır. Elmlər doktoru proqramı üzrə təhsil alan 34 nəfərdən 8 nəfəri doktorant, 26 nəfəri isə dissertantdır.

2023-ci ildə universitet əməkdaşlarının 13 monoqrafiyası, 7 dərsliyi, 15 dərs vəsaiti, 98 metodik vəsaiti və proqramı, 675 elmi məqaləsi və 162 konfrans materialı çap olunmuşdur. Elmi məqalələrdən 270-i, konfrans materiallarından isə 66-ı xaricdə dərc olunmuşdur.

2023-ci ildə Naxçıvan Dövlət Universitetində ali məktəb daxili 7 elmi tədbir, 8 beynəlxalq, 13 respublika elmi konfransı keçirilmişdir.

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ 2023-CÜ İLDƏ YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN MÜHÜM NƏTİCƏLƏRİ

1. Naxçıvan Muxtar Respublikasının turizm-rekreasiya ehtiyatlarından istifadədə təşkilati problemlər.

Turist qəbul edən turoperatora məxsus olan tur zərfi turistlərin tələbini tam ödəməlidir. Bunun üçün turistlərə təklif olunan turizm məhsulu onların marağını əks etdirməlidir. Turizm sahib-

karları müvəffəqiyyət qazanmaq üçün bazar imkanlarını formalaşdıran turizm ehtiyatlarının unikallığını və bunlardan da inhisar rentası kimi istifadə edə biləcəklərini yaxşı mənimsəməlidirlər. Başqa sözlə, bir xidmət sahəsi kimi turizm ehtiyatlarından istifadə olunması zamanı təbii inhisarlaşma labüddür.

Turizm ehtiyatları isə bütün dünyada olduğu kimi ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında da vardır. Məsələn, turistlər məşhur Eyfel qülləsinə baxmaq üçün yalnız Fransaya səfər etməli olduqları kimi XII əsr Şərq memarlıq məktəbinin unikal nümunəsi olan Mömünə-Xatun türbəsini də görmək üçün hökmən Naxçıvan şəhərinə gəlməlidirlər. Dünyada, ən azından regionda müxtəlif turizm növlərinin inkişafı üçün belə unikal ehtiyatlar Naxçıvan Muxtar Respublikasında kifayət qədərdir. Muxtar respublikada olan təbii (Şahbuz və Ordubadın ekoloji cəhətdən təmiz ərazisi, buradakı nadir fauna və flora, təbiət gözəllikləri və s.), tarixi (məşhur Əshabi-Kəhf ziyarətgahı, Mömünə-Xatun türbəsi, Qarabağlar Memarlıq kompleksi və s.) zənginliklər, müalicəvi obyektlər (Duzdağ, çoxlu mineral su ehtiyatları), mədəni sərvətlər (zəngin mətbəx nümunələri, müxtəlif el adətləri, Şərur yallısı və s.) kimi turizm marağı kəsb edən ehtiyatları canlı olaraq görmək üçün turistlər yalnız Naxçıvana səfər etmələri üçün işlər aparılmalıdır.

**İcraçı**: İqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarov

2. Direkt-kostinq və Standart-kostinq sistemi üzrə istehsalat məsrəflərinin və məhsulun maya dəyərinin kalkulyasiya edilməsi

Uçotun normativ metodunda kənarlaşmaların ümumi həcmində 5-10% nəzərə alınır, 90-95% nəzərə alınmır. Maya dəyərinin təhlili mühasibat uçotu məlumatları ilə təsdiq edilməmiş, quraşdırılmış göstəricilər əsasında aparılır. O, heç bir operativlik əhəmiyyətinə malik deyil və sonrakı tarixi görünüş xarakteri daşıyır. Məsrəf və gəlirlərin sənədləşdirilməsi metodu maliyyə nəticələrini ətraflı və operativ təhlil etməyə imkan vermir.

Hər hansı inteqral göstəricinin dəyişmə səbəblərini aydınlaşdırmaq üçün ayrı-ayrı göstəricilərin dəyişilmə səbəblərini bil-

mək zəruridir. Bu ancaq o halda mümkündür ki, məsələn, bütün edilmiş məsrəflər onları müəyyən edən səbəb-nəticə əlavə və faktorları haqda suala birbaşa cavab versin. Mühasibat uçotunun informasiya bazası bu gün də mühasibat uçotu sisteminin təhlil funksiyasının lazımi səviyyədə yerinə yetirilməsini təmin etmir.

Məsrəf uçotu və kalkulyasiyanın nəzərdən keçirilən metodları təcrübədə müxtəlif quruluşda istifadə olunur ki, bu da məsrəf uçotu və kalkulyasiyanın müxtəlif variantlarının mövcudluğu haqda deməyə imkan verir. Məsələn, sifariş metodundan istifadə etməklə, sifarişin tam və ya "natamam" maya dəyərini hesablamaq olar, mərhələli kalkulyasiyanı isə - ya faktiki, yaxud da normativ məsrəflər haqda məlumat əsasında həyata keçirmək olar. Həmçinin, 2 uçot metodunun – "direkt-kostinq" və "standart-kost" metodlarının sintezi də mümkündür ki, bunun da nəticəsində "direkt-standart" adlanan variant alınır.

**İcraçı:** İqtisad elmləri doktoru Teymur Abbasov

3. Molla Nəsrəddin jurnalı və teatr mühiti

Elmi tədqiqat işində xalq gülüşünün bədii örnəyi olan Molla Nəsrəddin lətifələrində xalq gülüşü və tənqid hədəfləri tədqiq predmetinə çevrilmişdir. Molla Nəsrəddin lətifələri, məlum olduğu kimi, Azərbaycan (Güneyli Qüzeyli), Anadolu, Türkmənistan və b. əraziləri əhatə edir. Molla Nəsrəddinin real şəxsiyyət olduğu, türk alimlərinə görə Anadoluda yaşadığı, kor-kobud siması olduğu kimi göstərilmişdir.

Azərbaycan alimi Ə.Mirəhmədov və onun kimi düşünənlər Molla Nəsrəddin obrazının görkəmli siyasi xadim, alim və şair Nəsirəddin Tusinin şəxsiyyətinə əsasən yarandığını dosent R.Qasımov isə yaradıcılıqdakı tənqidi düşüncə metodu, cahilliyi tənqidi va kamilliyə çağırışı, Nəsiminin adlarından birinin Nəsiməddin olması və s. amilləri nəzərə alaraq İmadəddin Nəsimi şəxsiyyətinin xalq etimologiyası obrazı olduğunu söyləmişlər.

Molla Nəsrəddin lətifələri yumor üslubunda cahilliyi və digər ictimai eybəcərlikləri ifşa və tənqid hədəfi seçir. Bu lətifələrdə tənqid obyekti cəhaləti və cahilliyi bəsləyən, təcəssüm etdirən bütün cəmiyyətdir. Bəzən Teymurləng və onun sarayı, bə-

zən Qazılar və bütün ədalətsiz məhkəmə sistemi, bəzən haramxor oğru və talançılar və b. nöqsanları ələ salınaraq Molla Nəsrəddinin müdrik cavabları fonunda tənqid edilmişdir. Muxtar Kazımovun göstərdiyi kimi, bəzi hallarda da Molla Nəsrəddin özü cahilliyin siması kimi iştirak edərək özünü gülüş hədəfinə çevirmişdir

**İcraçı**: Filologiya üzrə fəlsəfə doktoru Gülxarə Əhmədova

4. I Dünya müharibəsi illərində Cənubi Qafqaza erməni köçləri.

Ön Asiyanın azsaylı etnoslarından sayılan ermənilər hələ qədim zamanlardan regionun müxtəlif ölkələrində kiçik icmalar şəklində yaşayırdılar. Lakin yeni dövrdə Çar Rusiyasının hakim dairələri bu etnosun acgöz və yırtıcı təbiətindən istifadə etməklə, Cənubi Qafqazı işğal etmək və burada möhkəmlənmək məqsədilə erməniləri kütləvi surətdə regiona köçürməyə başladılar. Sonrakı zamanlarda da köçlər davam etdi. I Dünya müharibəsi illərində bir sıra səbəblər üzündən Cənubi Qafqaza erməni köçləri daha da intensiv xarakter aldı. Əvvəlcə imperiya məmurları, bir qədər sonra isə Rusiyanın kommunist liderləri tərəfindən yaxın-uzaq ölkələrdən gələn erməni köçlərinə xüsusi impuls verildi. Onların himayə etdiyi, dəstək verdiyi ermənilər türk-müsəlman əhalisini terror və deportasiya yolu ilə öz tarixi torpaqlarından didərgin saldı və onların ərazilərində yerləşdilər. Cənubi Qafqazın bir hissəsində etnik çoxluğunu təmin edən erməni toplumu qısa bir zaman kəsiyində öz havadarlarının birbaşa dəstəyilə burada öz monoetnik, qondarma dövlətlərini yaratdılar. Bu işdə I Dünya müharibəsinin yaratdığı geosiyasi reallıqlar da az rol oynamadı.

**İcraçı:** Tarix üzrə fəlsəfə doktoru Şamxal Məmmədov

# NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTUNDA 2023-CÜ İLDƏ YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ HAQQINDA QISA MƏLUMAT

Məlum olduğu kimi **2023-cü il** ölkəmizdə Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə **"Heydər Əliyev İli"** elan edilmişdir. Bununla əlaqədar respublikanın direktiv orqanlarının, habelə Naxçıvan Muxtar Respublikası ali hakimiyyət orqanlarının qərar, əmr və göstərişlərinin tələbləri nəzərə alınmaqla ölkənin ali təhsil sisteminin tərkib hissəsi kimi Naxçıvan Müəllimlər İnstitutunda geniş tədbirlər planı hazırlanmış, 19 dekabr 2022-ci il tarixdə təsdiq edilmiş  və hesabat müddətində mütəşəkkil qaydada icra edilmişdir.

2023-cü ildə Naxçıvan Müəllimlər İnstitutunun elmi-təşkilati strukturu 8 kafedradan ibarət olmuşdur: Pedaqogika və psixologiya; Azərbaycan dili və ədəbiyyat; Ali riyaziyyat və informatika; Riyaziyyat və tədrisi metodikası; Xarici dillər və tədrisi metodikası; Ümumi fənlər; İncəsənət; Humanitar və ictimai fənlər.

Naxçıvan Müəllimlər İnstitutunda 2023-cü ildə elmi-tədqiqat işləri institut Elmi Şurasının 31 yanvar 2019-cu il tarixli (protokol №06) təsdiq edilmiş "2019-2023-ci illər üçün Elmi-tədqiqat işlərinin Planı"na əsasən institutun elmi-təşkilati strukturunu təşkil edən bu kafedralarda aparılmışdır.

İnstitutda 2019-2023-cü illər üçün vahid elmi problem "Elm və təhsilin tarixi, nəzəriyyəsi və təlim texnologiyaları" kimi müəyyənləşdirilmişdir. Hesabat ilində institutun profilinə uyğun elm sahələrinin (əsasən 05.Humanitar və ictimai elmlər) istiqamətləri üzrə elmi-tədqiqat işləri yerinə yetirilmişdir. Bu işlər sırasında ölkə elm və  təhsilinin tarixi, təlim və tərbiyənin nəzəriyyəsi və metodikası, Azərbaycan xalqının maddi-mədəni dəyərlərinin Naxçıvan regional məsələlərinə aid aktual mövzular əsas yer tutur. Elmi istiqamətlər üzrə kafedralarda 91 əməkdaş tərəfindən 91 mövzu üzrə elmi tədqiqat işləri icra edilmişdir.

Naxçıvan Müəllimlər İnstitutunda elmi fəaliyyətinin keyfiyyət və səmərəliliyinin artırılmasını təmin etmək, elmi-pedaqoji əməkdaşların bu fəaliyyətini vahid meyarlar əsasında qiymətlən-

dirmək, habelə ali təhsil müəssisələri qarşısında qoyulan milli və beynəlxalq tələblərə uyğunlaşdırmaq məqsədilə hazırlanmış, institutun Elmi Şurasında qəbul edilmiş, tətbiqinə 2021-ci ilin əvvələrindən başlanılmış "Naxçıvan Müəllimlər İnstitutunda elmi-pedaqoji əməkdaşların elmi fəaliyyətinin qiymətləndirilməsinə dair Əsasnamə" hesabat ilində də uğurla tətbiq edilmişdir.

Elmi-tədqiqat və tədris-metodiki işlərin elektron fondunun və antiplagiat sisteminin yaradılması və istifadəsini təmin etmək məqsədilə "Plagiat.pl" Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan Respublikasındakı filialı ilə 15 fevral 2021-cı il tarixdə 3 illik müddətə müqavilə imzalanmışdır. 15 mart 2021-cı il tarixdən başlanılmaqla StrikePlagiarism Antiplagiat internet-sistemindən hesabat ilində də istifadə olunmuşdur.

Hazırda Naxçıvan Müəllimlər İnstitutunun elmi-pedaqoji kadr potensialı 105 nəfərdən ibarətdir. Bunlardan 46 nəfəri elmi dərəcəli, o cümlədən 5 nəfəri elmlər doktoru, 41 nəfəri fəlsəfə doktorudur. Professor-müəllim heyətinin tərkibində 2 professor və 25 dosent vardır.

Hesabat ilində məqsədli və ya müstəqil şəkildə respublikanın digər elm və ali təhsil qurumlarında təhsil alan əməkdaşlarımızdan fəlsəfə doktoru proqramı üzrə doktorant və dissertantların sayı 8, elmlər doktoru proqramı üzrə doktorant və dissertantların sayı 10 nəfərdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 avqust 2019-cu il tarixli qərarı ilə Naxçıvan Müəllimlər İnstitutunda fəlsəfə doktoru hazırlığı üzrə doktorantura yaradıldıqdan bugünədək Naxçıvan Müəllimlər İnstitutunun doktoranturasına fəlsəfə doktoru proqramı üzrə 25 nəfər doktorant (dissertant) təhsil alır. Bunlardan 5 nəfər doktoranturaya 2023-cü ildə qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 20 aprel 2023-cü il tarixli qərarı ilə Naxçıvan Müəllimlər İnstitutunda 5801.01 - Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (riyaziyyatın tədrisi metodikası) ixtisasında və 5804.01 - Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisasında pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini həyata keçirmək üçün yaradılmış Dissertasiya Şurası

fəaliyyət göstərir. 2023-cü ildə Dissertasiya Şurası 3 nəfər iddiaçının fəlsəfə doktoru dissertasiyalarının müdafiəsi təşkil edilmişdir. Hesabat ilində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən institut əməkdaşlarından 1 nəfəri pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsinə, 1 nəfəri isə dosent elmi adına layiq görülmüşdür.

***"Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər"*** jurnalının 3 nömrəsi hesabat dövründə nəşr olunmuş, 4-cü nömrəsi isə çap üçün hazırlanır. Hal hazırda jurnalda pedaqogika elmləri bölməsi ilə yanaşı psixologiya, tarix, filologiya (dilçilik və ədəbiyyatşünaslıq), riyaziyyat və informatika, biologiya və incəsənət bölmələri üzrə də elmi məqalələr çap edilir. Jurnal pedaqogika və tarix elm sahələri üzrə elmi məqalələrin Azərbaycan Respublikasında dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

2023-cü ildə institut əməkdaşlarının 373 əsəri, o cümlədən 4 monoqrafiya, 2 dərs vəsaiti, 68 tədris-metodik vəsaiti və fənn proqramı, 299 elmi və elmi-metodik məqaləsi (dövri elmi jurnallarda və konfrans materiallarında), 97 tezisi çap olunmuşdur. Bunlardan xaricdə cəmi 38 elmi məqalə və 18 tezis, o cümlədən dövri elmi jurnallarda 12, konfrans materiallarında 26 məqalə çap olunmuşdur. Bu məqalələrdən 14-ü impakt-faktorlu jurnallarda dərc olunmuşdur.

Naxçıvan Müəllimlər İnstitutunda 2023-cü il üçün nəzərdə tutulmuş elmi-təşkilatı tədbirlərdən ***1 beynəlxalq, 3 respublika və 18 muxtar respublika və institut səviyyəli*** elmi konfrans və digər tədbirlər hibrid (əyani və video bağlantı) formatda təşkil edilmişdir. ***Beynəlxalq və respublika səviyyəli*** elmi-təşkilati tədbirlər aşağıdakılardan ibarətdir:

1) Naxçıvan Müəllimlər İnstitutunun təşkilatçılığı, Azərbaycan Respublikasının Təhsil İnstitutu, Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Rusiya FR-nın Cənub Universiteti, Makedoniyanın Beynəlxalq Balkan Universitetinin iştirakı ilə **"Ali pedaqoji məktəblərdə elm və təhsil: dünya təcrübəsi və Azərbaycan"** mövzusunda hibrid (əyani və videobağlantı) formatda Beynəlxalq elmi konfrans - 7 dekabr 2023-cü il;

2) **“Təhsil, tətqiqat və innovasiyanın vəhdəti”** mövzusunda hibrid (əyani və videobağlantı) formatda doktorant və magistrantların V Respublika elmi konfransı - 29 aprel 2023-cü il;

3) **“Heydər Əliyev və Azərbaycanda ali təhsil”** mövzusunda hibrid (əyani və videobağlantı) formatda Respublika elmi konfransı - 12 may 2023-cü il;

4) **“Ümumi təhsilin dövlət standartları və məktəb təcrübəsi”** mövzusunda Respublika elmi-praktik konfransı - 31 may 2023-cü il;

Bütün konfranslar ***Ümummili lider Heydər Əliyevin 100 illik yubileyinə*** həsr edilmişdir. Keçirilmiş respublika konfranslarının üçünün materialları ayrıca toplu şəklində nəşr edilmişdir. 7 dekabr 2023-cü il tarixdə hibrid (əyani və video bağlantı) formatda keçirilmiş “Ali pedaqoji məktəblərdə elm və təhsil: dünya təcrübəsi və Azərbaycan” mövzusunda Beynəlxalq elmi konfransın materialları ayrıca toplu şəklində nəşrə hazırlanır. Hesabat ilində “Təhsilalanların elmi-tədqiqat fəaliyyətinin təşkili vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda 2 seminar-müşavirə təşkil edilmişdir.

Hesabat ilində Tələbə Elmi Cəmiyyəti xətti ilə institutun 210 tələbə və magistrantı, yəni institutun hər 6-7 təhsilalanından biri elmi-tədqiqat fəaliyyətinə cəlb olunmuşdur. Tələbə elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş fakültə konfransları 26 aprel tarixində Təbiət və incəsənət fakültəsində, 27 aprel tarixində isə Pedaqoji fakültədə keçirilmişdir. “Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi”nə həsr olunmuş Tələbə Elmi Cəmiyyəti xətti ilə 2022-2023-cü tədris ilində aparılan tələbə elmi-tədqiqat işlərinin Ümuminstitut yekun konfransı 5 may 2023-cü il tarixində təşkil edilmişdir. Yekun konfrans Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmişdir. 10 may 2023-cü il tarixdə - Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi günündə institut TEC sədrinin təqdimatı əsasında “Tələbə Elmi Cəmiyyətinin 2022-2023-cü tədris ilinə aid yekun konfransının nəticələri üzrə rəğbətləndirmə haqqında” institut üzrə əmr imzalamışdır. Əmrə əsasən, ümuminstitut konfransının 115 məruzəçisindən 60 nəfəri müvafiq dərəcəli

diplomla, o cümlədən 15 tələbə - I dərəcəli, 12 tələbə - II dərəcəli, 12 tələbə - III dərəcəli diplomlarla təltif edilmiş, 55 tələbəyə rektorluq adından təşəkkür elan edilmişdir. Təltiflərin təqdim edilməsi 31 may 2023-cü il tarixdə ümumi təhsilin problemlərinə həsr olunmuş ənənəvi respublika elmi konfransının yekun iclasında həyata keçirilmişdir.

Naxçıvan Müəllimlər İnstitutu AMEA Naxçıvan Bölməsi ilə sıx elmi əlaqələr saxlayır, birlikdə elmi-praktik konfranslar keçirir, görkəmli alimlərlə tələbələrin görüşlərini təşkil edir, onların elmi potensialından tədris prosesində istifadə edir. Bunlardan başqa, NMİ-də çalışan bəzi doktorant və dissertantlar AMEA Naxçıvan Bölməsində müqavilə əsasında fəlsəfə doktorluğu proqramı üzrə elmi tədqiqatlarını davam etdirmişlər.

Naxçıvan Müəllimlər İnstitutunda xarici ölkələrlə elmi əməkdaşlığın keyfiyyətcə yeni mərhələsi başlamışdır. Bu məqsədlə bir sıra ölkələrin nüfuzlu ali məktəbləri və beynəlxalq layihələrin təşkilatçıları ilə müqavilələr və ya niyyət protokolları imzalanmış və ya imzalanmaqdadır. Bundan başqa əməkdaşlarımız beynəlxalq konfranslarda iştirak edir, onların elmi jurnallarında məqalələr çap etdirir, internet vasitəsilə elmi əlaqələr saxlayırlar.

Hesabat ilində institut əməkdaşlarından 86 nəfəri beynəlxalq statuslu (o cümlədən 26 nəfəri xaricdə keçirilmiş) elmi konfrans, simpozium və seminarlarda (əsasən videobağlantı formatında) iştirak edərək məruzələrlə çıxış etmişlər.

İnstitut alimlərinin nüfuzlu beynəlxalq jurnallarda dərc olunmuş əsərlərinə dünya miqyasında elmi istinadlar hesabat ilində davam etmişdir. Belə ki, https://scholar.google.com/citations?user elektron bazasının məlumatına əsasən, Riyaziyyat və tədrisi metodikası kafedrasının müdiri, riyaziyyat elmləri doktoru, professor Yaqub Məmmədovun elmi əsərlərinə 2015-2022-ci illər ərzində cəmi 218 istinad olmuşdur ki, bunlardan 46-sı 2020-ci ilə, 16-sı 2021-ci ilə, 36-sı 2022-ci ilə, 18-i hesabat ilinə aiddir. Müəllifin **Hi-8, i10-6** olmuşdur. İnstitutun digər alimlərinin də dərc olunmuş əsərlərinə istinad məsələlərinin izahı, təşviqi və təşkili istiqamətində maarifləndirici tədbirlər həyata keçirilməkdədir. Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması

ilə əlaqədar tədbirlər sırasında hazırda Naxçıvan Müəllimlər İnstitutunda çalışan bütün elmi-pedaqoji əməkdaşların *Academia.edu* açıq akademik sistemdə səhifələri mütəşəkkil qaydada açılmış, onların əvvəllər çap edilmiş, lakin internetdə olmayan məqalələrinin bu sistemdə yerləşdirilməsi işi hesabat ilində davam etdirilmişdir.

## NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTUNDA 2022-Cİ İLDƏ YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN MÜHÜM NƏTİCƏLƏRİ

1. Naxçıvan və Qars şivələrində işlənən arıçılıq leksikası.

Naxçıvan və Qars şivələrinin öyrənilməsi zamanı məlum olmuşdur ki, hər iki xalqı bir-birinə bağlayan dərin köklər, qardaşlıq münasibətləri vardır. Hər iki regionun əhalisinin həyat tərzi, məşğuliyyəti, təsərrüfat həyatı, adət-ənənəsi, tarixi, mədəniyyəti və incəsənəti, sənətkarlığı oxşar olduğu kimi hər iki dialekt və şivədə işlənən leksik vahidlər də oxşar və fərqli cəhətləri ilə diqqəti cəlb edir.

Araşdırdığımız arıçılıq leksikası da hər iki bölgənin dialekt leksikasında geniş işləkliyə malikdir və müqayisəli təhlillər belə deməyə imkan verir ki, bu leksik vahidlər fonetik və leksik cəhətdən oxşar və fərqli xüsusiyyətlərə malikdir. Belə sözlərin müasir dilçilik aspektindən etnolinqvistik təhlilinin aparılması bir sıra maraqlı faktların ortaya çıxarılmasına imkan verir. Həmin sözlərin milli aspektdən, ümumtürk mədəniyyəti, dilçiliyi kontekstində öyrənilməsi, müqayisəli linqvistik tədqiqi onların xalqlarımızla, bu ərazilərlə sıx bağlılığının sübut olunması, eyni zamanda günümüzdə torpaqlarımıza və mədəniyyətimizə qarşı irəli sürülən əsassız erməni iddialarına tutarlı cavab verə biləcək əhəmiyyətli bir mənbə olduğunu göstərməkdədir. Belə müqayisəli təhlillərin aparılması günümüzün tələbidir və ortaq türk dilçiliyinin formalaşmasına xidmət edir.

**İcraçı:** Filologiya üzrə fəlsəfə doktoru Əhruz Mahmudova

2. Naxçıvanda fəaliyyət göstərən rəssamların yaradıcılığında Naxçıvan əsas mövzu kimi.

Naxçıvanlı rəssamların yaradıcılığında Naxçıvan abidələrinin çoxsaylı təsvirləri, təbiət mənzərələri, adət-ənənələri və s. geniş təsvir olunmuşdur. Əsərlərində Naxçıvan mövzusu əsas yer tutan Naxçıvan rəssamları realist ənənələrə sadiq qalmış, bu ənənəni öz yaradıcılığında davam etdirmişdilər. XX əsrin sonlarında yeni üslub rəngarəngliyi Naxçıvan rəssamlarının çəkdiyi Naxçıvan mövzulu əsərlərdə öz əksini tapmışdır.

Naxçıvanda fəaliyyət göstərən teatr rəssamlarınının yaratdıqları bədii tərtibatlarda Naxçıvan təbiət lövhələri, müasir şəhər mənzərələrinə, tarixi abidilərinin, mədəniyyəti nümunələrinin təsvirinə tez-tez rast gəlinir.

Azərbaycanın təsviri sənətinə böyük töhvələr vermiş Naxçıvan rəssamlarının yaradıcılığında Naxçıvanın təbiət gözəlliklərinin təsvirinin aydın, realist boyalarla verilməsi əsərlərin öz estetik gözəlliyi ilə yanaşı Naxçıvanın tarixi, mühiti, təbiəti, mədəniyyəti haqqında aydın təsəvvürün yaranması, abidələrimizin tanınması, öyrənilməsi, dünyada təbliği baxımımdan əhəmiyyətlidir.

**İcraçı:** Sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyeva

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NAXÇIVAN BÖLMƏSİNİN 2023-CÜ İLDƏKİ ELMİ-TƏŞKİLATİ FƏALİYYƏTİNİN TƏSNİFATI

***Kadr potensialı.***

2023-cü ildə AMEA Naxçıvan Bölməsində ştat cədvəli üzrə 104 nəfər əməkdaş çalışmışdır ki, onlardan 14 nəfər (4 böyük laborant, 1 gözətçi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutuna, 1 kiçik elmi işçi, 3 böyük laborant İncəsənət, Dil və Ədəbiyyat İnstitutuna, 1 aparıcı mütəxəssis, 1 fəhlə, 1 arxivçi Aparata, 1 kitabxanaçı Elmi kitabxanaya, 1 müdir Nəşriyyata) hesabat dövründə işə götürülmüşdür. Elmi işçilərdən 1 nəfər AMEA-nın həqiqi üzvü, 3 nəfər AMEA-nın müxbir üzvü, 3 nəfər elmlər doktoru, 19 nəfər fəlsəfə doktorudur ki, bu da elmi potensialın 76,5%-ni təşkil edir. Elmi əməkdaşların 23 nəfərinin elmi adı vardır (4 nəfəri professor, 19 nəfəri dosent – 67,6%).

Hesabat ilində Bölmədə doktorantura və dissertanturaya qəbul keçirilmişdir. Nəticə etibarı ilə 1 əməkdaş fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qəbul olmuş, mövzusu və rəhbəri təsdiq edilmişdir. Hazırda Bölmədə 8 nəfər doktorant (4 fəlsəfə doktoru hazırlığı üzrə, 4 elmlər doktoru hazırlığı üzrə), 10 nəfər dissertant (8 fəlsəfə doktoru hazırlığı üzrə, 2 elmlər doktoru hazırlığı üzrə) müvafiq dissertasiyalar üzrə tədqiqatları davam etdirir.

Bölmənin əməkdaşı f.ü.f.d. S.İbrahimovun elmlər doktoru dissertasiya işini müdafiəsi keçirilmiş, t.ü.f.d. Z.Quliyevanın elmlər doktoru dissertasiyası Müdafiə Şurasına təqdim edilmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə f.ü.f.d. N.Əliyevaya elmlər doktoru elmi dərəcəsi verilmişdir. Müxbir üzv Ə.Quliyevin 4 (1-i elmlər doktoru, 3-ü fəlsəfə doktoru), f.ü.f.d. Z.İsmayılın 1 (fəlsəfə doktoru) dissertantı təsdiqin almışdır. Müxbir üzv F.Səfərli 1, müxbir üzv Ə.Quliyev 2, f.e.d. F.Xəlilov 1, f.ü.f.d. R.Qasımov 1 dissertasiya işinə opponent olmuş, f.ü.f.d. Z.İsmayılın 1 dissertantı uğurla müdafiyə etmişdir. Bölmədə 2 ixtisas üzrə Dissertasiya Şurası fəaliyyət göstərmişdir. Hesabat dövründə Dissertasiya Şurasında 1 nəfərin "Vətən tarixi" ixtisası üzrə elmlər doktoru, 1 nəfər "Arxeo-

logiya" ixtisası üzrə fəlsəfə doktoru dissertasiya işinin müdafiyəsi keçirilmişdir. Əməkdaşlar Bölmədə və digər müəssisələrdə üzv olduqları müdafiə şuralarında elmi-təşkilati fəaliyyətlərini davam etdirmişlər.

***Elmi nəşrlər.***

2023-cü ildə Bölmə əməkdaşlarının 12 monoqrafiyası, 8 kitab, 1 metodik vəsaiti, 188 elmi məqaləsi, 93 konfrans materialı, 5 tezisi olmaqla 307 elmi əsəri çap olunmuşdur. Bir elmi işçiyə düşən əsər sayı 9,0 olmuşdur. Elmi əsərlərdən 2 monoqrafiya, 1 kitab, 25 məqalə, 17 konfrans materialı və 3 tezis (cəmi 48 əsər) xaricdə nəşr edilmişdir. Məqalələrdən 3-ü Scopus bazasında olmaqla, 8-i impakt faktorlu indeksli jurnalda çap olunmuşdur. Elmi məqalələrin 34-ü xaricdə olmaqla 190-ı beynəlxalq kodlu nüfuzlu elmi jurnallarda çapdan çıxmışdır. Bölmə əməkdaşlarının ResearchGate, Academia.edu, Google scholar, ORCİD elmmetrik bazaları üzrə nəşr və sənəd sayı 144 olmuşdur. Elmi əsərlərə 733 istinad qeydə alınmışdır. KİV-də və saytlarda əməkdaşların 268 qəzet məqaləsi işıq üzü görmüşdür. Bölmənin Rəyasət Heyətinin iclaslarında 8 kitab və monoqrafiya müzakirə olunaraq nəşr edilməsi tövsiyə edilmişdir.

AMEA Naxçıvan Bölməsində "Elmi əsərlər" jurnalının 2 və "Axtarışlar" jurnallarının 3 nömrəsi çapdan çıxmışdır. Bu jurnallarda Bölmə əməkdaşlarının 71 məqaləsi nəşr olunmuşdur. Bölmənin "Elmi əsərlər" jurnalı üzrə çap olunan məqalələrin yeni ildən DOİ rəqəmsal identifikatorla təmin edilməsi dəqiqləşdirilmişdir. Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibəti ilə 17 aprel 2023-cü il tarixində Bölmədə keçirilən "Heydər Əliyev ideyaları və müasir dövr" adlı respublika konfransının materialları və "Taleyi və sənəti" seriyası üzrə məqalələr toplusunun "Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti" adlı növbəti seriyası çap olunmuşdur. Həmçinin 9 iyul 2021-ci il tarixində AMEA Naxçıvan Bölməsində keçirilmiş "Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı" beynəlxalq konfransının materialları çap edilmişdir.

AMEA Naxçıvan Bölməsindən seçilən 2 nəfər akademik və 5 nəfər müxbir üzvün il ərzində 86 əsəri, o cümlədən 9 monoqrafiyası, 4 kitabı, 1 metodik vəsaiti, 52 elmi məqaləsi, 19 konfrans ma-

## AMEA Naxçıvan Bölməsinin elmi əməkdaşlarının 2023-cü ildə çap olunmuş elmi əsərləri

| S № | Müəssisənin adı | Ümumi işçilərin sayı | İnstitutlar üzrə işçilərin sayı | Elmi işçilərin sayı | Metodik vəsait | Monoqrafiya | | Kitab | | Elmi məqalə | | Konfrans materialı | | Tezis | | Yekun (2023-cü il) | Yekun (2022-ci il) | Bir elmi işçiyə düşən əsər sayı | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | Respublikada | Xaricdə | Respublikada | Xaricdə | Respublikada | Xaricdə | Respublikada | Xaricdə | Respublikada | Xaricdə | | | 2023-cü il | 2022-ci il |
| 1. | Aparat, kitabxana, nəşriyyat, arxiv | 42 | | | | | | 2 | | | | | | | | 2 | 1 | | |
| 2. | Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu | 25 | 25 | 14 | 1 | 8 | | | | 58 | 17 | 23 | 7 | 1 | | 115 | 117 | 8,2 | 8,4 |
| 3. | İncəsənət, Dil və Ədəbiyyat İnstitutu | 29 | 29 | 16 | | 1 | 1 | 4 | | 85 | 4 | 44 | 6 | | 3 | 148 | 171 | 9,3 | 10,1 |
| 7. | Əlyazmalar Fondu | 8 | 8 | 4 | | 1 | 1 | 1 | 1 | 20 | 4 | 9 | 4 | 1 | | 42 | 32 | 10,5 | 8,0 |
| Cəmi | | 104 | 62 | 34 | 1 | 10 | 2 | 7 | 1 | 163 | 25 | 76 | 17 | 2 | 3 | 307 | 321 | 9,0 | 9,2 |

# AMEA Naxçıvan Bölməsinin həqiqi və müxbir üzvlərinin 2023-cü ildə çap olunmuş elmi əsərləri

| Sıra №-si | Adı və soyadı | Vəzifəsi | Metodik vəsait | Monoqrafiya | | | Kitab | | | Elmi məqalə | | | | | Tezis | | Konfrans materialı | | | | | Beynəlxalq kodlu əsər | | Qəzet məqaləsi | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Respublikada | | Xaricdə | Respublikada | | Xaricdə | Respublikada | | | | Xaricdə | Respublikada | Xaricdə | Respublikada | | | | Xaricdə | Respublikada | Xaricdə | | |
| | | | | | | | | | | Naxçıvanda | | digər regionda | | | | | Naxçıvanda | | digər regionda | | | | | | |
| | | | | müəllif | həmmüəllif | | müəllif | həmmüəllif | | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | | | | müəllif | həmmüəllif | müəllif | həmmüəllif | | | | | |
| 1. | İsmayıl Hacıyev | Bölmənin sədri | | 2 | 2 | | | | | 7 | | 5 | | 3 | | | 1 | | | | | 12 | 3 | 8 | 20 |
| 2. | Fəxrəddin Səfərli | Baş direktor | | 1 | 1 | | | | | 5 | | 2 | | 1 | | | 2 | | | | | 7 | 1 | 3 | 12 |
| 3. | Vəli Baxşəliyev | İcraçı direktor | 1 | | 3 | | | | | 3 | | 2 | | 3 | 1 | | 1 | | | | 1 | 5 | 3 | 6 | 15 |
| 4. | Əbülfəz Quliyev | Baş direktor | | | | | 2 | | | 10 | | 2 | | 1 | | | 3 | | | | 1 | 9 | 2 | 16 | 19 |
| 5. | Tofiq Əliyev | Direktor | | | | | | | | | | | | | | | | | | | | | | | |
| 6. | Tariyel Talıbov | Baş elmi işçi | | 1 | | | | 2 | | 2 | | 2 | | 2 | | | 3 | | 5 | | 1 | 2 | 2 | | 18 |
| 7. | Əliəddin Abbasov | Kafedranın dosenti | | | | | | | | | | 2 | | | | | | | | | 1 | 2 | | | 3 |
| Cəmi: | | | 1 | 4 | 6* | | 2 | 2* | | 27 | | 15 | | 10 | 1 | | 10 | | 5 | | 4 | 37 | 11 | 33 | 86 |

Qeyd: həmmüəllif qrafasında olan 6* - 5 monoqrafiya, 2* - 2 kitab sayını bildirir.

terialı, 1 tezisi çapdan çıxmış, 33 qəzet məqaləsi işıq üzü görmüşdür. Əsərlərdən 10 məqalə, 4 konfrans materialı xaricdə nəşr olunmuşdur. Əsərlərin 11-i xaricdə olmaqla, 48-i beynəlxalq kodludur. Məqalələrin 2-si Scopus bazasında olan jurnalda çap olunmuşdur. Çap olunan "Heydər Əliyev siyasəti: tarix və müasirlik", "Culfa rayonunun tarixi", "Heydər Əliyev: şəxsiyyətin miqyası və missiyası", "Naxçıvan Etnoqrafiyası", "Naxçıvan tarixindən səhifələr", "Dalmatəpə mədəniyyətinin mənşəyi", "Şərur rayonunun tarixi", "Kəngərli rayonunun tarixi", "Heydər Əliyev tariximizdə və taleyimizdə", "Azərbaycan Respublikasının Qırmızı kitabı" əsərləri mühüm əhəmiyyəti ilə seçilir. 2023-cü ildə akademik və müxbir üzvlər 9 beynəlxalq, 5 respublika konfransında, həmçinin muxtar respublikada 13 konfrans, tədbir və təqdimatda çıxış etmişlər.

***Tədbirlər.***

Ölkə Prezidenti tərəfindən 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev ili" elan edilməsi və imzalanan digər sərəncamlar əsasında AMEA Naxçıvan Bölməsində keçirilən **bir respublika konfransında -** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə "Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda respublika konfransı (17 aprel 2023), **22 elmi konfransda -** "20 Yanvar: xalqımızın qəhrəmanlıq salnaməsi" (19 yanvar 2023), "Nəğməkar şair İslam Səfərli – 100" (10 fevral 2023), Beynəlxalq Ana dili Günü münasibətilə "Dilimiz milli sərvətimizdir" (21 fevral 2023), "Xocalı soyqırımı: səbəbləri, nəticələri və dərsləri" (24 fevral 2023), "Azərbaycan Milli Teatrı - 150" və "Naxçıvan Teatrı - 140" (10 mart 2023), "Azərbaycanlılara qarşı soyqırım siyasəti: səbəbləri və nəticələri" (30 mart 2023), "Ümummilli lider Heydər Əliyev və milli məfkurə" (4 aprel 2023), "Ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyəti xalqa və vətənə xidmət nümunəsidir" (5 may 2023), "Qərbi Azərbaycan mədəni-ədəbi mühiti: öyrənilməsi və qarşıda duran vəzifələr" (23 may 2023), "Heydər Əliyevin dövlətçilik siyasəti və müasirlik" (5 iyun 2023), "15 İyun - Milli Qurtuluş Günü" (14 iyun 2023), "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü" (18 iyul 2023), "Xalqımızın qədim yurd yeri: Qərbi

Azərbaycan" (15 sentyabr 2023), "Məhəmmədhüseyn Şəhriyar və milli-mənəvi dəyərlər" (18 sentyabr 2023), "Vətən müharibəsi: Azərbaycanın Zəfər yolu" (22 sentyabr 2023), "Müstəqilliyin möhtəşəm 20 ili:uğurlar və çağırışlar" (16 oktyabr 2023), "Ulu öndər Heydər Əliyev irsində dil və ədəbiyyat məsələləri" (20 oktyabr 2023), "Azərbaycan elminin inkişafında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu" (24 oktyabr 2023), "100-cü ilində Türkiyə Cümhuriyyəti" (27 oktyabr 2023), "Ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü" (22 noyabr 2023), 8 Noyabr Zəfər Günü və 9 Noyabr Bayraq Günü ilə bağlı (6 noyabr 2023), "Əbədi yaşar lider" mövzusunda (11 dekabr 2023) elmi konfransda, **8 tədbirdə -** 8 Mart Beynəlxalq Qadınlar Günü (6 mart 2023), Elm Günü (27 mart 2023), 18 Aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü (18 aprel 2023), AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadənin 75 illik yubileyi (19 may 2023), 28 May Müstəqillik Günü ilə əlaqədar (25 may 2023), Azərbaycan-ABŞ, Tumbultəpə, II Plovdağ, Meydantəpə arxeoloji ekspedisiyanın yekunları ilə bağlı (13 sentyabr 2023) tədbir, görkəmli dilçi alim, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova (26 may 2023), "Ədəbiyyat" qəzetinin baş redaktoru, tənqidçi, filologiya üzrə fəlsəfə doktoru Azər Turanla görüş (2 oktyabr 2023), **12 təqdimatda -** "Kəmalə: taleyi və sənəti" (27 fevral 2023), "Fədakar ölkəşünas alim: Hacı Mirbağır Mirheydərzadə" (3 aprel 2023), "Dalmatəpə mədəniyyətinin mənşəyi" (15 may 2023), "Məhəmməd Salih. Şeybaninamə" (8 iyun 2023), "Naxçıvanın əlyazmalar xəzinəsi" (21 iyun 2023), "Heydər Əliyev: tariximizdə və taleyimizdə" (4 oktyabr 2023), "Bani" (13 oktyabr 2023), "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" (22 noyabr 2023), "Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti" (14 dekabr 2023) kitablarının, "Heydər Əliyev siyasəti: tarix və müasirlik" (8 may 2023), "Şərur rayonunun tarixi" (15 may 2023), "Naxçıvan paremioloji vahidləri: deyimlər, atalar sözləri və məsəllər" (11 iyul 2023) monoqrafiyasının təqdimatında əməkdaşların məruzələri dinlənilmişdir. Bölmə əməkdaşlar hesabat ilində muxtar respublikada keçirilən konfrans, tədbir və təqdimatlarda çıxışlar etmişlər.

**AMEA Naxçıvan Bölməsinin elmi əməkdaşlarının 2023-cü ildə respublika və xarici ölkələrdə iştirak etdikləri beynəlxalq tədbirlər**

| S № | Tədbirin adı | Tədbirin statusu | Məruzəçi | Keçirildiyi tarix | Keçirikliyi yer |
|---|---|---|---|---|---|
| 1. | Beynəlxalq Dil və Ədəbiyyat Araşdırmaları Simpoziumu | simpozium | f.ü.f.d. E.Məmmədov | 2-3 mart | Ərzurum |
| 2. | Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı. Beynəlxalq elmi konfrans | konfrans | müxbir üzv F.Səfərli, N.Ağayeva | 6-7 mart | Bakı |
| 3. | Turan Elçiləri Təşkilatı və İğdır Azərbaycan Evinin birgə təkilatçılığı ilə "31 Mart - Azərbaycanlıların Soyqımı Günü" mövzusunda elmi konfrans | konfrans | f.ü.f.d. Z.İsmayıl | 31 mart | İğdır |
| 4. | Ümummilli lider Heydər Əliyevin 100-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların VII Beynəlxalq Elmi konfransı | konfrans | f.ü.f.d. E.Məmmədov, K.Vəliyeva | 29-30 aprel | Bakı |
| 5. | Azərbaycanşünaslığın aktual problemləri (tədqiqat, elmi diskurs, beynəlmilləşmə). Beynəlxalq elmi konfrans | konfrans | f.ü.f.d. E.Məmmədov | 4-5 may | Bakı |
| 6. | Azərbaycan memarı Heydər Əliyevin anadan olmasının 100 illiyi. 3-cü Beynəlxalq konfrans | konfrans | f.ü.f.d. R.Qasımov | 5 may | Bakı |
| 7. | II. Beynəlxalq Ərəb dili və ədəbiyyatı araştırmaları konqresi | konqres | K.Vəliyeva | 5-7 may | İstanbul |
| 8. | 9-cu Uluslararası Türk Dünyası Sosial Bilimlər Konfransı | konfrans | t.ü.f.d. T.Xəlilov | 18-20 may | İstanbul |
| 9. | Qarabağ dünən, bu gün və sabah. 22-ci beynəlxalq elmi-praktiki konfrans | konfrans | B.Cəfərli | 23 may | Bakı |
| 10. | I Beynəlxalq İpək yolu konfransı | konfrans | akademik İ.Hacıyev, müxbir üzv F.Səfərli, müxbir üzv Ə.Quliyev, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. Z.İsmayıl, f.ü.f.d. A.Orucova | 26-27 may | Naxçıvan |
| 11. | Səmərqənd ətrafı qonşuluqdan Avrasiyanın digər mərkəzlərinə: Mərkəzi Asiya tarixi prizmadan. Beynəlxalq elmi-texniki konfrans | konfrans | t.ü.f.d. T.Xəlilov | 2 iyun | Səmərqənd |
| 12. | VI Beynəlxalq Dədə Qorqud – türk mədəniyyəti, tarixi və ədəbiyyatı elmi konfransı | konfrans | F.Məmmədova | 20-21 iyul | Quba |
| 13. | III. Beynəlxalq Oğuz Boyları Simpoziumu | simpozium | f.ü.f.d. S.İbrahimov | 28-30 sentyabr | Malatya |
| 14. | III. Beynəlxalq Türk Dünyası Əlaqələri və Sənət Simpoziumu | simpozium | f.ü.f.d. S.İbrahimov | 25-28 oktyabr | Bakı |
| 15. | Qloballaşan dünyada elmin aktual problemləri. Xalq yazıçısı Anarın anadan olmasının 85 illiyi münasibətilə beynəlxalq elmi simpozium | simpozium | f.e.d. N.Əliyeva | 30 sentyabr | Eskişehir |
| 16. | VII. Beynəlxalq Tətbiqi Sosial Elmlər Konqresi | konqres | t.ü.f.d. T.Xəlilov | 13-15 oktyabr | Malta |
| 17. | Zəngəzur: tarix və müasirlik. II Beynəlxalq elmi-praktiki konfrans | konfrans | B.Cəfərli | 18 oktyabr | İğdır |
| 18. | II Beynəlxalq Türkiyat Konqresi | konqres | f.ü.f.d. R.Qasımov, f.ü.f.d. Z.İsmayıl | 29-31 oktyabr | Çankırı |
| 19. | Türk aşıqlıq ənənələri və Aşıq Veysəl. Beynəlxalq simpozium | simpozium | f.ü.f.d. E.Məmmədov | 2-4 noyabr | Sivas |
| 20. | Qərbi Azərbaycana qayıdışa gedən yol. Beynəlxalq elmi konqres | konqres | akademik İ.Hacıyev və Bölmənin 15 əməkdaşı | 23-24 noyabr | Naxçıvan |

# AMEA Naxçıvan Bölməsinin elmi əməkdaşlarının 2023-cü ildə iştirak etdikləri respublika səviyyəli tədbirlər

| S № | Tədbirin adı | Tədbirin statusu | Məruzəçi | Keçirildiyi tarix | Keçirildiyi yer |
|---|---|---|---|---|---|
| 1. | Çağdaş Azərbaycan dilinin aktual problemləri. III Respublika elmi konfransı | konfrans | müxbir üzv Ə.Quliyev, s.ü.f.d. Ə.Qasımov, f.e.d. N.Əliyeva, f.ü.f.d. F.Rzayev, f.ü.f.d. A.Cəfərova, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. A.Orucova | 30 mart | Naxçıvan |
| 2. | Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibəti ilə "Heydər Əliyev ideyaları və müasir dövr" mövzusunda respublika konfransı | konfrans | akademik İ.Hacıyev və Bölmənin 29 əməkdaşı | 17 aprel | Naxçıvan |
| 3. | Heydər Əliyev və Təhlükəsizlik orqanları. Respublika elmi konfransı | konfrans | akademik İ.Hacıyev | 24 aprel | Naxçıvan |
| 4. | Heydər Əliyev və Azərbaycanda ali təhsil. Respublika elmi konfransı | konfrans | f.ü.f.d. R.Qasımov | 12 may | Naxçıvan |
| 5. | Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti. Respublika Elmi Konfransı | konfrans | f.ü.f.d. A.Cəfərova | 15 may | Bakı |
| 6. | Heydər Əliyev və milli dövlətçilik məsələləri. Respublika konfransı | konfrans | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, t.e.d. E.Şıxəliyev, t.ü.f.d. İ.Əliyev, t.ü.f.d. T.Xəlilov, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. Z.İsmayıl, f.ü.f.d. A.Orucova | 25-26 may | Naxçıvan |
| 7. | Heydər Əliyevin ədəbiyyat siyasətinin milli-ideoloji mahiyyəti. Respublika elmi konfransı | konfrans | f.ü.f.d. R.Qasımov | 25-26 may | Naxçıvan |
| 8. | Azərbaycanın fəlsəfi fikir tarixinə müasir baxış. Respublika elmi konfransı | konfrans | f.ü.f.d. S.İbrahimov | 21 iyun | Naxçıvan |
| 9. | Heydər Əliyev və Əlyazmalar İnstitutu. Elmi-nəzəri konfrans | konfrans | f.e.d. F.Xəlilov | 7 iyul | Bakı |
| 10. | Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri. Respublika elmi konfransı | konfrans | f.ü.f.d. Z.İsmayıl | 12 iyul | Bakı |
| 11. | Akademik Mahmud Kərimovun 75 illiyinə həsr olunmuş "Radiasiya təhlükəsizliyi problemləri: regional aspektlər" mövzusunda elmi-texniki konfrans | konfrans | akademik İ.Hacıyev | 18-19 oktyabr | Naxçıvan |
| 12. | Folklor və mənəvi bütövlük: Güney Azərbaycan folklor irsi. Respublika Elmi Konfransı | konfrans | f.ü.f.d. A.Cəfərova, s.ü.f.d. Ə.Qasımov | 17 noyabr | Bakı |
| 13. | Tərcüməşünaslığın müasir problemləri. Respublika elmi konfransı | konfrans | f.ü.f.d. S.İbrahimov | 28 noyabr | Naxçıvan |

**AMEA Naxçıvan Bölməsinin elmi əməkdaşlarının 2023-cü ildə iştirak etdikləri muxtar respublika səviyyəli tədbirlər**

| S № | Tədbirin adı | Tədbirin statusu | Məruzəçi | Keçirildiyi tarix | Keçirildiyi yer |
|---|---|---|---|---|---|
| 1. | Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibəti ilə Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyində tədbir | tədbir | t.ü.f.d. Y.Rəhimov | 17 fevral | Naxçıvan |
| 2. | Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibəti ilə "Ümummilli lider Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" adlı tədbir | tədbir | f.ü.f.d. E.Məmmədov, t.ü.f.d. A.Orucov | 14 mart | Naxçıvan |
| 3. | Naxçıvan Şəhər Milli Kitabxanasında Novruz bayramı ilə əlaqədar "Elimizə bahar gəlir" mövzusunda tədbir | tədbir | f.ü.f.d. A.Cəfərova | 14 mart | Naxçıvan |
| 4. | "Ulu Öndər Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" mövzusunda konfrans | konfrans | müxbir üzv F.Səfərli | 15 mart | Naxçıvan |
| 5. | "Heydər Əliyev İli"nə həsr olunmuş "Ulu öndər Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan" adlı tədbir | tədbir | t.ü.f.d. T.Xəlilov | 15 mart | Naxçıvan |
| 6. | Kəngərli Rayon İcra Hakimiyyətində "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbir | tədbir | f.ü.f.d. R.Qasımov | 15 mart | Naxçıvan |
| 7. | Naxçıvan Dövlət Tarix Muzeyində "Qədim tarixi dəyərlərimiz – Novruz" mövzusunda tədbir | tədbir | f.ü.f.d. A.Cəfərova | 15 mart | Naxçıvan |
| 8. | Naxçıvan Müəllimlər İnstitutunda "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir" mövzusunda tədbir | tədbir | akademik İ.Hacıyev | 28 mart | Naxçıvan |
| 9. | Naxçıvan Müəllimlər İnstitutunda "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda elmin inkişafı" mövzusunda tələbələrlə görüş | görüş | akademik İ.Hacıyev | 28 mart | Naxçıvan |
| 10. | Naxçıvanşünaslıq Mərkəzində "Heydər Əliyev İli"nə həsr olunmuş "Ulu öndər Heydər Əliyevin dövlətçilik təlimində milli-mənəvi dəyərlərin yeri" mövzusunda tədbir | tədbir | f.ü.f.d. A.Cəfərova | 29 mart | Naxçıvan |
| 11. | Ordubad rayon İcra Hakimiyyətində "Heydər Əliyev İli"nə həsr olunmuş "Heydər Əliyev və milli intibah dövrü" mövzusunda tədbir | tədbir | f.ü.f.d. A.Cəfərova | 25 aprel | Naxçıvan |
| 12. | "Akademik Zərifə xanım Əliyeva – 100" mövzusunda konfrans | konfrans | akademik İ.Hacıyev | 28 aprel | Naxçıvan |
| 13. | Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibəti ilə Şahbuz şəhərində Ahıllar evində tədbir | tədbir | müxbir üzv F.Səfərli | 5 may | Naxçıvan |

| S № | Tədbirin adı | Tədbirin statusu | Məruzəçi | Keçirildiyi tarix | Keçirildiyi yer |
|---|---|---|---|---|---|
| 14. | YAP Naxçıvan Muxtar Respublika və Naxçıvan şəhər təşkilatının təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasında milli-siyasi sistemin formalaşması" mövzusunda elmi konfrans | konfrans | müxbir üzv F.Səfərli | 5 may | Naxçıvan |
| 15. | Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibəti ilə bağlı Dövlət Miqrasiya Xidmətində keçirilən tədbir | tədbir | t.ü.f.d. Y.Rəhimov | 5 may | Naxçıvan |
| 16. | Ulu öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Babək, Şahbuz və Kəngərli rayonlarında keçirilən tədbir | tədbir | müxbir üzv F.Səfərli, t.ü.f.d. A.Orucov, t.ü.f.d. T.Xəlilov | 10 may | Naxçıvan |
| 17. | Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibəti ilə tədbir | tədbir | t.e.d. E.Şıxəliyev | 24 may | Naxçıvan |
| 18. | Şərur rayon İcra Hakimiyyətində "Şərur rayonunun tarixi" kitabının təqdimatı | təqdimat | müxbir üzv V.Baxşəliyev, t.ü.f.d. Y.Rəhimov | 24 may | Naxçıvan |
| 19. | Professor Əjdər İsmayılovun 85 illiyi münasibəti ilə "Dövləti qoruyun" mövzusunda konfrans | konfrans | akademik İ.Hacıyev | 12 iyun | Naxçıvan |
| 20. | Beynəlxalq Memarlar Günü münasibətilə NDU-nun "Memarlıq" kafedrasının yaranmasının 20 illiyinə həsr olunmuş tədbir | tədbir | B.Cəfərli | 6 oktyabr | Naxçıvan |
| 21. | YAP Gənclər təşkilatının təşkilatçılığı ilə "Qayıdış-Qərbi Azərbaycan" mövzusunda tədbir | tədbir | t.ü.f.d. A.Orucov | 10 oktyabr | Naxçıvan |
| 22. | "Güclü lider: Müzəffər Ali Baş Komandan" adlı tədbir | tədbir | akademik İ.Hacıyev | 15 oktyabr | Naxçıvan |
| 23. | Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə bağlı Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyində tədbir | tədbir | müxbir üzv V.Baxşəliyev | 15 oktyabr | Naxçıvan |
| 24. | Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə bağlı Naxçıvan şəhər İcra Hakimiyyətində tədbir | tədbir | t.ü.f.d. İ.Əliyev | 17 oktyabr | Naxçıvan |
| 25. | Naxçıvan şəhər İcra Hakimiyyətində "Ata vəsiyyəti və inamlı Zəfər" adlı tədbir | tədbir | akademik İ.Hacıyev | 6 noyabr | Naxçıvan |
| 26. | Naxçıvan Müəllimlər İnstitutunda "Mənəvi dəyərlərimizin qorunmasında tarixi abidələrin rolu" mövzusunda elmi-praktik konfrans | konfrans | müxbir üzv V.Baxşəliyev | 16 noyabr | Naxçıvan |

# 2023-cü ildə AMEA Naxçıvan Bölməsində keçirilən konfrans və tədbirlər

| S № | Tədbirin adı | Tədbirin statusu | Məruzəçi | Keçirildiyi tarix | Keçirildiyi yer |
|---|---|---|---|---|---|
| 1. | "20 Yanvar: xalqımızın qəhrəmanlıq salnaməsi" mövzusunda elmi konfrans | konfrans | müxbir üzv F.Səfərli, t.ü.f.d. A.Qəhramanova, t.ü.f.d. T.Xəlilov, f.ü.f.d. A.Orucova | 19 yanvar | Naxçıvan |
| 2. | "Nəğməkar şair İslam Səfərli – 100" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, f.ü.f.d. E.Məmmədov, f.ü.f.d. R.Qasımov, s.ü.f.d. Ə.Qasımov | 10 fevral | Naxçıvan |
| 3. | Beynəlxalq Ana dili Günü münasibətilə "Dilimiz milli sərvətimizdir" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, f.e.d. N.Əliyeva, f.ü.f.d. Z.İsmayıl, | 21 fevarl | Naxçıvan |
| 4. | "Xocalı soyqırımı: səbəbləri, nəticələri və dərsləri" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, t.ü.f.d. A.Orucov, t.ü.f.d. İ.Əliyev, f.ü.f.d. R.Qasımov | 24 fevral | Naxçıvan |
| 5. | 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbir | tədbir | akademik İ.Hacıyev, f.ü.f.d. A.Cəfərova | 6 mart | Naxçıvan |
| 6. | "Azərbaycan Milli Teatrı - 150" və "Naxçıvan Teatrı - 140" mövzularında elmi konfrans | konfrans | akademik İ.Hacıyev, s.ü.f.d. Ə.Qasımov, s.ü.f.d. Ə.Qəhrəmanov | 10 mart | Naxçıvan |
| 7. | "Elm Günü"nə həsr edilən tədbir | tədbir | akademik İ.Hacıyev, müxbir üzv F.Səfərli, müxbir üzv Ə.Quliyev, f.e.d. F.Xəlilov, a.e.ü.f.d. O.Bağırov | 27 mart | Naxçıvan |
| 8. | "Azərbaycanlılara qarşı soyqırım siyasəti: səbəbləri və nəticələri" mövzusunda konfrans | konfrans | akademik İ.Hacıyev, t.e.d. E.Şıxəliyev, t.ü.f.d. A.Qəhramanova, f.ü.f.d. E.Məmmədov, N.Ağayeva | 30 mart | Naxçıvan |
| 9. | İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyev və milli məfkurə" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. A.Cəfərova, f.ü.f.d. Z.İsmayıl | 4 aprel | Naxçıvan |
| 10. | 18 Aprel-Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə bağlı tədbir | tədbir | akademik İ.Hacıyev, müxbir üzv V.Baxşəliyev | 18 aprel | Naxçıvan |
| 11. | Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyəti xalqa və vətənə xidmət nümunəsidir" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, müxbir üzv F.Səfərli, müxbir üzv V.Baxşəliyev, t.e.d. E.Şıxəliyev, t.ü.f.d. A.Orucov | 5 may | Naxçıvan |
| 12. | AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadənin 75 illik yubileyi ilə bağlı tədbir | tədbir | akademik İ.Hacıyev, t.ü.f.d. A.Orucov, t.ü.f.d. A.Qəhrəmanova | 19 may | Naxçıvan |
| 13. | İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə "Qərbi Azərbaycan mədəni-ədəbi mühiti: öyrənilməsi və qarşıda duran vəzifələr" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, f.ü.f.d. F.Rzayev, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. A.Cəfərova, f.e.d. N.Əliyeva | 23 may | Naxçıvan |
| 14. | "28 May Müstəqillik Günüdür" mövzusunda tədbir | tədbir | akademik İ.Hacıyev, N.Ağayeva | 25 may | Naxçıvan |
| 15. | Görkəmli dilçi alim, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova ilə görüş | tədbir | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, f.ü.f.d. R.Qasımov | 26 may | Naxçıvan |
| 16. | "Heydər Əliyevin dövlətçilik siyasəti və müasirlik" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, müxbir üzv F.Səfərli, müxbir üzv Ə.Quliyev, t.e.d. E.Şıxəliyev | 5 iyun | Naxçıvan |

| S № | Tədbirin adı | Tədbirin statusu | Məruzəçi | Keçirildiyi tarix | Keçirildiyi yer |
|---|---|---|---|---|---|
| 17. | "15 İyun - Milli Qurtuluş Günü" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, t.ü.f.d. Y.Rəhimov, t.e.d. E.Şıxəliyev, t.ü.f.d. A.Orucov, t.ü.f.d. Z.Quliyeva | 14 iyun | Naxçıvan |
| 18. | "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, t.ü.f.d. Y.Rəhimov, t.ü.f.d. T.Xəlilov, t.ü.f.d. İ.Əliyev, N.Ağayeva | 18 iyul | Naxçıvan |
| 19. | Azərbaycan-ABŞ, Tumbultəpə, II Plovdağ, Meydantəpə arxeoloji ekspedisiyanın yekunları ilə bağlı tədbir | tədbir | akademik İ.Hacıyev, müxbir üzv V.Baxşəliyev | 13 sentyabr | Naxçıvan |
| 20. | "Xalqımızın qədim yurd yeri: Qərbi Azərbaycan" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, t.ü.f.d. M.Quliyev, t.ü.f.d. T.Xəlilov, t.ü.f.d. S.Hacıyeva, A.İsmayılova | 15 sentyabr | Naxçıvan |
| 21. | "Məhəmmədhüseyn Şəhriyar və milli-mənəvi dəyərlər" mövzusunda elmi konfrans | konfrans | müxbir üzv Ə.Quliyev, f.ü.f.d. E.Məmmədov, f.ü.f.d. R.Qasımov, f.e.d. N.Əliyeva | 18 sentyabr | Naxçıvan |
| 22. | "Vətən müharibəsi: Azərbaycanın Zəfər yolu" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, t.ü.f.d. M.Quliyev, t.ü.f.d. Z.Quliyeva, Ə.Tağıyev | 22 sentyabr | Naxçıvan |
| 23. | "Ədəbiyyat" qəzetinin baş redaktoru, tənqidçi, filologiya üzrə fəlsəfə doktoru Azər Turanla keçirilən görüş | tədbir | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, f.ü.f.d. E.Məmmədov, f.ü.f.d. R.Qasımov, | 2 oktyabr | Naxçıvan |
| 24. | "Müstəqilliyin möhtəşəm 20 ili: uğurlar və çağırışlar" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, müxbir üzv V.Baxşəliyev, f.e.d. F.Xəlilov | 16 oktyabr | Naxçıvan |
| 25. | "Ulu öndər Heydər Əliyev irsində dil və ədəbiyyat məsələləri" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, f.e.d. N.Əliyeva, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. E.Məmmədov | 20 oktyabr | Naxçıvan |
| 26. | "Azərbaycan elminin inkişafında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, f.ü.f.d. E.Məmmədov, f.e.d. F.Xəlilov, t.ü.f.d. M.Quliyev | 24 oktyabr | Naxçıvan |
| 27. | Türkiyə Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr edilən "100-cü ilində Türkiyə Cümhuriyyəti" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, müxbir üzv V.Baxşəliyev, t.ü.f.d. Y.Rəhimov, t.ü.f.d. S.Hacıyeva, f.ü.f.d. R.Qasımov | 27 oktyabr | Naxçıvan |
| 28. | 8 Noyabr Zəfər Günü və 9 Noyabr Bayraq Günü ilə bağlı elmi konfrans | konfrans | akademik İ.Hacıyev, t.ü.f.d. İ.Əliyev, f.e.d. N.Əliyeva, f.ü.f.d. E.Məmmədov, A.İsmayılova | 6 noyabr | Naxçıvan |
| 29. | "Ulu öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrü" mövzusunda elmi konfrans | konfrans | akademik İ.Hacıyev, t.ü.f.d. A.Orucov, t.ü.f.d. M.Quliyev, t.ü.f.d. Z.Quliyeva, S.Əliyev | 22 noyabr | Naxçıvan |
| 30. | "Əbədi yaşar lider" mövzusunda elmi konfrans | | akademik İ.Hacıyev, müxbir üzv V.Baxşəliyev, müxbir üzv Ə.Quliyev, f.e.d. N.Əliyeva, f.ü.f.d. R.Qasımov | 11 dekabr | Naxçıvan |

# 2023-cü ildə AMEA Naxçıvan Bölməsində keçirilən təqdimatlar

| S № | Tədbirin adı | Tədbirin statusu | Məruzəçi | Keçirildiyi tarix | Keçirildiyi yer |
|---|---|---|---|---|---|
| 1. | "Kəmalə: taleyi və sənəti" kitabının təqdimat | təqdimat | müxbir üzv Ə.Quliyev, f.e.d. F.Xəlilov, f.ü.f.d. R.Qasımov | 27 yanvar | Naxçıvan |
| 2. | "Fədakar ölkəşünas alim: Hacı Mirbağır Mirheydərzadə" kitabının təqdimat | təqdimat | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, t.ü.f.d. M.Quliyev, F.Eylazov | 3 aprel | Naxçıvan |
| 3. | "Heydər Əliyev siyasəti: tarix və müasirlik" monoqrafiyasının təqdimat | təqdimat | müxbir üzv F.Səfərli, t.e.d. E.Şıxəliyev, f.ü.f.d. R.Qasımov | 8 may | Naxçıvan |
| 4. | "Şərur rayonunun tarixi" monoqrafiyasının təqdimat | təqdimat | akademik İ.Hacıyev, t.ü.f.d. A.Qəhrəmanova, t.ü.f.d. İ.Əliyev | 15 may | Naxçıvan |
| 5. | "Dalmatəpə mədəniyyətinin mənşəyi" kitabının təqdimat | | t.ü.f.d. Z.Quliyeva, t.ü.f.d. T.Xəlilov | | |
| 6. | "Məhəmməd Salih. Şeybaninamə" kitabının təqdimat | təqdimat | akademik İ.Hacıyev, f.ü.f.d. R.Qasımov, f.ü.f.d. F.Rzayev | 8 iyun | Naxçıvan |
| 7. | "Naxçıvanın əlyazmalar xəzinəsi" kitabının təqdimat | təqdimat | akademik İ.Hacıyev, müxbir üzv F.Səfərli, f.ü.f.d. A.Orucova | 21 iyun | Naxçıvan |
| 8. | "Naxçıvan paremioloji vahidləri: deyimlər, atalar sözləri və məsəllər" kitabının təqdimatı | təqdimat | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, f.ü.f.d. İ.Zülfiyyə | 11 iyul | Naxçıvan |
| 9. | "Heydər Əliyev: tariximizdə və taleyimizdə" kitabının təqdimatı | təqdimat | akademik İ.Hacıyev, f.ü.f.d. E.Məmmədov, f.ü.f.d. İ.Zülfiyyə, f.ü.f.d. A.Orucova | 4 oktyabr | Naxçıvan |
| 10. | "Bani" kitabının təqdimat | təqdimat | akademik İ.Hacıyev, müxbir üzv V.Baxşəliyev, t.ü.f.d. M.Quliyev, f.ü.f.d. R.Qasımov | 13 oktyabr | Naxçıvan |
| 11. | "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" kitabının təqdimatı | təqdimat | akademik İ.Hacıyev, f.ü.f.d. İ.Zülfiyyə | 22 noyabr | Naxçıvan |
| 12. | "Heydər Əliyev: həyatı və siyasi fəaliyyəti" kitabının təqdimatı | təqdimat | akademik İ.Hacıyev, müxbir üzv Ə.Quliyev, müxbir üzv V.Baxşəliyev, Z.Abbaslı | 14 dekabr | Naxçıvan |

Elmi-tədqiqat müəssisələrində 18 Elmi Şura iclası, araşdırmalara dair 17 seminar keçirilmişdir. İclaslarda elmi-tədqiqat işlərinin müzakirəsi, fəlsəfə və elmlər doktoru üzrə dissertasiya işlərinin yerinə yetirilməsi vəziyyəti, xaricdə və respublikada çap olunan kitab, monoqarafiya və məqalələrin, hesabatların müzakirəsi və s. məsələlər dinlənilmiş və müvafiq qərarlar verilmişdir.

AMEA Naxçıvan Bölməsində çalışan akademik və müxbir üzvlərin, elmlər doktorları və fəlsəfə doktorlarının apardıqları tədqiqatlara uyğun olaraq qrafik üzrə birinci yarımildə Bölmənin Rəyasət Heyətinin iclaslarında 1 elmlər doktoru və 1 elmi işçi müvafiq mövzularda məruzə etmişlər.

***Elm və təhsilin inteqrasiyası.***

2023-cü ildə Bölmə əməkdaşları muxtar respublikanın təhsil müəssisələrində müvafiq profillər üzrə dərslər tədris etmişlər. Əməkdaşların 1 metodik vəsait və fundamental elmin tədrisi ilə əlaqədar Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun, "Naxçıvan" Universitetinin əsərlərində elmi məqalələri çap olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin AMEA Naxçıvan Bölməsinə hamiliyə verilmiş ixtisaslar üzrə təhsil alan tələbələrin iştirakı ilə Bölmənin elmi-tətqiqat müəssisələrində müvafiq layihələri çərçivəsində tədbirlər (seminarlar, açıq dərslər) keçirilmişdir.

AMEA Naxçıvan Bölməsi ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə həyata keçirdiyi "Sabahın tədqiqatçıları" layihəsi çərçivəsində Naxçıvan şəhərinin ümumtəhsil məktəblərindən 19 şagird bölmə alimləri tərəfindən hamiliyə götürülərək, fərdi və kollektiv şəkildə tədqiqatlara cəlb edilmiş və uğurlu nəticələr əldə olunmuşdur. Yekun tədbirdə (16 iyun 2023) əməkdaşlar və şagirdlər sertifikatlar almışlar. Həmçinin 2023-cü ildə alim və ziyalılarla məktəblilərin görüşünün təşkil olunması xüsusi diqqətdə saxlanılmışdır. İl ərzində Naxçıvan şəhər tam orta məktəblərinin şagirdləri ilə görüşlər keçirilmişdir.

***Beynəlxalq əlaqələr.***

2023-cü ildə AMEA Naxçıvan Bölməsi bir çox, o cümlədən ABŞ, Polşa, Türkiyə, Rusiya, İran, Gürcüstan və Qazaxıstan elm

və təhsil müəssisələri və bir çox ölkələrin alimləri ilə əlaqələrdə olmuş, səmərəli əməkdaşlıq etmişdir. Ümumi olaraq bu günədək Bölmə 11 elm və təhsil müəssisəsi ilə elmi əlaqələrə dair müqavilə imzalamışdır. Hesabat ilində Bölmənin 8 əməkdaşı xaricdə 11, 20 əməkdaşı respublikada 9 beynəlxalq tədbirdə məruzə etmişlər.

***Elektron elmin vəziyyəti.***

2023-cü ildə Bölmənin elektron portalında www.ameanb.az mühüm məlumat və keçirilən tədbirlər yerləşdirilmiş, sayt xəbər və materiallarla zənginləşdirilmişdir. Bölmənin Elektron kitabxanasında müxtəlif elm sahələrinə aid 520 kitabın elektron variantı hazırlanmış, bunlardan 363-ü www.e-kitab.ameanb.nmr.az elektron portalına, 157-si kitabxana daxili şəbəkədə yerləşdirilmişdir. Elektron kataloqlaşdırma prosesində inventar sayı 1141 olan 217 adda kitab və 138 ədəd avtoreferatlar elektron kataloqlaşdırılmışdır. Elektron kartotekalara 647 ədəd qəzet və jurnal məqalələrinin biblioqrafik təsviri daxil edilmişdir ki, bunlardan 568-i qəzet, 79-u isə jurnal məqalələridir. Kitabxananın saytına 2 adda 290 qəzet, 5 jurnal yerləşdirilmişdir. Kitabxanada elektron oxucuların sayı 155 nəfər, elektron oxu zalında oxucu davamiyyəti 340, elektron oxunma sayı isə 1040 olmuşdur. Kitabxanada 6 virtual sərgi təşkil olunmuş, "Naxçıvanın tarixi, arxeologiya və etnoqrafiyası" və "Ümummili lider Heydər Əliyev – 100" adlı 2 daycest hazırlanmışdır.

AMEA Naxçıvan Bölməsi Facebook və İnstagram sosial şəbəkələrində aktiv fəaliyyət göstərmiş, 2023-cü ildə Facebook sosial şəbəkəsinə 625, İnstagram sosial şəbəkəsinə isə 288 məlumat yerləşdirlmişdir. Qeyd olunan sosial şəbəkələr 16 ölkə üzrə izlənmiş, ümumi ziyarətçi sayı 23144 olmşdur.

***Maddi-texniki baza.***

2023-cü ildə Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu əməkdaşlarının "Tumbultəpə"də apardığı arxeoloji ekspedisiya üçün 13289 manat vəsait xərclənmişdir. Əməkdaşların internet xidmətlərindən istifadəsi üçün 1980, elmi-tədqiqat işlərinin müvafiq struktur bölmələrdə aparılması üçün ölkədaxili ezamiyyə xərclərinə 4180 və Türkiyə Cümhuriyyətinin dövlət arxivlərindən Naxçıvana aid materialların gətirilməsi üçün xarici ezamiyyə xərclərinə 5049 manat vəsait sərf edilmişdir. Bölmə üçün

dəftərxana ləvazimatlarına, cari təsərrüfat materiallarına, mətbəə məhsulları və Nəşriyyata kartric alınmasına 5868, yanacaq və sürtkü materiallarına 3811, avtomaşınların təmiri və ehtiyat hissələrinə 611, icbari sığorta olunmaları üçün 319, təbii qaz yanacağına 3821, poçt-rabitə xidmətlərinə 2348 manat vəsait xərclənmişdir. Hesabat ilində Bölmənin Elmi Kitabxanasının 9 adda Respublika və yerli qəzet və jurnallara abunə yazılışı üçün 828 manat vəsait sərf edilmişdir.

İl ərzində Bölmənin Kitabxanasına daxil olan çap məhsullarının həcmi 2725 ədəd olmuşdur. Kitab fonduna 2660 ədəd kitab daxil olmuşdur ki, onlardan 2513-ü Azərbaycan və rus, 147-si isə Qərbi Avropa və Şərq dillərində olmuşdur. Fonda daxil olan kitabların 2057-si Naxçıvan Muxtar Respublikası Ali Məclisi, 66-sı Türk Konsulluğu, 13-ü AMEA Ədəbiyyat İnstitutu, 210-u Naxçıvanşünaslıq Mərkəzi, 74-ü AMEA Naxçıvan Bölməsinin sədri akademik İ.Hacıyev, 165-i f.ü.f.d. E.Məmmədov, 75-i müxtəlif müəlliflər tərəfindən hədiyyə verilmişdir. Jurnal fonduna 65 ədəd jurnal daxil olmuşdur ki, onlardan 62-si Azərbaycan və rus, 3-ü isə Qərbi Avropa dillərindədir. Jurnal fonduna müxbir üzv Ə.Quliyev və f.ü.f.d. E.Məmmədov tərəfindən jurnallar hədiyyə edilmişdir. Kitabxana fonduna 243 ədəd avtoreferat, 2 ədəd dissertasiya daxil olmuşdur. İl ərzində 5 yeni kartoteka yaradılmışdır: Heydər Əliyev – 100, Əhməd Cavad – 100, Dahi Azərbaycan şairi Nizami Gəncəvi – 880; Azərbaycanın tarixi mədəniyyət mərkəzi Şuşa – 220; İrəvan xanlığının mədəni irsinin tədqiqi tarixi. 2023-cü ildə 13 yeni üzv yazılmaqla ənənəvi oxucuların sayı 488 oxucu, ənənəvi oxucu davamiyyəti 3004 olmuşdur. Kitabxanada ədəbiyyatın təbliği məqsədilə 9 mövzu və 6 yeni kitab sərgi təşkil olunmuşdur. “Naxçıvanın tarixi, arxeologiya və etnoqrafiyası” və “Ümummili lider Heydər Əliyev – 100” adlı 2 daycest hazırlanmışdır.

***Mükafat və təltiflər.***

2023-cü ildə f.e.d. N.Əliyeva elm sahəsində səmərəli fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diploma, s.ü.f.d Ə.Qasımov “Nizami” Kino Mərkəzində Azərbaycan Vətən Müharibəsi

Veteranları İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən "Şəhidlər zirvəsi" filminin təqdimat mərasimində ssenari müəllifi kimi Fəxri Fərmana layiq görülmüş, f.ü.f.d. R.Qasımov Kütləvi İnformasiya Vasitələrindəki fəallığına, G.Qənbərova səmərəli fəaliyyətinə görə Bölmənin Fəxri Fərmanı ilə təltif edilmişdir. Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş respublika elmi konfransında etdiyi məruzəyə görə f.ü.f.d. A.Cəfərova, Güney Azərbaycan folklorunun toplanması, nəşri və tədqiqinə həsr olunmuş beynəlxalq elmi konfransa qatıldığı üçün s.ü.f.d Ə.Qasımov və f.ü.f.d. A.Cəfərova "Təşəkkür bəlgəsi" almışlar. 2023-cü ildə Bölmənin iki əməkdaşı "İlin alimi" adına layiq görülmüş və mükafatlandırılmışdır. Həmçinin kitab və monoqrafiyası çap olunan əməkdaşlara pul mükafatı verilmişdir.

## MÜNDƏRİCAT

Giriş. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .3
Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində 2023-cü ildə icra olunan fərman, sərəncam və qərarlar. . . . . . . .5
Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin elmi-tədqiqat müəssisələrinin 2023-cü ildəki fəaliyyəti. . . . . . . . . . 15
Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin elmi müəssisələrində 2023-cü ildə əldə olunan mühüm nəticələr. . . .52
Bioresurslar İnstitutunda 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işləri haqqında qısa məlumat. . . . . . . . . . . . . . . . . . . . . . 54
Bioresurslar İnstitutunda 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işlərinin mühüm nəticələri. . . . . . . . . . . . . . . . . . . . . . . . 55
Təbii Ehtiyatlar İnstitutunda 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işləri haqqında qısa məlumat. . . . . . . . . . . . . . . . . . . .57
Təbii Ehtiyatlar İnstitutunda 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işlərinin mühüm nəticələri. . . . . . . . . . . . . . . . . . . . . .57
Batabat Astrofizika Rəsədxanasında 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işləri haqqında qısa məlumat. . . . . . . . . . . . . . . .61
Batabat Astrofizika Rəsədxanasında 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işlərinin mühüm nəticəsi. . . . . . . . . . . . . . . . . . 61
Naxçıvan Dövlət Universitetində 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işləri haqqında qısa məlumat. . . . . . . . . . . . . . . . .62
Naxçıvan Dövlət Universitetində 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işlərinin mühüm nəticələri. . . . . . . . . . . . . . . . . .63
Naxçıvan Müəllimlər İnstitutunda 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işləri haqqında qısa məlumat. . . . . . . . . . . . . .67
Naxçıvan Müəllimlər İnstitutunda 2023-cü ildə yerinə yetirilən elmi-tədqiqat işlərinin mühüm nəticələri. . . . . . . . . . . . . . . . .72
Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2023-cü ildəki elmi-təşkilati fəaliyyətinin təsnifatı . . . . . . . . . . . . . .74
Kadr potensialı. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .74
Elmi nəşrlər. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .75
Tədbirlər. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .78
Elm və təhsilin inteqrasiyası. . . . . . . . . . . . . . . . . . . . . . . . . . .87
Beynəlxalq əlaqələr. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .87
Elektron elmi vəziyyəti . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .88
Maddi-texniki baza. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .88
Mükafat və təltiflər. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .89

Formatı 60x84 1/16
5,8 çap vərəqi. Sifariş № 182
Sayı 50

*AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.*
**Ünvan:** *Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.*